Hər kəs ədalətli olacaq

www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | İctimai-siyasi, hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 41 (6134) 31 oktyabr 2025-ci il | Qiyməti 40 qəpik

# İlham Əliyev: "Zəfərimiz bütün dünyaya səs salıb"



**Düz beş il bundan əvvəl bu ərazi (Horovlu kəndi) işğaldan azad edildi və bu şanlı tarix hər zaman bizim qəlbimizdə yaşayacaq.**

**Adalet.az xəbər verir ki, bu sözləri Prezident İlham Əliyev Cəbrayıl rayonunun Horovlu kəndində sakinlərlə görüşündə deyib.**

**Bir neçə gündən sonra tarixi Zəfərimizin beşinci ildönümünü qeyd edəcəyimizi söyləyən dövlət başçısı vurğulayıb:**

**"8 Noyabr - Zəfər Günü bizim tariximizdə olan ən parlaq səhifədir. Beş il bundan əvvəl tarixi Zəfərimiz bütün dünyaya səs salıb".**

## Vilayət Eyvazov sıra baxışı keçirdi

### 14 nəfər Vətən müharibəsi iştirakçısı polisə qəbul olundu



**Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov oktyabrın 27-də respublikanın şəhər, rayon polis orqanları və daxili qoşunlarda xidmət etmək arzusunda olan gənclərin növbəti sıra baxışını keçirib.**

DİN-dən Adalet.az-a verilən məlumata görə, Bakı şəhərində keçirilən sıra baxışında Daxili İşlər Nazirliyinə onlayn qaydada müraciət etmiş gənclərdən daha hazırlıqlı olan 189 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb ki, onlardan da 14 nəfəri Vətən müharibəsi iştirakçısıdır

Gənclər qarşısında çıxış edən nazir V.Eyvazov seçim turunun digər mərhələlərindən də uğurla keçərək daxili işlər orqanlarında xidmətə qəbul ediləcək gənclərə gələcək fəaliyyətlərində uğurlar arzulayıb, tapşırıq və tövsiyələrini verib.

## BALAKƏNİN İCRA BAŞÇISININ MAAŞINI...



**Day İslam Rzayev almır. DTX-nın apardığı əməliyyat nəticəsində icra başçısı, rayonun baş memarı saxlanılıb. Əməliyyat hələ davam edir.**

## COVİD-dən canımız qurtarmamışdı ki,



**indi də dabaq çıxdı ortaya. İqtisadiyyatımızı məhv etmək üçün düşmən ölkələr, böyük ölkələr nə qaldı fikirləşməyələr?! Qarabağı azad eləməyimiz ox olub çoxlarının gözünə sancılıb. Əvəzini belə şeylərlə çıxarmaq istəyirlər. Bu da keçər. Eybi yox, bir az dondurulmuş Braziliya əti yeyərik. 70 il Sovet hökuməti bizə dondurulmuş ət yedirtdi, ölmədik ki.**

Düzdür, Sovet hökuməti o dondurulmuş əti 2 manata satırdı, indi deyəsən, 15 manata satırlar.

## "Sovetski"də tarixi binalar sökülür?



**Müxtəlif KİV-lərdə keçmiş "Sovetski" adlanan ərazidə tarixi binaların söküntüsü və onlara müdaxilə ilə bağlı yayılmış məlumatlarla bağlı açıqlama verilib.**

Bakı Şəhər İcra Hakimiyyətinin Mətbuat xidmətindən Adalet.az-a bildirilib ki, qeyd edilən ərazidə rəsmi dövlət reyestrinda olan heç bir tarixi bina, o cümlədən tarixi əhəmiyyət kəsb edən digər binaların söküntüsü nəzərdə tutulmayıb.

"Hazırda bu ərazidə yalnız qəzalı vəziyyətdə olan, istismar müddətini başa çatdırmış binaların söküntüsü həyata keçirilir. Mirzə Fətəli 31 ünvanında yerləşən binaya gəlincə, söküntü sözügedən binada deyil ona bitişik olan qəzalı binada həyata keçirilib. Söküntü işləri başa çatdırıldıqdan sonra bu binanın əsaslı bərpası nəzərdə tutulub.

Sonda bir daha media qurumlara müraciət edərək xahiş edirik ki, yalnız dəqiqləşdirilmiş məlumatları yaysınlar. Bu ərazidə 3 qurumun nümayəndələrindən ibarət xüsusi komissiya fəaliyyət göstərir və hər bir bina ilə bağlı birgə rəy verilir", - məlumatda vurğulanıb.

## İÇİNDƏ TELEVİZOR VAR?



**Rövnəq Abdullayevin oğlu Rəşadın oğurlanmış 1,3 milyon dollarlıq saatı ildən sonra yenə gündəmə gəlib. İndi də vəkil deyir ki, saat onun deyilmiş, dostunun imiş, fors eləmək üçün alıb taxıbmış.**

Saatın qiyməti 1,3 milyon dollar. Məni saatın kimin olması və oğurlanması o qədər də maraqlandırmır. Yadıma bir Hollivud filmindəki epizod düşdü.

Polis bir şübhəlini qoruyur. Şübhəli əzilmiş şalvarını polisə göstərib deyir:

**- Bunu altı yüz dollara almışam.**

Polis təəccüblə soruşur:

**- İçində televizor var?**

İndi 1,3 milyon dollarlıq saatın içində televizor var? Yəni doğrudanmı bu qiymətə saat var?

Yeri gəlmişkən, saatın qiyməti saat taxılan biləkdədir. Görən, o biləyin qiyməti neçəyədir?

## Bakıda yeni parklanma yerləri yaradıldı

**Bakının Yasamal rayonunun Dadaş Bünyadzadə küçəsində 5 parklanma məntəqəsi yaradılaraq sürücülərin istifadəsinə verilib.**

Bu barədə Azərbaycan Yerüstü Nəqliyyat Agentliyindən (AYNA) bildirilib.

Parklanma yerləri təşkil edilən zaman fiziki imkanları məhdud sürücülərin avtomobilləri üçün müvafiq şərait yaradılıb.

Yaxın günlərdə Uluxanlı və Füzuli küçələrində də parklanma yerləri istifadəyə veriləcək. Nişanlanma xətlərinin çəkildiyi küçələrdə müvafiq yol nişanları quraşdırılaraq yeni məntəqələr nəqliyyat vasitələri sahiblərinin ixtiyarında olacaq.

*Əbülfət MƏDƏTOĞLU*

## Yazılması içimin istəyi olan Etiraf

Bax:səh-8

## GÜNÜN LƏTİFƏSİ

Mamed bir gün avtobusla rayona gedirmiş.

Avtobusda bir qız ona baxır, Mamed sevinir ki, qızın ondan xoşu gəldi. Avtobus son dayanacaqda dayananda, qız Mamedə yaxınlaşır və deyir:

**- Mamed, sən subaysan?**

Mamed sevinə - sevinə:

**- Hə, əlbəttə subayam...**

- Mamed, mümkündürsə evlənmə, qoy nəslin kəsilsin...

## Prezident Sərəncam imzaladı



**Balakən Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilib.**

Bununla bağlı Prezident İlham Əliyev Sərəncam imzalayıb.

Sərəncama əsasən, İslam Vahid oğlu Rzayev Balakən Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilib.

## Prezident İlham Əliyev Birləşmiş Ərəb Əmirlikləri Federal Milli Şurasının sədrini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 29-da Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) Federal Milli Şurasının sədri Saqr Qobaşın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.**

Qonaq, ilk növbədə, Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın salamlarını dövlətimizin başçısına və Azərbaycan xalqına çatdırdı. Saqr Qobaş bildirdi ki, Şeyx Məhəmməd bin Zayed Al Nəhyan bu ilin sentyabrında Azərbaycana, Şuşa şəhərinə səfərini və dövlətimizin başçısı ilə görüşünü məmnunluqla xatırlayır.

Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsinin 30 illiyinə həsr olunmuş beynəlxalq parlament konfransının yüksək səviyyədə təşkil edildiyini deyən Birləşmiş Ərəb Əmirlikləri Federal Milli Şurasının sədri vurğuladı ki, bu tədbir ölkəmizin konstitusional dəyərlərə və suverenliyə nə qədər sadiq olduğunun və əhəmiyyət verdiyinin bariz nümunəsidir.

Qonaq Azərbaycanın inkişafına toxunaraq, bunun Prezident İlham Əliyevin uzaqgörən siyasəti nəticəsində mümkün olduğunu vurğuladı. Saqr Qobaş paytaxt Bakının gözəlliyinin və memarlığının onda dərin təəssürat hissi yaratdığını dedi.

Dövlətimizin başçısı salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Birləşmiş Ərəb Əmirliklərinin Prezidentinə və xalqına çatdırmağı xahiş etdi.

Prezident İlham Əliyev Şeyx Məhəmməd bin Zayed Al Nəhyanla həm Əbu-Dabidə, həm də Azərbaycanda Bakı və Şuşa şəhərlərində görüşlərini və aparılmış müzakirələri məmnunluqla xatırladı.

Dövlətimizin başçısı Birləşmiş Ərəb Əmirliklərinin sabiq prezidenti Şeyx Zayed bin Sultan Əl Nəhyanın uzaqgörən siyasəti və ölkə rəhbərliyinin ardıcıl səyləri nəticəsində Birləşmiş Ərəb Əmirliklərinin uğurlu nümunəvi inkişafını qeyd etdi.

Ulu Öndər Heydər Əliyevin BƏƏ-nin sabiq Prezidenti Şeyx Zayed bin Sultan Əl Nəhyan ilə 1994-cü ildə İslam Əməkdaşlıq Təşkilatının Kasablanka Sammitində görüşü xatırlanaraq, məhz həmin görüşdə ölkələrimiz arasında hazırkı münasibətlərin təməlinin qoyulduğu vurğulandı.

Qonaq regionda sülhün təmin olunması, Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşması münasibətilə Prezident İlham Əliyevi təbrik etdi.

Dövlətimizin başçısı təbriklərə görə təşəkkürünü bildirərək, Ermənistanın Azərbaycana qarşı 30 il davam edən işğalından sonra hər iki tərəfin hazırda sülh şəraitində yaşamağa uyğunlaşdığını bildirdi.

Prezident İlham Əliyev bundan sonra da ölkəmizin regionda davamlı sülhün təmin olunması, nəqliyyat layihəsinin, xüsusilə TRIPP xətti üzrə nəqliyyat bağlantılarının yaradılması istiqamətində səylərini davam etdirəcəyini dedi.

**Söhbət zamanı Azərbaycanla BƏƏ arasında münasibətlərin strateji tərəfdaşlıq səviyyəsində bütün istiqamətlər üzrə uğurla inkişaf etdiyi qeyd olundu. Bu xüsusda "Masdar" şirkətinin Azərbaycana bərpaolunan enerji sektoruna sərmayələrinə, SOCAR-ADNOC əməkdaşlığına, qarşılıqlı investisiyalara toxunuldu.**

# Milli Məclisdə beynəlxalq parlament konfransı keçirildi

**Milli Məclisdə Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsinin 30 illiyinə həsr olunmuş beynəlxalq parlament konfransı keçirilib.**

Adalet.az xəbər verir ki, parlamentin sədri Sahibə Qafarova deyib ki, Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin əzmlə həyata keçirdiyi tarixi missiya müasir dövlətin əsaslarını yaratmağa imkan verib.

Spiker qeyd edib ki, Heydər Əliyevin rəhbərliyi ilə hazırlanmış Konstitusiya hakimiyyət bölgüsü prinsiplərini müəyyən edib, insan hüquqları və azadlıqları üçün təminatlar yaradıb: "Konstitusiyamız həm də gələcəyə inam və quruculuq dövrünün simvoludur".

Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) Federal Milli Şurasının sədri Saqr Qobaş qeyd edib ki, Azərbaycanın təcrübəsi Konstitusiyanın sadəcə, hüquqi mətn olmadığını, dünyaya dövlət ruhunu əks etdirən bir pəncərə olduğunu göstərdi: "Azərbaycanda baş verən inkişaf ötəri deyil, bu, dövlət və vətəndaş arasında əsl tərəfdaşlığın mövcudluğunu göstərir".

Tacikistan Respublikası Ali Məclisi Nümayəndələr Palatasının sədri Fayzali İdizoda Azərbaycan Konstitusiyasının dövlətin beynəlxalq nüfuzunu möhkəmləndirdiyini və daxili sabitliyin möhkəm əsaslarını yaratdığını söyləyib: "Artan beynəlxalq qeyri-sabitlik şəraitində sabitliyi qorumaq və milli maraqları müdafiə etmək yalnız konstitusion dəyərlərə sadiqlik sayəsində mümkündür".

Rumıniya Parlamenti Senatının sədri Mirça Abrudean bildirib ki, Azərbaycan Konstitusiyası siyasi sistemin güclü təməlini qoyub, ərazi bütövlüyü, suverenlik, insan hüquqlarına hörmət prinsiplərini təsdiqləyib: "Azərbaycan ötən dövrdə dinamik inkişafı ilə yanaşı təkamül edib. Bu gün Azərbaycan Konstitusiyasının 30-cu ildönümünə həsr olunmuş konfransda iştirakım ölkələrimizin parlamentləri arasında səmimi dostluğun göstəricisidir".

Konstitusiyanın önəmini qeyd edən Belarus Milli As-



sambleya Respublika Şurasının sədr müavini Vladislav Tatarinoviç Azərbaycanın qətiyyətlə müstəqil siyasət həyata keçirdiyini, beynəlxalq arenada nüfuzunun artdığını da vurğulayıb: "Belarus və Azərbaycan arasında əməkdaşlıq getdikcə daha da inkişaf edəcək".

Serbiya Milli Assambleyanın sədr müavini Covan Canciç Azərbaycanın öz Konstitusiyası sayəsində beynəlxalq ictimaiyyətin nüfuzlu üzvünə çevrildiyini söyləyib: "Bu gün Azərbaycan dünya üçün sürətlə inkişaf edən ölkə nümunəsidir".

Gürcüstan Parlamentin sədr müavini Nino Tsilosani Azərbaycan və Gürcüstan konstitusiyalarının qəbulu ilə müstəqilliklərinin dönməz olduğunu, başqalarının üzərlərində hökmranlığının geri qayıtmasının mümkün olmayacağını ortaya qoyub.

Türkiyə Böyük Millət Məclisinin Bürosunun üzvü Hasan Turan isə çıxışında Prezident İlham Əliyevin qətiyyətli siyasəti nəticəsində Azərbaycanın Cənubi Qafqazda sülhün öncüsünə çevrildiyini söyləyib, Azərbaycan-Türkiyə strateji münasibətlərinin daha da inkişaf edəcəyini vurğulayıb.

Kamboca Milli Assambleyasının ikinci vitse-prezidenti Sauth Vong deyib ki, Prezident İlham Əliyev Azərbaycanın ərazi bütövlüyünü bərpa edib, sülh təşəbbüskarı kimi çıxış edib və ölkənin inkişafı üçün lazımi addımlar atıb:

"Konstitusiya sadəcə ali qanun deyil, o bir xalqın ərazi bütövlüyündən tutmuş insan ləyaqətinə qədər hər şeyi özündə əks etdirir".

Konstitusiyanın əhəmiyyətindən danışan Özbəkistan Ali Məclis Senatının Məhkəmə-Hüquq məsələləri və korrupsiyaya qarşı mübarizə komitəsinin sədri Əbdülhakim Eşmuratov Azərbaycan və Özbəkistan arasında münasibətlərin inkişafından da bəhs edib.

Türkiyə Böyük Millət Məclisinin üzvü Şamil Ayrım Konstitusiya hər bir millətin varlığını, iradəsini və müstəqilliyini əbədiləşdirən ali sənəd olduğunu söyləyib: "Bu gün biz Azərbaycan Respublikasının Konstitusiyasının qəbul edilməsinin 30 illiyini böyük şərəf və qürurla qeyd edirik. Bu böyük tarixi addımın memarı da Azərbaycanın Ümummilli lideri Heydər Əliyev olub.

Bu gün Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan ədalət, inkişaf, təhlükəsizlik və milli birlik prinsipləri ilə daha da güclənib.

Bu gün biz Qarabağ qələbəsi ilə taclanan bir dövrdəyik. Azərbaycan xalqı 44 günlük Vətən müharibəsi və 23 saatlıq anti-terror əməliyyatı ilə yalnız öz torpaqlarını azad etməyib, həm də konstitusion quruluşunu, suverenliyini bərpa edib".

Rusiya Federal Məclis Federasiya Şurasının üzvü Natalya Kuvşinova qeyd edib ki, bu gün Azərbaycan Konstitusiyası ölkənin etibarlı hüquqi təminatıdır: "Azərbaycanın Konstitusiyası ölkələrimiz arasında inteqrasiya səylərinin əsasını təşkil edir".

**Qlobal Tolerantlıq və Sülh Şurası Prezidenti Əhməd Əlcarvan Şuranın Azərbaycanı dinc yaşamaq dəyərlərinə görə yüksək şəkildə qiymətləndirdiyini vurğulayıb: "Konstitusiya ədalətin, tolerantlığın bələdçi işığı rolunu oynayır. Qlobal Tolerantlıq və Sülh Şurası Azərbaycanı dinc yaşamaq dəyərlərinə görə yüksək şəkildə qiymətləndirir. Azərbaycan Milli Məclisi ilə tərəfdaşlığımız böyük qürur mənbəyidir. Biz parlamentlər və millətlər arasında sülh ənənəsini yaymaq üçün çalışırıq. Bu əlamətdar hadisədə biz Milli Məclis və bütün sülhsevər Azərbaycan təsisatları ilə əməkdaşlığın dərinləşməsinə və güclənməsinə doğru addımlar atacağımızı bildiririk. Qoy Azərbaycan onun müdrik rəhbərliyi altında uğur qazanmağa davam etsin".**

**Nicat**

# Paşinyan: "Artıq sülh bərqərar olub"

**Ermənistanın baş naziri Nikol Paşinyan 8-ci Paris Sülh Forumu çərçivəsində "Yol ayrıcında liderlik" mövzusunda müzakirədə iştirak edib.**

Adalet.az erməni KİV-ə istinadən xəbər verir ki, Paşinyan sual-cavab formatında keçirilən müzakirədə Ermənistanla Azərbaycan arasında sülhün bərqərar olması, regiondakı vəziyyət və kommunikasiya yollarının açılması üçün atılan addımlardan danışıb.

Baş nazir qeyd edib ki, Ermənistanla Azərbaycan arasında artıq sülh bərqərar olub və bu, reallıqdır. Bu baxımdan Nikol Paşinyan ABŞ Prezidenti Donald Trampın şəxsi səylərini və töhfələrini



yüksək qiymətləndirib: "Bizdə sülh var və bu, reallıqdır. Bu, təkcə Azərbaycanla ikitərəfli münasibətlərimizdə deyil, həm də bütövlükdə regionumuz üçün tarixi bir dəyişiklikdir. Çünki düşünürəm ki, bu, Cənubi Qafqazda iqtisadi əməkdaşlıq mərhələsinə qədəm qoymaq və təkcə dinc deyil, həm də çiçəklənən bir regiona sahib olmaq üçün ilk dəfə yaranmış real fürsətimizdir. Xüsusilə, Vaşinqtonda qəbul edilmiş bəyannamədə ölkələrin ərazi bütövlüyü, suverenliyi, yurisdiksiyası və ikitərəfliliyi prinsiplərinə əsaslanan regional əlaqələrin açılması barədə razılığa gəldiyimiz faktını nəzərə alınmalıdır. Başqa bir prinsip də var - beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı".

O, daha sonra TRIPP layihəsinə toxundu və onun həyata keçirilməsinin həm Ermənistan, həm də Azərbaycan üçün vacibliyini vurğuladı: "Regional əlaqə o deməkdir ki, həm Ermənistan, həm də Azərbaycan bir-birimizin ərazisindən daxili, ikitərəfli və beynəlxalq ünsiyyət üçün istifadə etmək imkanı əldə edəcək və bu o deməkdir ki, ərazimizdən beynəlxalq tranzit üçün yeni bir marşrut açılacaq.

Dünyanın hazırda təchizat zənciri böhranı yaşadığını nəzərə alsaq, bu, həqiqətən də beynəlxalq ticarət, eləcə də regionumuz üçün oyun dəyişdiricisi ola bilər".

**Paşinyan əlavə edib ki, Fars körfəzindən, Oman körfəzindən Qara dənizə qədər açıq rabitə yolları olacaq, Xəzər dənizi ilə Aralıq dənizi arasında yeni bir əlaqə olacaq və Ermənistan üçün yeni imkanlar yaradılacaq.**

# “Ölkəmizlə Azərbaycan arasında dünyada bənzəri olmayan bir qardaşlığın şahidiyik”

**”Ölkəmizlə Azərbaycan arasında dünyada bənzəri olmayan, könüllərdə dərin kök salmış bir qardaşlığın şahidiyik. Tarixi Şuşa Bəyannaməsindən aldığımız ilham və cəsarətlə, ”Bir millət, iki dövlət” anlayışı çərçivəsində ölkəmiz can Azərbaycanın beynəlxalq platformalarda ən güclü dəstəkçisi olmağı davam etdirəcək”.**



Adalet.az xəbər verir ki, bu sözləri Türkiyənin Azərbaycandakı səfiri Birol Akgün Bakıda keçirilən Türkiyə Cümhuriyyətinin yaranmasının 102-ci ildönümünə həsr olunmuş təntənəli mərasimdə çıxında deyib. ”Cənab Prezident İlham Əliyevin liderliyində ”bir yumruq, bir ürək” olaraq işğal altındakı Qarabağ azad edilmiş, milli sərhədləri daxilində tam suverenlik bərpa olunmuşdur. Azərbaycanlı qardaşlarımız bu gün sahədə qazandıqları nailiyyətləri danışıqlar masasına da daşımışdır. Regionda qalıcı sülhün təmin edilməsi, inkişafın başlaması və qarşılıqlı əlaqələrin gücləndirilməsi üçün tarixi bir fürsət yaranmışdır.

Bölgədə yaradılacaq sülh və sabitlikdən yalnız region ölkələri deyil, bütün dünya fayda görəcək. Buna görə də qalıcı sülhün təmin edilməsi hamımızın ən böyük arzusudur.

Atatürkün də ifadə etdiyi kimi, ”Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir.”

Usta şair Bahtiyar Vahabzadənin ”Birdir bizim hər halımız, sevincimiz-məlalımız, bayraqlarda hilalımız, Azərbaycan-Türkiyə” misraları da bu anlayışın təzahürüdür.

Hörmətli Prezidentimizin qlobal sülh və sabitlik uğrunda göstərdiyi səylər bütün dünya tərəfindən yaxından izlənməkdədir. Bu çərçivədə Ukraynada müharibənin bir an öncə dayandırılması, Qəzzədə atəşkəsin təmin olunaraq iki dövlətli həll yoluna çatılması və Suriyada sülh və sabitliyin inkişaf etdirilməsi əsas prioritetlərimizdir.

Azərbaycanla bu bütün məsələlərdə sıx əməkdaşlıq və həmrəylik içindəyik. Daha ədalətli bir dünya mümkündür və bunun üçün birlikdə çalışmalıyıq.

Bütün iştirakçıları bir daha səmimi duyğularla salamlayıram”, - səfir deyib.

# Bakı və Ankara nəyi müzakirə edəcək?

**”Türkiyənin xarici işlər naziri Hakan Fidanın müavini Ayşe Berris Ekincini Bakıya göndərməsi səbəbsiz deyil. ”Şuşa bəyannaməsindən” irəli gələrək iki dövlət arasında məsləhətləşmələrə ehtiyac var. Birincisi, Azərbaycanla Ermənistan arasında dialoq getdikcə genişlənib, tranzit yüklər Azərbaycandan keçməklə Ermənistana çatdırılacaq. Baş nazir Nikol Paşinyan da öz növbəsində Azərbaycan və Türkiyəyə Ermənistan ərazisindən yükləri daşımağı təklif edib. Deməli, bu mövzu Bakı ilə Ankara arasında müzakirə olunmalı, birgə addımlar atılmalıdır. İkincisi, Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan Azərbaycan və Türkiyə prezidentləri İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanı gələn ilin yazında İrəvanda keçiriləcək ”Avropa Siyasi Birliyi”nin sammitinə dəvət etdiklərini bildirib. Bu dəvətə necə cavab veriləcəyinə də Bakı və Ankara birgə qərar verməlidirlər”.**



Adalet.az xəbər verir ki, bunu politoloq Elxan Şahinoğlu deyib. Onun sözlərinə görə, bunların fonunda Türkiyə Ermənistanla sərhədi açacaqmı və bu ölkə ilə diplomatik münasibətləri bərpa edəcəkmi, yoxsa Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanmasını gözləyəcək?

”Bakı bu sualın cavabını Ankaradan eşitmək istəyər. Türkiyə xarici işlər nazirinin müavininin Bakıda müzakirə edəcəyi digər mövzu Qəzza ilə əlaqəli ola bilər. İsrail hökuməti Türkiyə hərbçilərinin Qəzzada beynəlxalq qüvvələrin tərkibində olmasının əleyhinədir, Azərbaycan hərbçilərinə isə yaşıl işıq yandırmağa hazırdır. Bu Türkiyə üçün məqbuldurmu? Bu sual ətrafında da Ankara ilə Bakı arasında müzakirələr aparıla bilər. Prezident İlham Əliyev beynəlxalq konfransların birində üzünü Ermənistanın keçmiş Prezidenti Serj Sərkisyana tutaraq ”Türkiyə burada yoxdur, ona görə belə danışırsız, amma mən burdayam və Sizin cavabınızı verəcəm” şəklində açıqlama vermişdi. İndi Qəzzada Türkiyə hərbçilərinin iştirakı mümkün olmasa, Azərbaycan hərbçiləri sülhün qorunması və sabitlik üçün əllərindən gələnə edəcəklər. Ankara Bakı ilə Moskva arasında normallaşmanın nə yerdə olmasıyla da maraqlana bilər. Bir sözlə, Türkiyə xarici işlər nazirinin müavininin Bakıya səfərində müzakirə ediləcək kifayət qədər mövzu var. Müavin geri qayıtdıqdan sonra Bakıdakı müzakirələr haqqında nazirinə geniş hesabat hazırlayacaq”.

**Vasif ƏLİHÜSEYN**

# «Təhsilsiz qızlar daha yüksək erkən nikah riski daşıyırlar»

**Xəbər verdiyimiz kimi, qadağalar olmasına baxmayaraq son günlər bir neçə bölgəmizdə erkən nikahın qarşısı alınıb. Buna görə məsuliyyət daşıdıqlarını bilən valideynlər yenə də gizli şəkildə yetkinlik yaşına çatmayan qızlarını ərə verməyə cəhd edirlər.**



Məsələylə bağlı Adalet.az-a danışan ”Təmiz Dünya” Qadınlara Yardım İctimai Birliyinin sədri Mehriban Zeynalova bildirdi ki, erkən nikah təkcə müasir dövrün yox, tarix boyu patriarxal cəmiyyətlərin qadına münasibətinin bir göstəricisidir.

Onun sözlərinə görə, müxtəlif dövrlərdə, xüsusilə kənd və ənənəvi icmalarda qızların erkən yaşda ərə verilməsi ”qorunma”, ”şərəfin təminatı” və ya ”ictimai nəzarət kimi” təqdim olunub: ”Azərbaycanda və ümumilikdə Qafqaz regionunda 19-cu əsrdə qızların 12-15 yaşlarında nikaha daxil edilməsi geniş yayılmışdı. Bu təcrübə, Sovet dövründə qanunvericiliklə məhdudlaşdırılsa da, kültür yaddaşında və sosial praktikada öz yerini qoruyub saxlayıb.

Ənənəvi mədəni dəyərlərdə qız uşağının ailənin izzət və şərəf simvolu sayılması, onun tez ərə verilməsi ilə ”təhlükədən qorunması” düşüncəsini möhkəmləndirib. Bununla yanaşı, erkən nikah ailənin iqtisadi yükünü azaltmaq və qızın ”vaxtında ailə sahibi olması” ideologiyası ilə əsaslandırılıb. Bu stereotiplər, xüsusilə təhsildən uzaq icmalarda bu gün də mövcuddur”.

M.Zeynalova deyib ki, hazırkı dövrdə erkən nikahın yayılmasına təsir edən faktorlar yalnız mədəni və dini deyil, eyni zamanda iqtisadi çatışmazlıqlar, məcburi miqrasiya, təhsil imkanlarının məhdudluğu və qızlara qarşı sistemli eyrı seçkiliklə də bağlıdır:

”Məhz bu səbəbdən erkən nikah həm tarixi-mədəni bir təcrübə, həm də müasir dövrdə pozucu sosial norma kimi təhlil olunmalıdır. Erkən nikah, uşaq evliliyi və məcburi evlilik anlayışları bəzən bir-birinin əvəzinə işlədilsə də, onların hüquqi, sosial və psixoloji anlamları fərqlənir. Bu fərqləri ayırd etmək, həm müdaxilə modellərinin düzgün qurulması, həm də sosial reabilitasiya prosesinin elmi əsaslara söykənməsi baxımından vacibdir.

Erkən nikah qadınların hüquqlarını pozan gender əsaslı struktur zorakılıq formasıdır.

Bu zorakılıq çox zaman etnik mənsubiyyət, yoxsulluq, icma təzyiqi və təhsil imkanlarının olmaması nəticəsində formalaşır. Bu isə çoxətraflı riskləri artırır. Məsələn, kənd yerlərində yaşayan, az təminatlı və təhsilsiz qızlar şəhər yerlərindəki həmyaşıdlarına nisbətə daha yüksək erkən nikah riski daşıyırlar”.

**Vasif**

***Rüstəm Hacıyev***



# Tramp narkokartellərlə mübarizəyə başlayır

***Venesuela lideri isə, bunu müharibəyə hazırlıq kimi qiymətləndirir***

***Birləşmiş Ştatlar, prezident Donald Trampın narkokartellərlə mübarizə çərçivəsində, dünyada ən böyük aviadaşıyıcı gəmisini Venesuela sahillərinə göndərib. ABŞ lideri narkokarterləri yerüsrtü əməliyyatlar keçirəcəyi ilə hədələyir.***

***Venesuelanın paytaxtı Karakasda isə əmindirlər ki, prezident Tramp bu ölkənin prezidenti Nikolas Maduronu devirmək üçün müharibəyə başlamağa hazırlaşır.***

***Əslində daha əvvəllərdə olduğu kimi, ABŞ və Rusiya birbaşa deyil, yenə də üçüncü dövlətin ərazilərində qarşılaşmağa üstünlük verdiyi görünür. Beləki, Rusiya bu günlərdə Venesuela ilə strateji əməkdaşlıq müqavilədini ratifikasiya edib və bu da təbii ki, ”Sem dayının” xoşuna gəlməyib.***

***Pentaqonun Karib dənizi hövzəsinə göndərdiyi müasir ”USS Gerad Ford” aviadaşıyıcı gəmisinin göyərtəsində onlarla ”gözəgörünməz” F-35 C Lightning II qırıcı təyyarəsi,F/A-18E/F Super Hornet bombardımançı qırıcı təyyarələri və kəşfiyyatçı təyyarələri var.***

***Hhe Guardian mətbu orqanın məlumatına görə, aviadaşıyıcı gəmi yaxın vaxtlarda Venesuela sahillərinə çatacaq.***

***Görünən odur ki, Tramp administrasiyası okean sularında narkotik daşıdığı güman edilən kiçik gəmiləri məhv etmək kampaniyasını genişləndirərək qyruda da hərbi əməliyyatlara başlamaq fikirindədir.***

***Pentaqonun nümayəndəsi Şon Parnellin sözlərinə görə, hərbi-dəniz əməliyyatlarının genişləndirilməsi ”ABŞ-ın təhlükəsizliyinin qorunmasına və ölkənin çiçəklənməsinə xidmət etmək imkanlarını artıracaq”.***

***Venesuelanın prezidenti Nikolas Maduro, ABŞ-ın regionda hərbi gücünü artırması müharibəyə hazırlıq kimi qiymətləndirilməlidir. Venesuela prezidenti, rusiyalı həmkarının dəstəyi ilə, ABŞ-ın Karib dənizində cəmləşən hərbi qüvvələrinə qarşı mübarizə aparacaqlarlnı bəyan edib. Maduro bildirib ki, Rusiyanın onlara verdiyi 5 min ədəd ”İqla-S” zenit-raket kompleksləri artıq bütün ölkə ərazilərinə yerləşdirilib. O, qeyd edib ki, amerikan hərbi qüvvələrinə qaşı zenit-raket kompleksləri ilə yanaşı milyona yaxın ehtiyatda olan qüvvələrini də, səfərbər edə bilər.***

***Dünyada yeni müharibə ocağı alovlana bilərmi? Ümid edək ki, yaranmasın...***

# “Yüksək vergilər iqtisadi fəallığı azaldır...”

**”1981-ci ildə ABŞ prezidenti Ronald Reyqan hakimiyyətə gələndə ölkədə gəlir vergisinin ən yüksək dərəcəsi 70% idi. Həmin dövrdə bu göstərici Böyük Britaniyada 83%, Qərbi Almaniyada 60%, İsveçdə 80%, Yaponiyada 70%, Kanadada isə 60% idi. Dünyada vergi dərəcələri indiki ilə müqayisədə rekord səviyyədə idi. Məhz belə bir zamanda Reyqan əvvəlcə vergini 70%-dən 50%-ə, daha sonra isə 28%-ə endirdi”.**



Adalet.az xəbər verir ki, bunu iqtisadçı Eldəniz Əmirov deyib.

O deyib ki, Reyqan müsahibəsində bu qərarın arxasında 600 il əvvəl yaşamış İbn Xəldunun fikirlərinin dayandığını bildirmişdi:

”Reyqan demişdi ki, İbn Xəldun öz əsərində yazırdı: ”Vergiləri çoxaldan dövlətlərin iqtisadiyyatı tənəzzül etmiş, vergiləri azaldanları isə çiçəklənən gördüm”. Bu siyasət sonradan ”Reaganomics” (Reyqan iqtisadiyyatı) adı ilə tanındı. Onun mahiyyəti sadə idi. Yüksək vergilər iqtisadi fəallığı azaldır, aşağı vergilər isə sahibkarlığı və istehsalı stimullaşdırır, nəticədə büdcəyə daha çox vəsait daxil olur. Reyqanın bu siyasəti əvvəlcə mübahisələr doğursa da, iqtisadi artım canlandı, işsizlik azaldı, şirkətlərin ABŞ-yə sərmayə axını artdı.

Beləliklə, Ronald Reyqan vergi siyasətində yalnız ABŞ üçün deyil, bütün dünya üçün yeni bir dövrün əsasını qoydu, ondan sonra vergi dərəcələrinin endirilməsi və iqtisadi fəallığın stimullaşdırılması qlobal trenda çevrildi”.

**Eldar**



*Fazil Mustafa*

# Fəxrimiz, qürurumuz "Qarabağ"!

**Futbola münasibətdə olan qaragüruhçuluq siyasi, ictimai mühitdə olandan daha acınacaqlı imiş. Ölkəmizin qürur mənbəyi olan, futbol təsərrüfatımızın ayıbını örtbas edən "Qarabağ" klubu 2 möcüzəli qələbədən sonra gedib İspaniyada dünyanın ən güclü klublarından biri olan Atletik Bilbaoya 3-1 hesabı ilə məğlub olub.**

**Həm də komanda gücü yetdiyindən də artıq bir fədakarlıqla mübarizə apararaq məğlub olub. Səhv etmirəmsə, oktyabr ayında Bilbaonun İspaniya millisində 1 oyunçusu oynadı, "Qarabağ"ın isə 7 oyunçusu millinin heyətində oynadı. Həm də son iki oyunda millimiz azçox baxımlı futbol ortaya qoydu. İndi həmin oyunçular öz klub komandasına dönüb Çempionlar Liqasında möcüzə yaratmağa çıxırlar. Bu həmişə mümkündürmü? Əlbəttə yox! "Qarabağ" bundan sonra bütün oyunları uduzsa belə Azərbaycan futbolu adına öz qəhrəmanlığını, fədakarlığını edib.**

**"Qarabağ"ı bu yarışın çempionu görmək istəyirsiniz? Hələ ki, Azərbaycan çempionu olması ilə ilə bəlkə kifayətlənək? İndi sadəcə gözəl futbol tamaşasına çayımızı içib tamaşa etmək, dünyanın ən peşəkar futbolçuları ilə ayaqlaşmağa çalışan futbolçularımızı alqışlamaq və onsuz da fədakarlıq edən bu insanları amansız şəkildə qınamaqdan uzaq durmaq doğru davranışımız olmazmı? Digər tərəfdən 21 yaşlı Nəriman Axundzadəni hədəfə alanlar da böyük səhvə yol verirlər. Sabah bu hədəfdə Bəhlul da, Elvin də, Toral da hansısa bir yanlışa görə ola bilər. Son illərdə futbol bataqlığında az-çox yetişə bilən bu gəncləri bu cür linç etməklə nə qazanacaqsınız? Əlbəttə, səviyyə fərqləri var, fiziki şərtləri məşqçi heyətindən başqa kimsə dərindən bilmir, kənardan bu cür mühakimə, ittiham meydanda olub-qalan tək komandamıza zərər verir.**

**Bu komanda məğlub olanda da, tökülüb-dağılmırsa, mən elə bundan da zövq almağa davam edəcəyəm! Fəxrimiz, qürurumuz "Qarabağ"!**

# "Əgər kimsə ölüsü üçün fayda vermək, rəhmət qazandırmaq istəyirsə..."



**Ağstafada iki qardaş vəfat edən atalarına dəbdəbəli ehsan verməyiblər. Onlar ehsan süfrəsinə sərf olunacaq vəsaitlə yaşadıqları kəndin mərkəzi yolunu təmir etdiriblər. Onlar bu addımı kənd sakinləri tərəfindən də müsbət qarşılanıb.**

Məsələyə münasibət bildirən ilahiyyatçı Tural İran Adalet.az-a açıqlamasında dinimizdə ölü yerində yemək vermək və ehsan süfrəsi açmaq göstərişi olmadığını dedi. Onun sözlərinə görə, Həzrət Muhəmməd Peyğəmbərin həyatında belə nümunəyə rast gəlinmir: "Heç İmamlar, yəni, Əhli Beyt mənsubları da vəfat edərkən, şəhid olarkən ehsan verilməyib. Yemək ehsanı bir növ sevincli hadisələr olanda verilir. Adam vəfat edəndə ehsan vermək dinin əleyhinədir. Xüsusən dəbdəbəli ehsan vermək lap günahdır. Ona görə ki, israf dində haramdır. Əgər kimsə ölüsü üçün fayda vermək, rəhmət qazandırmaq istəyirsə, o niyyətlə xeyirxahlıq işlər görməlidir. Körpü salamaq, yol çəkmək, bulaq tikmək savabdır. Əgər Ağstafada belə bir nümunə ortaya qoyulubsa, bunu təqdir etməliyik. Bir qədər əvvəl Bakının Fatmayi kəndində də oxşar nümunə həyata keçirilmişdi. Əsl ehsan budur".

İlhahiyyatçının sözlərinə görə, ən pisi odur ki, bizim cəmiyyətdə çoxu ehsanı yalnız yemək kimi qəbul edirlər:

"Halbuki İslamda ehsan, ümumiyyətlə yaxşılığa, xeyirxahlıq əməlinə deyilir ki, burada da heç bir təmənna güdülmür. Qəbristanlıqda, kənddə, qəsəbədə abadlıq işləri görüb savabını mərhuma hədiyyə etmək əbədi savaba səbəb olur. Amma yemək süfrəsi isə bircə dəfəlikdir. Daha yaxşı olar ki, bu kimi nümunələri məmurlar, səlahiyyətli şəxslər, hətta din xadimləri də göstərsinlər. Bir neçə il bundan əvvəl deputat, Milli Cəbhə Partiyasının sədri Razi Nurullayevin valideyni vəfat edərkən yas sahibləri kəndin yollarının təmirinə dəstək oldular, sadə və dəbdəbəsiz şəkildə də süfrə təşkil olunmuşdu. Bu kimi nümunələr faydalıdır, amma gərək digərləri də əməl etsinlər".

O deyib ki, belə nümunələr artdıqca əhalinin israfçılığına son qoyular, qəsəbələr, yollar da abadlaşar:

"Məmurlar, vəzifəli şəxslərin, deputatların önə düşməsi, ilk nümunələri təqdim etməsi bir çox yöndən zəruridir. Çünki çox zaman əhaliyə dəbdəbəli ehsan əvəzinə yol çəkmək, abadlıq işləri görmək tövsiyə edəndə cavab verirlər ki, elədirsə niyə filan məmur, filan imkanlı şəxs elə etmir? Müəyyən mənada bu iradlar əsaslıdır. Ona görə yaxşıdır ki, əhalinin bütün təbəqələri bu cür addımlar atsınlar".

**Tural**

# Təhsil, tibb və sosialda normalar artırıldı: daha hansı artımlar olacaq?

**"Azərbaycan Prezidentinin "Yaşayış minimumu haqqında" Qanunda təsdiq etdiyi dəyişikliklərə uyğun olaraq Nazirlər Kabineti tibb, təhsil müəssisələrində və sosial sahəyə aid müəssisələrdə şəxslərin yeni qida normalarını müəyyənləşdirib. Yeni qərar ilə tibb və təhsil müəssisələrində uşaqlar üçün sutkalıq qida normaları təsdiq edilib. Sosial sahəyə aid olan müəssisələrdə xidmət alan şəxslər üçün də orta sutkalıq qida normalarının təsdiqi də reallaşıb".**

Adalet.az xəbər verir ki, bunu millət vəkili Vüqar Bayramov deyib. Onun sözlərinə görə, dəyişikliklərə əsasən, tibb və təhsil müəssisələri ilə yanaşı, sosial sahəyə aid müəssisələrdə şəxslər üçün də yeni qida normaları təsdiq edilib: "Belə ki, əvvəlki qanunvericilikdə sosial sahəyə aid müəssisələr üçün normaların təsdiqi nəzərdə tutulmurdu və bu da institutsional olaraq onların bu imkandan tam faydalanmasına imkan vermirdi. Yeni dəyişikliklər bu boşluğu aradan qaldırdı. Artımlara gəldikdə isə, yeni normalarda artımlar da təsdiq edilib və bu da həmin qurumlara dövlət büdcəsindən daha çox vəsaitin ayrılacağı anlamına gəlir. Təbii ki, bu



həmin müəssisələrin fəaliyyətlərinin səmərəliliyinin artmasına və maddi və sosial təminatının daha da gücləndirilməsinə imkan verəcək. Yeni qida normalarının təsdiqi həmin müəssisələrdə xidmət alan vətəndaşlarımız üçün yeni imkan kimi xarakterizə olunur. Belə ki, yeni normalar müasir çağırışlar və xərclər nəzərə alınmaqla təsdiq olunub. Bu isə həmin müəssislər üçün ödənilən məbləğin artmasına səbəb ola bilər. Təbii ki, bu həmçinin həmin qurumlarda xidmətin keyfiyyətinin də artmasına gətirib çıxaracaq. Bu baxımdan, yeni normaların təsdiqi mütərəqqidir və büdcədən bu sahəyə daha çox vəsait ayrılmasına səbəb olmaqla vətəndaşlarımızın sosial təminatının gücləndirilməsinə xidmət edəcək".

**Vasif ƏLİHÜSEYN**

# «Bu, erməni ictimaiyyətinin Nikol Paşinyana dəstəyini artırır»

**"Ermənistan sabiq prezidenti Robert Köçəryan Vaşinqtonda imzalanmış sənədi hüquqi cəhətdən tanımır**

"Ermənistanın sabiq prezidenti Robert Köçəryan bu ayın əvvəlində Moskvadan qayıtdıqdan sonra mətbuat konfransı keçirərək 8 avqustda Vaşinqtonda Zəngəzur dəhlizinin açılmasını özündə ehtiva edən üçtərəfli Bəyannamə ilə bağlı mövqeyini bölüşüb. R. Köçəryan çıxışı zamanı 8 avqust sənədinin Ermənistana heç nə qazandırmadığını qeyd etmişdi. Həmçinin 8 avqustda paraflanmış



sülh sənədinin hüquqi qüvvəsinin olmadığını açıq şəkildə elan etdi". Adalet.az xəbər verir ki, bunu politoloq Məhəmməd Əsədullazadə deyib. Onun sözlərinə görə, parlament seçkilərində Baş nazirliyə namizəd olacağını elan edən R.Köçəryan indidən üçtərəfli sənədi tanımadığını elan etməklə, Rusiya və İrana da reveranslar etdi:

"Hazırda Ermənistan müxalifəti və ikinci Qareginin başçılıq etdiyi Erməni Apostol Kilsəsi tam olaraq sülh prosesinin əleyhinədir. Əgər, Ermənistanda Köçəryan-Sarkisyan tandemi hakimiyyəti götürərsə, Azərbaycanla bütün razılaşmaları pozacaqlar. Təbii ki, geosiyasi reallıqlar və Rusiyanın zəifləməsi, Azərbaycan və Ermənistan arasında tranzit yolların açılması ilə bağlı razılaşmalar erməni ictimaiyyətinin Baş nazir Nikol Paşinyana dəstəyini artırır. Proseslər müharibə gündəliyini əməkdaşlıq gündəliyi ilə əvəzləyir. Sülh prosesinə qarşı olan müxalifətin bu prosesi poza biləcəyi və hakimiyyətə gəlmək prespektivi yoxdur. Artıq N.Paşinyan İkinci Qaregini Apastol kilsəsindən uzaqlaşdırmaq üçün dini mərasimlərə qatılır. Yeni katalikos Keşiş Aramı Ermənistanın yeni katalikosu elan edəcəklər. Hakimiyyət Kilsədə müxalifəti neytrallaşdıraraq siyasi müxalifətə zərbə vurur".

**Eldar**

# "İsrailin Yaxın Şərqdəki aqressiyasının əsl səbəbkarı İran rejimidir"

**"Məlumata görə İsrailin Baş naziri Benyamun Netanyahu dərhal Qəzzaya ağır və davamlı zərbələr endirilməsi ilə bağlı əmr verib. O, bununla oktyabrın 13 də Misirdə qəbul olunmuş sülh anlaşmasını heçə saymış oldu. Məqsəd, HƏMAS-ı qıcıqlandırıb silahı yerə qoymamağa vadar etməkdir. Əgər HƏMAS silahı yerə qoysa, İsrailin Fələstini tədricən işğal etməsinə əsaslı bəhanə olmayacaq".**

Adalet.az xəbər verir ki, bunu siyasi şərhçi Tural İrfan deyib. Onun sözlərinə görə,



hədəfindən əsla yayınmır, konkret olaraq bütün Fələstini, daha sonra da digər qonşu ərəb ölkələrini tamamilə götürməkdə qərarlıdır: "İndiyəcən İsrailin bu qədər silahlanıb, nüvə silahı belə əldə etməsinə İranın fars - Sasani rejiminin böyük töhfəsi olub. Uzun illərdir sözdə hədəqorxu gəlməklə İsraili, bu "hədələrin reallaşması" qorxusu ilə bütün imkanlardan istifadə edərək nüvə silahına sahib olmasında İranın və proksi qüvvələrinin əvəzedilməz rolu var. İsrailin Yaxın Şərqdəki aktivliyinin və aqressiyasının əsl səbəbkarı İran rejimidir. Etiraf edilər ki, bəli, Həmasın İsrailə ilk hücumu doğru qərar deyildi.

İsrail işinə yarayan Həması tamamilə ləğv enrək istəmir, əslində. Onsuz da bilir ki, bombalamaqla onları tükətmək mümkün deyil. Sadəcə məqsəd, mülki əhalini qovmaq və tamamilə ərazidən çıxarmaqdır. Əgər Həması təhrik etməsə, atəşkəs olsa, mülki əhalini sürgün etməyə əsaslı bəhanə çətin olacaq".

**Subhan**

# Politoloq: "Onların da PKK ilə bağları istisna deyil"

**"PKK terror təşkilatı öz silahlı dəstələrini Türkiyə ərazisindən çıxardığını bəyan etdi. PKK terror təşkilatının liderləri bundan sonra, heç bir perspektivin olmadığını, geosiyasi reallıqların Türkiyənin leyhinə dəyişdiyinin fərqində oldular".**

Adalet.az xəbər verir ki, bunu politoloq Məhəmməd Əsədullazadə deyib.

O bildirib ki, həmçinin terror təşkilatına dəstək verən xarici mərkəzlərin regionda apardığı siyasət PKK vasitəsilə nəticəsiz oldu. PKK ayaqda qalmasında Türkiyədə bəzi siyasətçilərdə maraqlı olub:

"Türkiyə prezidenti Rəcəb Tayyib



Ərdoğan PKK dəstək verən daxili mərkəzləri neytrallaşdırdı. Suriyanın şimal -Şərqində Kürd silahlıları mövcudluğunu qoruyub saxlayır. Onların da PKK ilə bağları istisna deyil. Bu qruplarında sıradan çıxarılması gözlənilir. Türkiyədə PKK probleminin həlli AKP növbəti seçkilərdə uğur qazandıra bilər".

**Vasif**

# Putin kompramissə hazır deyil



**Rusiya prezidenti Vladimir Putin Ukrayna müharibəsini davam etdirməkdə israrlıdır. NBC News nəşrinin amerikanın rəsmi nümayəndələrinə istinadən verdiyi məlumata görə, ABŞ-ın kəşfiyyat xidmətinin Konqressə təqdim etdiyi hesabatda bu qərara gəldiyi bildirilir.**

Amerikan analitikləri bu qənaətə gəliblər ki, ABŞ prezidenti Donald Trampın çağırışlarına baxmayaraq, Rusiya hakimiyyətinin hərəkətlərində müharibəni bitirmək üçün kompramissə getmək əlamətləri müşahidə olunmur. Bundan başqa, döyüşlərdə Rusiyanın ciddi itkilərə məruz qalması, ölkə daxilində müharibənin nəticələri olaraq yaşanan iqtisadi problemlər, prezident Putini nəyin bahasıba olursa olsun qələbə əldə edilənədək müharibəni davam etdirmək məcburiyyəti qarşısında qoyur.

Rusiya prezidenti hesab edir ki, Rusiya işğal etdiyi ərazilərdə möhkəmlənə bilərsə, beynəlxalq aləmə təsir gücünü göstərə bilər və xalqı qarşısında iqtisadi və humanitar itkilərə görə bəraət qazana bilər. Lakin, Rusiya prezidentinin məqsədinə çatmaq imkanları elə də asan görünmür.

ABŞ prezidenti Donald Tramp ciddi- cəhdlə müharibənin sülh yolu ilə başa çatmasına çalışır. Vladimir Putində onunla danışıqlarda guya müharibənin sona çatmasının tərəfdarı olduğunu bəyan etsə də, bunu yalnız gözdən pərdə asmaq kimi qiymətləndirmək olar.

Hazırki gedişat onu göstərir ki, Rusiya prezidenti və onun administrasiyasının təbliğat maşını heç də sülh tərəfdaları deyillər. Döyüş meydanında şiddət günügündən artmaqdadlr. Rusiya artlq müharibə qaydalarına uyğun olmayan şəkildə Ukraynanın yaşayış məntəqələrinə güclü raket zərbələri endirir.

ABŞ prezidenti Donald Tramp həm danışıqlar, həm də iqtisadi təyziqlər vasitəsi ilə, Rusiyanı ən azından atəşi dayandırmağa məcbur etmək istəyir. Məhz buna görə, Moskvaya qarşı daha sərt iqtisadi sanksiyaları tədbiq olunmasına qarar verib.

Ukrayna torpaqlarında isə, sonu görünməyən müharibə davam edir...

**Rüstəm Hacıyev**

# "Zəngəzur dəhlizinin 2028-ci ildə istifadəyə veriləcəyi gözlənilir"




**”Azərbaycan Prezidentinin Cəbrayıl və Zəngilana səfəri zamanı yeni təməlqoymalar ilə yanaşı, Ermənistanın 27 illik işğalı nəticəsində uzun illər öz ata-baba yurdundan didərgin düşmüş keçmiş məcburi köçkünlərə mənzillərin açarları da təqdim olundu. Azərbaycan Prezidentinin rəhbərliyi ilə həyata keçirilən intensiv bərpa və yenidən-qurma işləri nəticəsində Şərqi Zəngəzur regionun nəqliyyat habına çevrilməkdədir”.**

Adalet.az xəbər verir ki, bunu millət vəkili Vüqar Bayramov deyib.

O bildirib ki, Zəngəzur dəhlizinin Azərbaycan hissəsində işlər tamamlanmaq üzrədir: ”Uzunluğu 140,6 km olan Horadiz-Ağbənd dəmir yolu xəttinin gələn il istifadəyə veriləcəyi gözlənilir. Uzunluğu 124 km olan Əhmədbəyli-Horadiz-Mincivan-Ağbənd avtomobil yolu isə artıq tamamlanmaq üzrədir. Dəhlizinin Ermənistan ərazisindən keçəcək işlərin planlaşdırılmasını da nəzərə aldıqda Zəngəzur dəhlizinin 2028-ci ildə istifadəyə veriləcəyi gözlənilir. Bu isə Orta Dəhlizinin regional imkanlarını genişləndirməklə yanaşı, Azərbaycanın geosiyasi mövqeyini daha da gücləndirəcək. Şərqi Zəngəzur həmçinin böyük turizm, sənaye və aqrar potensiala malik olan bölgələrimizdəndir”.

Onun sözlərinə görə, ölkə Prezidentinin Zəfərdən sonrakı 5 il ərzində işğaldan azad olunmuş ərazilərimizə səfərləri və bu səfərlər zamanı məhz onun tapşırıq və göstərişinə uyğun olaraq infrastrukturun qurulması, eləcə də həm məskunlaşmaya, həm yeni iş yerlərinin yaradılmasına xidmət edən təməlqoyma mərasimlərinin keçirilməsi birmənalı şəkildə ondan xəbər verir ki, Qarabağ və Şərqi Zəngəzur yeni inkişaf mərhələsinə qədəm qoyur:

”Bunlar isə eyni zamanda o deməkdir ki, Şərqi Zəngəzur yaxın zamanlarda Azərbaycan iqtisadiyyatında əsas inkişaf drayverlərdən birinə çevriləcək. İlkin qiymətləndirmələrə görə, Azərbaycan iqtisadiyyatının təxminən 10%-i həcmində işğaldan azad olunmuş ərazilərimizin yeni dəyər yaratma potensialı var. Bu o deməkdir ki, bərpa-yenidənqurma prosesindən sonra Qarabağ və Şərqi Zəngəzur 12 milyard manatdan artıq yeni dəyərin formalaşmasına və bölgənin Azərbaycan iqtisadiyyatına reinteqrasiyasına töhfə verə biləcək”.

**Vasif ƏLİHÜSEYN**

**Murad Köhnəqala**



# Hindular və türklər: qədim qohumluğun izləri

**Hindular və türklər fərqli xalqlar, fərqli qitələrin sakinləridir. Lakin elm adamları bu iki etnos arasında maraqlı oxşarlıqların mövcud olduğunu sübut edirlər.**

**Əvvəla, həm hinduların, həm də türklərin tarixi kökü köçəriliklə bağlıdır. İddialara görə min illər öncə hinduların əcdadları Asiyadan qalxaraq Sibir və Altay bölgələrinə köç etmiş, sonralar isə zaman-zaman Berinq boğazı üzərindən Amerika qitəsinə yol almışlar. Boğaz su altında qaldıqdan sonra bu əlaqələr itmiş və onlar bir daha Altaya qayıda bilməmişlər. Lakin yollar kəsilsə də, genetik izlər hələ də yaşamaqdadır.**

**Müasir genetik tədqiqatlar göstərir ki, Amerika hindularında ”Q1” adlandırılan haploqrup üstünlük təşkil edir. Bu genetik iz indiki Sibir türkləri sayılan hantılar, mansilər, yakutlar və şorlar arasında da geniş yayılmışdır. Digər hindu haploqrupu - ”C2” ilə işarələnənlər isə Asiya xalqları, o cümlədən türklər arasında daha çox rast gəlinir.**

**Bu doğmalıq yalnız genetik deyil, dil və mədəniyyət səviyəsində də müşahidə olunur. Məsələn, maya və keçua dillərindəki bəzi sözlər türk dili ilə heyrətamiz dərəcədə oxşardır. Onlar türk dilində ağa - ”aak”, qana - ”kaan”, içməyə - ”içu” deyirlər.**

**Eləcə də məsələn, qurbağaya ”baka”, ikiyə ”ike”, göyə (səma) ”gök”, ataya ”tata” deyirlər. Təbii ki, bu cür təməl sözlər heç də təsadüfən eyni ola bilməzdi.**

**Hətta qədim asteklərin özlərinə verdiyi ad - Akçilan (”ağ ilan”) da türkcəmizdəki anlamla tam üst-üstə düşür.**

**XVI əsr səyyahları da bu yaxınlıqdan çox yazıblar. İngilis səyyahı Con Cosselin qeyd edirdi ki, Amerika hindularının, xüsusilə də siu tayfalarının geyimi, davranışı və danışığı ”türkcə danışan tatarları” xatırladır.**

**Hindular da türklər kimi öz mənşələrini totem heyvanlarla, məsələn, canavarla bağlayırlar.**

**Eləcə də türklər kimi, hindular da təbiət ruhlarına, ölən əcdadların və digər mənəvi varlıqların mövcudluğuna inanırlar. Onlarla əlaqə qurmaq üçün şamanlardan istifadə edirlər.**

**Və nəhayət, hindu çöl evləri ilə türk yurtalarının bənzərliyi hər iki xalqın eyni mənşədən gəlməyinə və eyni məişəti, ənənələri bölüşdüyünə tutarlı sübutdur.**

## *“Rusiya cəbhə xəttində irəliləyişlər əldə etməsə...”*



**”Artan hərbi-iqtisadi təzyiqlər Rusiyanı atəşkəsə məcbur edə bilər. ABŞ Rusiyanın neft -qaz şirkətlərinə sanksiyalar tətbiq edib. Bu sanksiyalar noyabrın 24-də qüvvəyə minəcək. Rusiya prezidentinin köməkçisi Uşakov Vladimir Putin və Donald Tramp arasında görüş keçiriləcəyini qeyd edib. Putin çalışacaq ki, Trampla yenidən telefonla danışsın və görüş keçirsin. Təmas Xəttində Rusiya kifayət qədər itkilər verir. Moskvada strateji obyektlər Ukraynanın hədəfindədir”.**

Adalet.az xəbər verir ki, bunu politoloq Məhəmməd Əsədullazadə deyib.

Onun sözlərinə görə, Trampın Mərkəzi Asiya ölkələrinin liderlərini Vaşinqtona dəvət etməsi, Rusiya üçün mənfi iqtisadi perspektivlər vəd edir:

”Bu ilin axırına kimi Rusiya cəbhə xəttində irəliləyişlər əldə etməsə, ABŞ sanksiyaları işə düşəcəksə, Putin qoşunların təmas xəttində atəşkəs razılaşmasına gedə bilər. Bu atəşkəs Rusiya tərəfindən pozulub, hərbi əməliyyatlar növbəti mərhələdə davam etməsi mümkündür. Rusiya rəhbərliyi Trampın sərt sanksiyalarından və Ukraynaya raket göndərilməməsinə çalışır. Atəşkəsin əldə edilməsinə isə, Avropa ölkələri razı deyil. Buna baxmayaraq bu atəşkəs yeni imkanlara yol aça bilər. Rusiya -Ukrayna müharibəsinin Cənubi Qafqaza və Mərkəzi Asiyaya ciddi təsirləri qalmaqdadır. Rusiyanın zəifləməsi fonunda hər iki region ölkələri öz siyasətlərini ABŞ ilə kordinasiya edəcək. Bu da regionda yeni geosiyasi nizamın qurulması deməkdir”.

**V. ƏLİHÜSEYN**

## *Hərbi ekspert: “Bu məlumatlar üç il əvvələ aiddir, həqiqəti əks etdirmir...”*



**”Tiktok” platformasında köhnə xəbəri təzə imiş kimi ictimaiyyətə təqdim edərək guya Müdafiə Nazirliyinin daha beş min nəfərə veteranlıq verəcəyi bildirilir. Bunun nə qədər doğru olub olmaması ilə bağlı redaksiyamıza bir qrup Vətən müharibəsi iştirakçısı müraciət edib.**

Adalet.az-ın əməkdaşı məsələni dəqiqləşdirmək üçün hərbi ekspert Ədalət Verdiyevə müraciət edib. Hərbi ekspert bildirib ki, bu təzə xəbər deyil:

”Sosial şəbəkələrdə beş min nəfərə veteranlıq adının verilməsi ilə bağlı paylaşılan video material həqiqəti əks etdirmir. Bu məlumatlar üç il əvvələ aiddir. Lakin təəssüflər olsun ki, hələ də Azərbaycanda bu tip şəxslər tapılır ki, köhnə məlumatların üzərinə yeni məlumatları yazmaqla onları əhalimizə təqdim edirlər. Bu tamamilə yanlış addımdır və mənəviyyatdan, şərəfdən və ləyaqətdən uzaq bir davranışdır”.

**Vasif ƏLİHÜSEYN**

## *“Mənə görə həmin qızı elə öz valideynləri” öldürüb””*

**”Astarada dünən toyu olan 17 yaşlı gəlin bu gün ölüb. Məlumatı oxuyub yaxşı düşünmək də olmur. Gəlinin hamilə olduğu bildirilib. Əvvəla, gənc bir qızın ölümü hamı kimi məni də üzür”.**

Adalet.az xəbər verir ki, bunu hüquqşunas Müşfiq Abbasov deyib. ”Ölümün səbəbini bilmirəm. Bu mütləq aydınlaşdırılmalıdır. Amma mənə görə həmin qızı elə öz valideynləri ”öldürüb”. Aydın məsələdir ki, qızı yetkinlik yaşına çatmadan ərə verməkdə də məqsəd onun hamiləliyini gizlətmək olub. Amma görünür ki, bu çıxış yolu deyilmiş...bu fakta görə mütləq cinayət işi qaldırılmalı, qızın kimlə və nə vaxt cinsi əlaqədə olması, zorakılıq və s. xüsusatlar ciddi şəkildə araşdırılmalıdır. Deyəndə ki, bu ölkədə ən tez pozulan şey əxlaqdır, çoxu bunu ciddiyə almır. Əxlaqın pozulması sonda bu cür faciələrə gətirib çıxarır. Valideyn məsuliyyətsizliyi, uşaqların internet audəçiliyi, təhsilsizlik və yanlış müasirlik anlayışı gələcəyimizi məhv edir”, - deyə o bildirib.

**Tural**

## Bu yaşda olan qadınlar iki ildən bir müayinədən keçməlidir

**”Süd vəzi xərçəngi qadın onkoloji xəstəlikləri arasında birinci yer tutur. Dünyada hər səkkiz qadından biri bu xəstəlikdən əziyyət çəkir. Hər il minlərlə qadın süd vəzi xərçəngindən dünyasını dəyişir”.**

Adalet.az xəbər verir ki, TƏBİB-in icraçı direktorunun müavini Anar İsrafilov deyib. O bildirib ki, qadınlar vaxtında müalicəyə cəlb olunduqda onların müalicədən sonra 5 illik yaşama şansı 90-99 faiz arasındadır: ”40-69 yaşarası bütün qadınlar iki ildən bir müayinədən keçməlidirlər. Süd vəzi xərçəngi ilə mübarizədə maarifləndirmə çox vacibdir. Erkən aşkarlanma mammoqrafiya nəticəsində müəyyən olunur. Bu çox sadə bir müayinədir. TƏBİB tərəfindən iki mobil mammoqrafiya cihazı vasitəsilə respublikada müayinələr aparılır”.



**Faiq QİSMƏTOĞLU**
**faiqqismetoglu@box.az**

# Qonşu qonşu olsa...

**Əlbəttə, qonşu yaxşı olanda hər şey daha gözəl olur. Yəni onlar bir- birinə can deyib, can eşidirlər. Amma bir - birin düşmən olan qonşular da az deyil, ha! Qonşusu rəhmətə gedir, qapını açıb demir ki, dərdinə şərikəm, Allah rəhmət eləsin! Hamı yas məclisin gəlir, bircə qapıbir qonşusu gəlmir.**

**Bu, Bakıda belədir! Rayonlarda qonşu elə qohum kimidi. Yəni hamıdan əvvəl qonşular sənin köməyinə çatır!Və bir deyim də var:" Yaxın qonşu, uzaq qohumdan yaxşıdı". Bizim həm kənddə , həm də Bakıda qonşu sarıdan bəxtimiz gətirib. Kənddə Seyid Əli Ağa,Abbas kişigil, Bakıda Məhəmməd kişinin övladları- Zaur, Məhəbbət, Hümmət! Çox gözəl qonşulardı. Bir dəfə həyat yoldaşımın mən evdə olmayanda ayağı sınır,Məhəmməd kişi oğlu Məhəbbəti çağırıb deyir ki, gəlini tez sınıqçıya apar.**

**Məhəbbət mənim xanımımı həyat yoldaşı ilə birlikdə öz maşını ilə sınıqçıya aparır və həkim ona kömək göstərir, ayağına kips qoyub sarıyır. Mən bunu evə gələndə yoldaşımdan eşitdim. Və buna görə el ağsaqqalı Məhəmməd kişiyə və oğlu Məhəbbətə təşəkkür elədim. Bax belə yaxşı qonşular da var! Ancaq mərdiməzar qonşular da az deyil. Bir tanışım deyir ki, təzə evə köçmüşdüm, evi təmir edirdim. Lakin qonşular mənə imkan vermədilər.**

**Dedilər ki, bizi narahat edirsən! Gördüm ki, onlarla qonşuluqda yaşamaq mümkün deyil, evi satıb başqa yerdən mənzil aldım.Bax belə də qonşular var, elə də! Qonşu qonşu olsa, onun kor qızı da ərə gedər! Amma bizdə bakılılar demiş" məsələ alayı cürədir!!!**

# "Ətə möhür vurmaq üçün pul alınır"

### Ekspert AQTA-ni ittiham etdi



**"Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi küçə kəsimlərinin qarşısını ona görə ala bilmir ki, bazar tələb və təklif aksiomu ilə işləyir. Tələb varsa, mütləq təklif olacaq. Min illərdir ki, bazarın öz aksiomu var. Onu inzibati yollarla durdurmaq mümkün deyil. Ona görə də AQTA inzibati üsullardan maarifçilik üsullarına keçməlidir. Kütləvi informasiya vasitələri ilə, ictimai təşkilatlarla yaxşı işləyib əhalini özlərinə inandırmalıdır".**

Bunu Adalet.az-a açıqlamasında Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov deyib. Ekspert bildirib ki, hələ Sovet vaxtında qəssabların cibində möhür olurdu, özləri ətə möhür vururdular və bunu heç bir baytar yoxlamırdı:

"Həmin ətalət qanunu davam edir və tələb yaranır. Küçə kəsimlərinə nəzarət yerli icra hakimiyyəti orqanlarının, AQTA-nin və bir də polisin funksiyasına daxildir. AQTA yarandığı gündən küçə kəsimləri ilə mübarizə aparır, amma təəssüf ki, bunun qarşısını ala bilmir. İki il AQTA-da İctimai Şuranın üzvü olmuşam və dəfələrlə demişəm ki, üzünüzü istehlakçılara çevirin. Dövlət orqanları yaranan kimi ayaqları yerdən üzülür və ərşə qalxırlar. İnsanlarla işləmək əvəzinə, öz əsasnamələrində nə yazılıb onunla gedirlər. Radikal üsullarla belə məsələləri həll etmək olmaz. Ona görə də istehlakçıların inamını qazanmaq lazımdır. İnsanlar gözüylə gördükləri əti alırlar. Heç də küçədə kəsilən ət təhlükəsiz deyil və AQTA-nin əməkdaşları çıxışlarında bildirirlər ki, dabaq xəstəliyi insanlara keçmir. Bu fikir isə kökündən səhvdir. Bu cür yalnış informasiya ilə əhalini aldatmaq düzgün deyil".

E.Hüseynovun sözlərinə görə, geniş yayılan dabaq xəstəliyinin səbəbi ölkəyə gətirilən külli-miqdarda effektsiz, təsirsiz vaksinlərdir:

"Bununla bağlı regionlardan mənə məlumat verirlər. Hətta bu vaksindən kim heyvanına vurubsa, onun heyvanı da dabaq xəstəliyi tutur. Bunu gizlətməklə vəziyyətdən çıxmaq olmaz. Ətə möhür vurmaq üçün pul alınır. İstənilənilən yerə verilən pul son nəticədə istehlakçıdan çıxır. Ona görə də AQTA elə bir iş aparmalıdır ki, ətin qiyməti qalxmamalı və sağlam ət olmalıdır. İki il İctimai Şuranın üzvü oldum və bir dəfə AQTA-nin mətbəxinə yaxın gedə bilmədim. İçəridə nələr baş verir, hansı qərarlar qəbul edilir bundan xəbərsiz idik. Ona görə də yalançı, formal İctimai Şuranın üzvü olmaqdan imtina etdim".

**Vasif ƏLİHÜSEYN**

# Müəllimlər niyə beş ildən bir...



**Vallah, mənim Azərbaycan müəllimlərinə lap yazığım gelir. Yazıqlar yüz əzab əziyyətlə pul qazanır, onu da burunlarından tökürlər. Müəllimə bu qədər də əziyyət, istirab vermək olar? Allah and olsun ki, bu, ədalətsizlikdir.**

Onlar diaqnostik qiymətləndirmədən keçiblər, sertifikasiya imtahanından keçiblər, müsahibədən keçiblər! Bəs eləmir? Görünür, kimlərsə müəllimlərə əziyyət verməkdən zövq alırlar! İndi də deyirlər ki , bəs müəllimlər yenə sertifikatsiya imtahanından keçməlidir və bu proses beş ildən bir təkrar olunmalıdır. Yeni 2022- çi ildə sertifikasiya imtahanları verənlər 2027 - çi ildə yenidən imtahan verməlidir.

Axı onlar ötən imtahanlarda yüksək nəticə göstəriblər.Yenidən onların imtahan verməyə nə ehtiyac! Və bir də ötən illərdə imtahandan "kəsilən" nə qədər müəllimlər oldu. Minlərlə müəllim işdən azad edildi. İmtahan həyəcanından, şəkər, ürək xəstəliyinə tutulanlar oldu.

Qoy o imtahanı bir dəfə də Elm və Təhsil Nazirliyinin yüksək vəzifəli şəxslər versin! Onda bilərlər ki, imtahan həyəcanı nə deməkdir! Düzdür, müəllimləri imtahandan keçirmək olar, tay beş ildən bir yox! Ən yaxşı halda on beş ildən bir! Və bu barədə ciddi düşünməyə böyük ehtiyac var!!!

# Bəs deyirdilər ki, xidmət yaxşılaşacaq...



**Avtobuslarda və metroda qiymətlər bahalaşanda deyirdilər ki, insanlara xidmətin səviyyəsi yaxşılaşacaq. Qiymətlər qalxdı və xidmət isə yaxşılaşmadı. Yenə metroda və avtobuslarda sıxlıqdı .**

Hətta avtobuslarda ayaq basmağa belə yer yoxdu.Metroda isə səhər və axşam saatlarında bir sıxlıq olur ki, gəl görəsən! Hətta belə vəziyyətdə halı pisləşən, ürəyi gedən adamlar da az deyil. Bir neçə gün bundan əvvəl qatarda vəziyyəti ağırlaşan bir kişi elə orada rəhmətə getdi. Ümumiyyətlə,ürəyi xəstə və təzyiqi olan insanlar belə sıxlıq olanda metroya minməməlidir. Amma nə etsinlər , çıxış yolları yoxdur. Oktyabrın 25-də saat 8:30- da 77 nömrəli marşrutda işləyən avtobus metronun "! İnşaatçılar" stansiyasının yaxınlığındakı dayanacağa 10 dəqiqədən sonra çatdı. Və dayanacaqdakı sərnişinlər sürücüyə etirazların bildirdilər.

Çünki çoxlu sərnişin vardı. Və sıxlıq olduğuna görə, onların da çoxu minə bilmədi, dayanacaqda qalıb, növbəti avtobusu gözləməyə məcbur oldular!.Bax , bunlar qiymət artımından sonra insanlara belə "xidmət" edirlər!!!

# Evlərini kirayə verənlər vergi ödəyəcək!



**İndi elə adamlar var ki, nə az, nə çox 10-dan çox mənzil var.Sağlıqlarına qismət! Bir adamın on mənzili var, hamısını da, kirayə verir. Və bundan bir ətək pul qazanır. Amma dövlətin büdcəsinə bir manat da ödəmir.**

On minlərlə adam var ki, bu üsulla qazanc əldə edir! Ancaq yeni qəbul olunmuş qanunla belə insanla qazanclarının 10 faiz məbləğində vergi ödəyəcəklər. Bu isə o deməkdir ki, dövlətin büdcəsinə milyonlarla manat vəsait daxil olacaq.

Sadəcə olaraq onların dəqiq uçotu aparılmalı, heç bir fiziki şəxs bundan yayınmamalıdır. Təbii ki, bu prosesdə icra orqanlarının əməkdaşları daha məsuliyyətli olmalı, heç bir fiziki şəxsin vergidən yayınmasına imkan verməməlidir!

# Oturacaqlar niyə yığışdırıb?



**Sentyabrın 15- dən Metropoliten bir neçə stansiyasılarında oturacaqlar yığışdırılıb. Bunu da onunla izah edirdilər ki, metroda sıxlıq olduğuna görə, "28 may'" stansiyasında oturacaqlar oradan götürüb. Təbii ki, bu addımın atılması sərnişinlər tərəfindən birmənalı qarşılanmayıb.**

Sərnişin Nazilə Məmmədova deyir ki, düzdür stansiyada oturacaqlar mövcuddur, amma platformda bu oturacaqlar olmayanda biz özümüzü narahat hiss edirik. Üstəlik də, qatarda halı pisləşən sərnişinlər stansiyada düşəndə ona oturmaq üçün yer olmur.

Və səhhətində problem yaranmiş sərnişin yenidən çətin anlar yaşayır. Amma insan naminə deyək ki, metronun nəzarətçi qadını və polis həmişə çətin vəziyyətdə bizə kömək edib!

Yaxşı olardı ki, platformadakı oturacaqlar yenidən yerinə qoyulaydı! Əlbəttə, metroda bu gün də sıxlıq yaşanır, ancaq bu o demək deyil ki, buna görə , sərnişinlər narahatlıq yaşamalıdır!!!

# Camaat ət almaqdan ehtiyat edir...



**Ölkəmizdə iribuynuzlu heyvanlar arasında sürətlə yayılan dabaq xəstəliyi insanlar arasında böyük təşfiş və qorxu hissi yaradıb.Camaatı qınamalı deyil, çünki bu cür xəstəliklər insanlara da keçə bilər.**

Hərçənd ki, mütəxəssislərin dediyinə görə, dabaq xəstəliyi insandan insana keçmir.Amma heyvanlara qulluq edən , onu südünü sağa və eyni zamanda əti kəsib satan adamlar bu xəstəliyə tutula bilərlər.O ki, qaldı belə heyvanların ətlərinin yeyilməsinə. Bu çiy halda və tam bişməmiş istehlak olunarsa, insan xəstəliyə yoluxa bilər. Xüsusilə də , kabab yemək daha təhlükəlidir.

Ancaq ət tam qaynadılıb bişiriləndən sonra heç bir fəsadı ola bilməz. Ancaq yenə buna baxmayaraq, əhalinin böyük hissəsi bu gün iribuynuzlu heyvanların ətini almaq istəmirlər. Ona görə, də çox insan toyuq və balıq ərlərinə maraq göstərir.

Bir sözlə, səbrli olub, bir müddət gözləmək məsləhətdir. Ki, tezliklə dabaq xəstəliyinə tutulmuş iribuynuzlu heyvanlar sağalsın . Bundan sonra o heyvanların ətini yemək heç də qorxulu deyildir!!!

**EMİL FAİQOĞLU**



# "Sülhün qazancları - 3 min hərbçi həyatdadır"

**"Paşinyan açıqlayıb ki, "artıq 1 il 8 aydır Ermənistan-Azərbaycan sərhədində heç bir əsgər həlak olmayıb." Bir siyasi şərhçi və tədqiqatçı kimi araşdırmağa qərar verdim ki, təxmini mənbələrə əsaslansaq, itkinləri nəzərə almasaq, 1988-ci ildən 2024-cü ilin fevralına qədər təxminən 36 il keçir". Adalet.az xəbər verir ki, bunu politoloq**



**Əziz Əlibəyli deyib. O bildirib ki, bu dövr ərzində, hər iki müharibəni nəzərə alsaq, Azərbaycan tərəfi təxminən 33 min hərbçi itirib:**

"Ermənistan isə iddia edir ki, bu rəqəm ümumilikdə 24 min nəfərə yaxındır. İtkinlərlə birlikdə ümumi rəqəm 60 min civarına qədər çıxır. Riyaziyyata əsasən, 1988-ci ildən 2024-cü ilin fevral ayına qədər ümumilikdə 60,000 nəfər ölüb. Hər günə təxminən 4.55 nəfər ölüm faktı düşür. Digər bir düşüncə təhlili ilə, Paşinyanın dediyi 1 il 8 ay ərzində, əvvəlki hərbi münasibətlər davam etsəydi, nə qədər hərbçi həyatını itirə bilərdi? Yeni hesabla, 1 il 8 ay ərzində təxminən 2,731 nəfər ölə bilərdi, əgər müharibə davam etsəydi. Sülh hər halda gözəl olsa da, qalibiyyət halında və vətən övladlarının şəhadəti ilə qazanıldığı üçün çox dəyərlidir və milli sərvətdir".

**Vasif**

*Murad Köhnəqala*

# Qıyıqgöz xalqlar, qıyıqgözlülüyün sirri

*Dünya antropoloqları qıyıq, badamşəkilli gözlərə malik xalqları monqoloid irqinə aid edirlər. Monqolların özləri, yaponlar, çinlilər, koreyalılar, yakutlar, taylar bu irqin tipik nümayəndələri kimi tanınırlar.*

*Bu xüsusiyyət daha zəif şəkildə monqoloidlərin digər irqlərlə qarışmasından formalaşmış xalqlarda da müşahidə olunur. Məsələn, türk mənşəli qazaxları, qırğızları, türkmənləri, noqayları, eləcə də özbəkləri bu sıraya aid edirlər.*

*Qeyd etmək lazımdır ki, asiyalıların gözləri əslində başqa irqlərə mənsub insanların gözləri ilə eyni ölçüdədir. Onlar sadəcə, vizual olaraq kənardan baxana qıyıq formada görünür. Bu, əsasən badamşəkilli gözün yuxarıdan aşağıya doğru yerləşməsi ilə bağlıdır. Asiyalıların göz qapaqları altında xüsusi yarımdairəvi "monqol büküşü" - elmi dildə "epikantus" adlanan bir dəri qatı olur. Bu büküş gözün daxili bucağını, yəni yaş axarını demək olar ki, tam örtür və nəticədə göz vizual olaraq daha qıyıq görünür.*



*Həmçinin, Asiya xalqlarının göz qapaqları altında xüsusi piy qatı zolağı da olur ki, bu da gözləri həm soyuq, həm də quraq iqlim şəraitində əlavə qorunma ilə təmin edir. Antropoloqların fikrincə, "qıyıqgözlülük" asiyalıları çöl-səhralarda tez-tez baş qaldıran küləklərdən, qar və toz fırtınalarından qorumağa kömək edib. Qıyıqgözlülük Asiyanın və eyni zamanda Sibirin sonsuz qarla örtülü düzənliklərində günəş işığının parlaq şüalarını azaldaraq gözlərin qamaşmasının qarşısını alıb. Eləcə də göz qapaqlarındakı piy qatının köməyi ilə şaxtalı havadan qorunmağa yardım edib. Şaxtalı, sərt hava şəraitində yaşayan çukçalar, evenklər, yakutlar, tuvalılar, nenеclər kimi Şimal xalqları da təbiətin diqtəsinə uyğun olaraq qıyıqgözdürlər.*

*Bu baxımdan, zarafatla desək, "qıyıqgözlülük üzrə çempion"luq eskimoslara məxsusdur. Onlar Arktika irqinin xüsusi qoluna aiddirlər. Eskimoslarda göz həcminin orta hündürlüyü cəmi 8,74 mm təşkil edir. Müqayisə üçün yaponlarda bu göstərici 8,78 mm, avropalılarda isə 10-14 mm arasındadır.*

*Təsadüfi deyil ki, epikantus yalnız asiyalılarda deyil, həm də buşmenlərdə - Afrikanın cənubundakı qədim xalqlarda da var. Bu xalqlar Kalahari səhrasının kor edici günəş şüası, güclü küləyi və tozanağı altında yaşadıqlarından zaman-zaman gözlərinin forması da dəyişərək qıyıqlaşıb. Amerika hindularını da qismən qıyıqgöz saymaq olar. Onlar qıyıq gözlülüyü asiyalı əcdadlarından miras alıblar. Hazırda hindu uşaqlarının 50-80 faizində epikantus qatı müşahidə olunur. Lakin maraqlıdır ki, təxminən 18-20 yaşlarından sonra bu xüsusiyyət tədricən itməyə başlayır. Ona görə də böyüklərdə bu fərq artıq o qədər nəzərə çarpmır. Qədim dövrlərdə yaponlar və çinlilər avropalıların iri, açıq gözlərindən açıq-aşkar qorxur, qərbdən gələn qonaqları öz aralarında "it gözlü" adlandırırdılar. Ancaq bu gün bir çox asiyalı, xüsusən yapon və koreyalı qadınlar "Avropa tipli" iri gözləri daha cazibədar hesab edirlər. Onlar müxtəlif makiyaj texnikaları, kontakt linzalar, hətta estetik əməliyyatlar vasitəsilə iri gözlərə sahib olmaq arzusundadırlar.*

*Maraqlıdır ki, qıyıqgözlülərin iri gözlərə malik olmaq istəyi fonunda qardaş Türkiyə, İran və doğma ölkəmizdə bir çox xanımlar cərrahi əməliyyatlara üz tutaraq "badamgöz", "tülkügöz" və digər adlarla tanınan qıyıq gözlər əldə etməyə çalışırlar.*

## *"Ən yaxşı xəbər yeni istehsal müəssisəsinin yaradılmasıdır"*

**"Azərbaycan iqtisadiyyatı üçün ən yaxşı xəbər yeni istehsal müəssisəsinin yaradılmasıdır. Xüsusilə də AQRAR EMAL (!!!) müəssisəsinin fəaliyyətə başlaması strateji əhəmiyyət daşıyır. İqtisadçılar bunun nə demək olduğunu, həyatın onlarla müxtəlif istiqamətinə olan faydasını yaxşı anlayır".**

Adalet.az xəbər verir ki, bunu iqtisadçı Eldəniz Əmirov deyib. "Buna görə bu mövzuya toxundum ki, bu gün cənab Prezident İlham Əliyev İmişlidə AQRAR EMAL müəssisəsinin açılışında iştirak edib. Belə xəbərlər, yeni regionda açılan hər bir istehsal və emal müəssisəsi barədə yayılan xəbərlər və sujetlər, əslində, ölkə iqtisadiyyatı üçün ən yaxşı xəbərlərdən və ən dəyərli sujetlərdən biridir.

Çünki yeni yaradılan real iqtisadi dəyər ölkə üçün hava-su kimi vacibdir. Regionda bir emal müəssisəsinin açılması regional məşğulluğu dəstəkləyir, qeyri-neft iqtisadi artımına təkan verir, sosial rifahı gücləndirir və dayanıqlı inkişaf üçün möhkəm baza yaradır. Bunlar öz yerində. Amma məsələ təkcə iqtisadi deyil, hər açılan regional (emal və istehsal) müəssisə bütün ölkənin həyatına təsir edir, hətta paytaxt küçələrində tıxac artımının tempini azaldan amilə çevrilir",- deyə o bildirib.

**V.ƏLİHÜSEYN**

# Rəvanın otağı - susan divarların danışdığı qəhrəmanlıq dastanı

**Quba torpağı hər zaman igid oğulları, mərd qızları ilə tanınıb. Bu yurd tarix boyu Vətənin bütövlüyü və azadlığı uğrunda canından keçən minlərlə qəhrəman yetişdirib. O igidlərin sırasında bir ad var ki, Qubanın hər daşında, hər bulağında, hər nəfəsində yaşayır.**




- Əliyev Rəvan Yusif oğlu. Rəvan 27 may 2001-ci ildə Sumqayıt şəhərində dünyaya gəlsə də, onun uşaqlığı, gəncliyi və arzuları Qubada cücərmişdi. O, Quba şəhər 3 nömrəli rus məktəbində təhsil almış, daha sonra BİTK kollecinin Proqramlaşdırma fakültəsini bitirmişdi. Elmə, texnologiyaya marağı ilə yanaşı, futbolu çox sevər, tarı isə böyük bir ustalıqla ifa edərdi. Həyat dolu, gülərüz, mehriban bir gənc idi - amma hər şeydən öncə Vətənini sevən bir oğul idi. 2020-ci ilin payızı xalqımız üçün həm sınaq, həm də şərəf dövrü idi. Rəvan da minlərlə həmvətəni kimi bir an belə düşünmədən cəbhəyə yollandı. O, Ağdam, Cəbrayıl və Zəngilan rayonları istiqamətində gedən döyüşlərdə böyük igidlik göstərdi. Qəhrəman əsgərimiz Zəngilan rayonunun Ağbənd qəsəbəsi və Vejnəli qızıl yataqları istiqamətində gedən ağır döyüşlərdə, 22 oktyabr 2020-ci ildə - dayısının doğum günündə şəhidlik zirvəsinə ucaldı. Döyüşlər gedərkən ailəsi Qubada tikdikləri təzə evə köçmüşdü. Onlar telefonla Rəvana bu xəbəri çatdırdılar. Rəvan sevinc içində döyüş yoldaşına dedi:

"Axır ki, mənim də bir otağım olacaq..."

Amma o otaq heç vaxt işığı yanmayan otaq oldu Otaq Rəvanın dönmədiyi, amma ruhunun daim var olduğu son mənzili oldu. İndi isə həmin evdə Rəvana ayrılan otaq muzeyə çevrilib. Onun əşyaları, geyimləri, şəkilləri sevgi və qürurla düzülüb - amma Rəvansız Otağın divarları susur, amma hər şəkil danışır - bir gəncin, bir qəhrəmanın hekayəsini. Rəvanın nəşi 29 oktyabr 2020-ci ildə, anasının doğum günündən bir gün əvvəl, heç vaxt yaşamadığı, amma hər zaman qayıtmaq istədiyi evinə gətirildi. Beləcə, 22 oktyabrda dayısının doğum günündə şəhid olan Rəvan, 7 gün sonra anasının doğum günündən bir gün əvvəl torpağa tapşırıldı. Sanki o, iki doğma insanına - dayısına və anasına - bir hədiyyə bağışladı: şəhid qanı ilə boyanmış sinəsində dalğalanan üçrəngli Azərbaycan bayrağını O gün Qubanın səması həm fəxr, həm kədər göz yaşları tökdü. Axşam saatlarında Rəvan torpağa tapşırıldı və bir daha torpaqla əbədi birləşdi - öz Vətəni ilə bir oldu. Onun qəhrəmanlığı dövlət tərəfindən yüksək qiymətləndirilib:

"İgidliyə görə" medalı, "Zəngilanın azad olunmasına görə" medalı, "Vətən uğrunda" medalı.

2025-ci il 14 oktyabr tarixində, Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Elçin Quliyev tərəfindən təqdim edilən dördüncü medal, şəhidin anası Mehriban xanıma şəxsən təqdim olunub. Rəvanın adını əbədiləşdirmək üçün Zəngilanda onun döyüşdüyü yüksəkliyə və posta "Rəvan postu" adı verilib. Doğma Qubada da onun xatirəsinə bir küçə adlandırılıb, ailəsi tərəfindən iki bulaq inşa edilib. Hər axan damlada, hər sükutda onun ruhu yaşayır

**Bu gün Rəvan Əliyev təkcə bir şəhərin deyil, bütün Azərbaycanın fəxridir. Onun həyatı - gəncliyin, mərdliyin və vətən sevgisinin simvoludur. Rəvan bu torpaq üçün doğuldu, bu torpaq üçün döyüşdü və bu torpağın sinəsində əbədi məskən saldı. Rəvanın otağı İşığı sönsə də, xatirəsi heç vaxt sönməyəcək. Çünki bu otaqda bir xalqın qüruru yaşayır.**

**Firəngiz Sabirqızı**

# "İstanbulda razılaşma əldə olunmazsa..."

**"Əfqanıstan və Pakistan nümayəndələrinin oktyabrın 25-də İstanbulda başladıqları danışıqlar davam edir. Tərəflər sərhəd böhranının həlli yolarını müzakirə edirlər. 9 oktyabrda Pakistanla Əfqanıstan bir-birlərinin ərazilərini atəşə tutmuşdular. Müharibənin genişlənməsi ehtimalı var idi. Tərəflər bir-birlərinin sərhəd postlarını da ələ keçirməyə başlamışdılar, nəticədə hər iki tərəfdən itkilər artırdı".**



Adalet.az xəbər verir ki, bunu politoloq Elxan Şahinoğlu deyib.

Onun sözlərinə görə, gözləmək olardı ki, digər münaqişələrin həllində vasitəçi kimi çıxış edən ABŞ Prezidenti Donald Tramp Əfqanıstanla Pakistanı da barışdırmağa çalışacaq:

"Ağ Ev sahibi "mən sülh yaratmağı yaxşı bacarıram" açıqlamasını səsləndirsə də, başı başqa münaqişələrin həllinə qarışdığına görə Pakistanla Əfqanıstan arasında vasitəçi ola bilməyəcəyini vurğuladı. Görünür, Trampın müşavirləri Əfqanıstanla Pakistan arasında münaqişənin dərin kökləri olduğunu ona izah ediblər.

Bu arada, Tramp növbəti münaqişənin həllinə nail olub. ASEAN ölkələrinin Kuala-Lumpur şəhərində keçirilən sammiti çərçivəsində Tayland və Kamboca liderləri Trampın iştirak etdiyi tədbirdə aralarındakı münaqişəyə son qoyan sənədə imza atıblar. Vaşinqtonin vasitəçiliyi ilə Taylandla Kambodca arasında danışıqlar may ayından gedirdi.

Donald Tramp yay aylarında açıqlama verərək, Taylandla Kamboca arasında silahlı münaqişə davam etdiyi müddətdə ABŞ-nin bu dövlətlərlə ticarət sazişləri bağlamayacağını bildirmişdi. Münaqişənin sona çatmasında da bu xəbərdarlığın da rolu olub".

Politoloq deyib ki, bununla Tramp növbəti ildə Nobel Sülh mükafatına əsas namizəd olduğunu təsdiq edib: "Tramp daha əvvəl Hindistanla Pakistan arasında da münaqişəyə son qoyduğunu bəyan etmişdi. İslamabad bunu təsdiq etdiyi halda, Dehli münaqişənin dayandırılmasında Vaşinqtonun xüsusi rol oynamadığını vurğulamışdı.

Pakistanla Əfqanıstan nümayəndələri oktyabrın 19-da Qətərin paytaxtı Doha şəhərində keçirilən danışıqlar zamanı atəşkəs barədə razılığa gəliblər. İstanbulda davam edən danışıqlar atəşkəsi daha da möhkəmləndirmək məqsədi daşıyır. Ancaq atəşkəs kövrəkdir. Bunu Pakistanın müdafiə naziri Xavaca Asifin son açıqlaması da sübut edir.

O deyib ki, İstanbulda razılaşma əldə olunmazsa, Pakistan Əfqanıstana qarşı açıq müharibəyə başlayacaq. Əldə olunacaq razılaşma bölgə üçün əhəmiyyətlidir. Buna baxmayaraq, iki ölkə arasında sərhədin müəyyənləşdirilməsinə ehtiyac var. Bu baş vermədikcə, iki ölkə arasında gələcəkdə də toqquşmaların baş verəcəyini istisna etmək olmaz".

**Vasif ƏLİHÜSEYN**

# Üçtərəfli görüş üçün şərtlərini açıqladı

**Ukrayna Prezidenti Volodimir Zelenski Rusiya və Belarus istisna olmaqla, prezidentlər Vladimir Putin və Donald Trampla üçtərəfli görüşə hazır olduğunu açıqlayıb.**



Adalet.az xəbər verir ki, bu barədə xarici KİV yazıb. O, aydınlıq gətirib ki, əgər bu hadisə Ukraynaya sülh gətirərsə, Macarıstanda görüşməyə hazırdır: "Əgər üçtərəfli görüş müharibəyə son qoymaqla bağlıdırsa, onda harada olmağından asılı olmayaraq, biz hazırıq. Hər halda, əlbəttə ki, Rusiya Federasiyasında və Belarusda yox".



Əbülfət MƏDƏTOĞLU
madatoglua@mail.ru

# Yazılması içimin istəyi olan Etiraf

## Başqa heç nə bilmirəm

Öncədən bir xatırlatma edim. Təbii ki, bunu hamı bilir. Amma mən də xatırlatmağı özümə borc sayıram. Deməli, yazılan hər bir yazı deyilən hər bir söz kimi onu dilə gətirənin və yaxud yazanın məsuliyyət hisini də özündə ifadə edir. Bu mənada mənim yazılarım, xüsusilə "Ədalət"in şənbə sayı üçün yazdıqlarım həyatımın, düşüncələrimin, yaşamımın, xatirələrimin, xəyalımın, bir sözlə, bir insan olaraq özümə aid olan özəlliklərin sözlə ifadə olunmuş formasıdır. Təbii ki, bütünlüklə yox, müəyyən nüanslarla və bir də təbii ki, mən yazı adamı olaraq həmin təqdim etdiklərimə uyğun özümün bədii donumu da biçirəm. İstəyirəm ki, oxucu yorulmasın, bezməsin və ən vacibi imzamı görəndə ötüb keçməsin...

Bəli, hər bir Allah bəndəsi kimi mənim demək olar ki, günümün 99 faizi özümlə, Allahımla, bir də içərisində olduğum məkanla söhbətdən keçir, söhbətdən ibarətdir. Demək olar ki, mən atdığım hər addımda xəyalıma, ürəyimə gətirdiyim hər fikirdə, hər sözdə Allahımın münasibətini nəzərə almağa çalışıram. İstəyirəm ki, nə sözümlə, nə hərəkətimlə, nə də varlığımla Allahsız olmayım. Heç kimin yadında yenə deyirəm, dinsiz, imansız, Allahsız kimi qalmayım. Bəlkə də kimlərsə məni din fanatı saya bilər. Amma yox. Mən namaz qılmasam da, ibadətgahlara getməyi, nəzir bağışlamağı, fitrə verməyi, ruhları bir salavatla salamlamağı, gecə yatanda son duamı oxumağı, səhər oyananda günümə şükür etməyi unutmuram. Yəni, alnımı yerə döyüb sonra kiminsə haqqına əl uzatmıram. İçimdəki, ruhumdakı Allahımla təmasdan əziz, müqəddəs mənim üçün heç nə yoxdur. İndi, bax, bu yazdıqlarımı oxuyub mənim nə qədər dindar olduğumu özünüz müəyyənləşdirin. Bu haqqınıza qarışmıram. Amma məni dinsiz saymaq istəyənlərə də deməyə sözüm olduğunu və bu ixtiyarı da özümdə saxladığımı unutmuram. Bütün bunları yazıma ipucu ona görə edirəm ki, mənim üçün Diqqət, Sayqı, Sevgi Allahın zərrələridi. Bu da o deməkdi ki, kimliyindən asılı olmayaraq, diqqətini, sayğısını gördüyüm, sevgisini yaşadığım, diqqət, sayğı, sevgi yaşatdığım hər kəsin həyatımda olması, həyatıma təsir etməsi mənə bütün mənalarda (hətta əzab versə belə-Ə.M.) mənə xoşdur. Bir az da dəqiq ifadə etsəm, Şərəfdi!

Deməli, bildiyimə görə "Aydan arı, sudan duru" olmaq bir ata deyimidi, bir hikmətli kəlamdı. Əgər dünya tək məndən və yaxud səndən ibarət olsaydı aydan arı, sudan duru ifadəsinə bəlkə də heç ehtiyac qalmayacaqdı. Ona görə Allah insana görmək, düşünmək, müqayisə etmək və sonra fikir söyləmək haqqı verib. Bu haqqı yemək, tapdalamaq, ən azından insafsızlıqdı. Mən də bir Allah bəndəsi olaraq özümü aydan arı, sudan duru saymıram. Heç belə bir iddiam da yoxdu. Lakin bilə-bilə, düşünərək və yaxud da qəsdən kiminsə haqqına əl uzatmamışam, kiminsə payını əlindən almamışam, yeməmişəm. Bacardığım qədər gücüm, imkanım daxilində bir Allah bəndəsi ömrünü yaşamağa çalışmışam. Bu işdə, daha doğrusu, bu istəkdə ən böyük yardımçım, əlimdən tutanım, yol göstərənim, hər zaman dediyim kimi öncədən Allahım, sonra da Sən və dostlarım olubdur. Həyat dərsi insanın yaddaşına birbaşa yazılır. Mən də sıxıntıların, ağrıların, evsiz-eşiksiz qalmağın, yurdsuzluğun, qaçqınlığın, şəhid nisgilinin nə olduğunu öz ürəyim və kafam tutumunda bilirəm, anlayıram. Odur ki, çiynimdəki missiyanı adam balası kimi icra etməyə, daşımağa çalışmışam və çalışıram. Dünən də belə olub, bu gün də belədi, sabah da əgər salamat olsam, belə davam edəcək. Odur ki, içimi didib-parçalayan, haqlı-haqsız basqıları, ağrıları yola vermək, daha doğrusu, sona kimi daşımaq istəyimi Allahımın və sənin varlığınla reallaşdırmaq yolunu tutmuşam. Və hətta yuxudan oyananda da sökülən dan yerinə baxıb, pıçıldamışam:

*Oyanmayıb, yuxuludur bu səhər,*
*Yuxusunu kim yozacaq gözümün?!*
*Sıralayıb hərfləri birtəhər -*
*Misrasını kim yazacaq sözümün?!*

*Bir dəlisov, xəyalpərvər bəndənin,*
*Eləmədin sən ümidə bənd, əlin...*
*Həsrətimin ödədikcə bədəlin -*
*Pərən saldım illərimin düzümün...*

*Fərq eləməz tənhalıqda ağ, qara,*
*Bir də kim var, ağ, ya qara axtara...*
*Dənizimsən - indi mənim, Ağ, Qara -*
*Körüyüdü ləpələri gözümün...*

*Bu bəllidi - Tanrı da tək, sən də tək,*
*Eləmədim ona, nə də sənə şək!*
*Üşüyəndə yadına sal, kirbit çək -*
*Az-az yandır, Əbülfətin dözümün!..*

***

Hərdən ya təsəlli üçün, ya əsəbini sıxıb, tutub saxlamaq üçün, ya içindəki hikkəni, təlatümün, bir sözlə narahatlığı nizama salmaq üçün gözüyumulu bir addım atırsan. Və yaxud birini bilmədiyin bir vasitənin, bir alətin, bir cihazın düyməsini basırsan... bundan sonra gələn ismarıclar, iradlar, təriflər, daha nələr, nələr bitib-tükənmir. Alqışlayanlar qarğış edənlərə, qarğış edənlər alqışlayanlara içində hücum çəkir. Hər iki tərəfin də yükü yenə sənin ürəyinə yüklənir. Yenə sən qalırsan ortada. Yenə sən əllərdə olan yaxanın nə vaxt əllərdən çıxacağına, alınacağına gözləyə-gözləyə sozalırsan, əriyirsən və ...

Heç kimə sirr deyil ki, sübutlar həm hüquqdan, həm cinayətdə, həm də lap elə sevginin özündə də ən güclü silahdır. Necə deyərlər, adamı divara söykəyir. Dəhşətlisi onda olur ki, həmin silah səni istəməyənlərin əlinə keçir, səni sevməyənin arqumenti olur. Bax, onda quyuda oturub kəndir gözləyən Məlikməmməd kimi içinlə çölün bir-birini didə-didə əlində silah olanın nə zaman insafa gələcəyini gözləyirsən. Bu yerdə "İnsaf" sözü həm xilas kəndiridi, həm yandırılan işıqdı, həm də boğulan üçün bir udumluq havadı. Bütün bunları bilən insanın, lap elə mənim özümün etdiyim yalnışlıq təbii ki, bağışlanılmazdı. Bunun bağışlanması üçün Allaha və Sənə üz tutmaq, qarşında diz çöküb yalvarmaq, rəhm diləmək, yəqin ki, heç nəyi və yaxud da çox şeyi dəyişməyəcək. Bu yerdə deyilmiş, amma indi uydurmaq istədiyim bir atalar sözü də var.

Ona görə də "uydurmaq istədiyim" yazıram ki, bəlkə bu bir xoşməramlı istəyə çevrilə, təsir göstərə bilə, ovqat yarada, rəhm deyilən o böyük hissi hərəkətə gətirə. Nə isə...deməli, "uydurmaq istədiyim" kəlamda deyilir ki, "özü yıxılan ağlamaz". İndi nə dediyimi və yaxud nəyə işarə etdiyimi duyanlar, anlayanlar qarşısında baş əyərək dərinliyə varmayaraq Allahıma və Sənə bildiyinizi, hətta mənim özümdən öncə sizə məlum olanı bir kənara qoyub, yenə şeirə üz tuturam. Deməyin ki, sözümün altından qaçdım, fikri yayındırmaq istədim... Yox! Sadəcə elə anlar, elə məqamlar var ki, onu deməmək, onu yenidən xatırlamamaq, daha doğru qərardı. Odur ki:

*Hər anımda gözlərimə görükən,*
*Xəyal deyil, gerçəkliyin özüdü...*
*Baxışımdan, hənirimdən perikən -*
*Sevdiyimin ürəkçəkən gözüdü...*

*Mən nağıllar divanəsi deyiləm,*
*Yer üzündə özüm gördüm mələyi...*
*İstəsə ki, dizlərinə əyilim,*
*Qınamaram, inanın ki, fələyi!..*

*Yaşadığım, yaşatdığı bir adda,*
*Gerçəkləşdi sevgisiylə canımda...*
*Bəlli olan bir tarixdir həyat da -*
*Allah onu işıq etdi yanımda...*

*...Daşıdığım quru cisim - bədəndi,*
*Ruhum səndə, onu sayma gəl xəyal...*
*Mənim sevgi təmənnam ta ödəndi -*
*Şükürlər Allaha, sən salamat qal!..*

***

Heç nə izsiz, tozsuz qeybə çəkilmir. Bu fikri hətta çoxları deyir. Hətta elmdə də heç nəyin itmədiyi, yalnız formasını dəyişdiyini bizə aşılayıblar. Mən elmin əleyhinə getmədən öz həyatımda bilirəm ki, yaşadıqlarımı və yaşadılanları həyat ömrünə naxışlayır, ilməsini vurur. O sadəcə olaraq, obrazda desək, bir arxiv materialına çevrilib. Söz sözü çəkəndə, xatirələr qapı döyəndə onlar da gün işığına çıxır, onların da ağrısını-acısını, sevincini təkrar yaşamağa məcbur oluram. Yəqin sizdə də belədi. Mən heç kimin istəyinə, bilgisinə, hətta arxivinə əl uzatmadan özümlə bağlı deyə bilərəm ki, altmışı keçən ömründə üzüldüyüm tək-tək məqamlar var ki, onların hər biri üçün ömrümdən keçməyə hazıram. Təki mənim üzümdən, mənim varlığımdan, mənim günahımdan, mənim səbəbkar olmağımda baş verən həmin o üzüntünü ömrümdən, həyatımdan, yaddaşımdan, təbii ki, həm də qarşı tərəfin ömründən, həyatından, yaddaşından silə biləydim. Bunun mümkünsüz olduğu gün işığı kimi məlumdu. Bəlkə yazmağım da, deməyim də artıqdı. Amma yazmaqla, deməklə yaranı qanatmaq, qabığını qopartmaq istəyində deyiləm. Sadəcə qanmaz olmadığımı, nadan olmadığımı, ən vacibi isə o üzüntüləri qəsdən, düşünülmüş etmədiklərimi söyləmək üçün, bildirmək üçün pıçıldadım bu sözləri. Ürəyimdə dediyimi, Allahımın və sənin eşitdiyini təkrar pıçıldadım ki, yerin də qulağı var, qoy gedib hansısa qapını döysün...

İnsanın həyatı onun özündən asılı olduğu qədər də həm də asılı deyil. Mən bu qənaətimdə birmənalı şəkildə qərarlıyam. Yəni, şəraitin, müəyyən təsirlərin hansı gücə malik olduğunu bilirəm. Üstəlik, adamın zəif damarının olması fikrini də qəbul edirəm. Bax, bunların fonunda mənim üçün ən dözümlüsü ürəkdi. Çünki o hər şeyi qəbul edir, hər şeyi özündə yerləşdirir və hər şeyin də ağrısı ilə yanaşı, sevincini də son nəfəsə qədər daşıyır. Bu mənada mənim üçün ürəyin ölçüsü də onun tutumu boydadı, onun dözümü boydadı və nəhayət, dünyada ürəklə yaşamaq, ürəklə sevmək həm də açıq şəkildə ürəyi şam kimi yandırmaqdı. Lakin... o şam kimə işıqdı, kimə oddu, kimə də yol nişanıdı. Uzaqdan hər kəs onu özünün düşündüyü, bildiyi fərz və təxmin etdiyi kimi görür. Ən dəhşətlisi də bax, elə budur.

*Düşündüyüm, daşıdığım bir adla,*
*Xəyalımın atlandığı Düratla...*
*Dizin-dizin, yorulmadan, inadla -*
*Gəlib çatdım bu durumla sona mən...*

*Güvəndiyim duasını göyərtdi,*
*Mənə dərdin hər üzünü öyrətdi...*
*Sevinirdim, birdən elə kövrəltdi -*
*Donub qaldım baxa-baxa ona mən!..*

*Mənim ruhum lələkləri ürtülmüş,*
*Bülbül donda daş parçası - bütüymüş!*
*Lap doğuşdan məhəbbətim lütüymüş -*
*Salmamışam onu heç bir dona mən...*

*Çəkdiklərim fırçalıq, nə qələmlik,*
*Bir xırmanda xəlbirləndik, ələndik...*
*Biz Allahın göz yaşına bələndik -*
*Tanrım kimi baxdım yerdə ONA mən!*

...Bu yazının ifadə etdiyi hər nədisə, onu açmayacam, deməyəcəm. Çünki, yazı boyu bundan Allahın və Sənin xəbərdar olduğunu təkrar-təkrar vurğulamışam. Soruşa bilərsən ki, onda niyə yazdın? Mən də cavab verirəm. Allaha və Sənə bildiklərinizi yazılı təqdim etmək üçün. Başqa heç bir səbəb bilmirəm!

### Tramp Si Tzunpinlə görüşündən razı qaldı



**ABŞ prezidenti Donald Tramp, ÇXR-nın sədri Si Tzinpinlə görüşünü yüksək qiymətləndirib.**

"Hesab edirəm ki, görüşümüz 10 ballıq cədvəlin 10, hətta 12 bal səviyyəsində keçdi"- deyə Tramp bildirib. ABŞ prezidentinin ÇXR-sədri ilə görüşü, Birləşmiş Ştatlarla Çin arasında gedən ticarət müharibəsi ərəfəsində keçirilib. Ağ Evin rəhbəri qeyd edib ki, görüş yüksək səviyyədə baş tutub. Donald Tramp bildirib ki, bir sıra maniələr aradan qaldırıldıqdan sonra, bu sahədə Çinlə razılaşmaların əldə ediləcəyinə ümid edir.

**Rüstəm Hacıyev**

### Tanımadığınız nömrələrdən gələn linkləri açmayın!

**Bilinməyən və ya tanış kimi görünən nömrələrdən göndərilən şübhəli keçidlərə daxil olmaq nəticəsində "WhatsApp" istifadəçilərinin hesablarına icazəsiz giriş cəhdləri son dövrlərdə artıb.**

Bu barədə Adalet.az-a Elektron Təhlükəsizlik Xidmətindən bildirilib.

Məlumata görə, kiberdələduzlar bu üsuldan istifadə edərək vətəndaşlara SMS vasitəsilə göndərilən təsdiqləmə (OTP) kodlarını ələ keçirməyə çalışırlar. Bu kodlar paylaşıldığı halda istifadəçilərin "WhatsApp" hesabları oğurlanır. Daha sonra onların adından yaxınlarına saxta mesajlar göndərilir. Beləliklə, həmin şəxslərin maliyyə vəsaiti və şəxsi məlumatlarının ələ keçirilməsinə cəhdlər edilir.

ETX vətəndaşlara bu kimi hallara qarşı diqqətli olmağı, həmçinin hesablarının qorunması üçün aşağıdakı təhlükəsizlik tədbirlərini görməyi tövsiyə edir:

- Tanımadığınız nömrələrdən gələn linkləri açmayın.
- Tətbiqləri yalnız rəsmi mənbələrdən yükləyin.
- OTP və təsdiqləmə kodlarını heç kəslə bölüşməyin.
- Tətbiq ayarlarında ikimərhələli təsdiqləmə funksiyasını aktivləşdirin.
- Şübhəli hallarla rastlaşdıqda tətbiqin dəstək xidmətinə müraciət edin.
- Profil məlumatlarını (son görülmə, profil fotosu, status və s.) yalnız kontaktlarınıza görünəcək şəkildə məhdudlaşdırın.
- Yaxınlarınızı, xüsusilə yaşlı və texnologiyadan az istifadə edən şəxsləri belə dələduzluqlar barədə məlumatlandırın.

# Sərhat Kabaklı imzası, şeirləri və şeirlərin pozitiv aurası

**Poeziya ilə nəfəs almaq, söz demək, tanış olmaq elə bir ünsiyyət formasıdır ki, zənnimcə bundan doğması, bundan isti olanı yoxdur. Şeirlə ən ülvü hissləri, dünyaya, insanlığa bağlılığı, Vətənə sevgini, lirik duyğuları çatdıra bilənlərə, elə bunu dərk edənlərə də nə xoş. Bu dəfə tanınmış bir söz adamından, onun poeziyasından bir neçə yarpaq nümunə göstərməklə, bəhs etməklə oxucularla fikrimi bölüşmək istəyirəm.**

Son illər dilimdən düşməyən, ürəyimdə dövr edən bu misralarla -

”Vətəninə göz dikəni əz oğlum
dostun kimdir, düşmənin kim, sez oğlum”,

- Sərhat Kabaklı imzasını tanıdım desəm, düz olmaz. Şairi çoxdan tanıyır, təsadüf etdikcə oxuyurdum. Amma şairi, qeyd etdiyim bu misralarla davam edən şeiri ilə daha çox sevdim, desəm, əlbəttə yanlış olmaz.

Bu şeirdə dünya görmüş, Vətənin işğalında yaşamış, basqılar görmüş bir xalqın ahılının, müdrükünün nəsihəti, öyüdü var.

***Gün gidende, ay gelende gel oğlum***
***Cihan yanar sen gülende gül, oğlum.***
***Bir yol var ki Hak yoludur bul, oğlum***
***Yeri bilmek, göğü bilmek bil oğlum.***

Heç yanlışlıq yox, bu bir öyüddür, Vətən, el-oba, ulus dardadır, gəl oğlum, gəl. Gəl ki gəlişindən gülüşündən dünya lərzəyə gəlsin, haqq yolunu, həqiqəti tap, ona sığın, mübariz ol və Yerin yer, Göyün göylüyünü bil, tanı və tanıt.

Sərhat bəyin digər könül oxşayan şeirlərinin də təsir dairəsindən qurtulmaq olmur, şairin hansı duyğularla yaşamasından, milli ruhun ənginliklərdə pərvazlanmasından qürurlanırsan. Bir şeirində deyir:

***Üfüqlər küsməsin qeyri günəşə***
***Qaranlığın arxasından dan gəlir.***

Təbii ki belədir Günəş hər batdıqda yenidən doğmaq, dan yerini al şəfəqlərlə boyamaq üçün qeyb olur.

***Suya həsrət könüldə dəfnə budağı***
***Yaşıl yaşıl göyərəcək an gəlir, -***

deyən şairin yuxarıda bəhs etdiyim, ”Bil oğlum” şeirinin bu misrarlarıyla da həmahəngdir:

***Çabuk büyü, çabuk yetiş tez oğlum***
***Çakal gezen şu dağlarda gez oğlum***
***Vatanıma göz dikeni ez oğlum***
***Tarihini şerefinle yaz oğlum.***

Və zaman gəldi, dünən çocuq bildiyimiz oğullarımız illəri qabaqladılar sanki, tez böyüdülər.

Çaqqalların, düşmənlərin gəzdikləri dağlara boy verdilər, sıralandılar, vətənimizə göz dikənləri əzdilər, tariximizin şanlı tarixini şərəflə yazdılar.

Sərhat Kabaklı şeiriyyətində tarixə güzar etmək, ötənləri xatırlamaq, yaddaşa hopdurmaq, unudulmamaq  əsas xətt kimi keçir. Ötənləri unudanlar bu günündə yanından səssiz ötüb keçər. Bu baxımdan, şairin şeirlərinin birində dediyi bu sözlər, xatırlatmalar necə də yerinə düşür:

***Kor- sağır gecələrin bir də sabahı vardır***
***Və qışdan sonra gələn, əlbəttəki, bahardır.***

Həm də heç nə unudulmur, heç nə  yaddan çıxmır deyiminin müqabilində, düşünürsən ki, nə yaxşı ki, nələrsə bilinməmiş qalır?

***Daşların dili olsa, desə dünü bu günə***
***Ağlayan nəyə ağlar, gülənin məramı nə?-***

Deyən şairimizə əlbəttə haqq vermək olar. Və yenə də şairin həmin məşhur şeirinə



dönürəm, oğlumuza, nəvəmizə, övladlarımıza üz tuturam, Sərhat bəyin bu misraları ilə ərklə, ötkəm səslə deyirəm:

***Senden gider sonsuzluğa yol oğlum***
***Dört bir yana salmalısın kol oğlum***
***Ekmeğini aç olanla böl oğlum***
***Haram yeme, Hak yolunda öl oğlum.***

Və qayıdıram yuxarıda iki beytini misal göstərdiyim digər şeirə:

***Bir əsirlik çinarın hər budağından***
***Hər yaprağından min ah ilə ün gəlir,***

deyən şair elə bu şeirin ilk misralarında deyirdi ki, bir eşqə düşdük ki, sevgilinin cigərindən qan gəlir. Bu sevgi, bu eşq sevgilərin ən böyüyü, ən alisi olan yurd-yuva, el-oba, VƏTƏN sevgisi ola bilər ki, şairin özü demiş bu sevgini sübutlamaq, vətəni azad etmək üçün ,

***”Bir fitrət sonrası, bir gülüş anı***
***Könlü buruk, dəmir yumruq xan gəlir”,***

necə ki, gəldi, necə ki, 32 il işğal altında olan topraqlarımızı azad etdi.

Və yenə də dönüş edirəm, öyüd, nəsihət, məsləhət və çağırış dolu ”Bil oğlum” şeirinə:

***Zulüm dolu saltanattan in oğlum***
***Zalimlere duymalısın kin oğlum***
***Nefis ki bir mantık yutan dev oğlum***
***Mağrur olma insanları sev oğlum...***
***Xəyanətə tasaklanmaq yox, oğlum,***
***Qılıncını xain qəlbə sox, oğlum.***

Türk dünyasının tanınmış söz adamı, şair Serhat Kabaklı poeziyasında özümüzü, soyumuzu, Vətənə sevgini, sözə vurğunluğu sezməmək olmur. Şairin qəlb ağrıdan duyğularımızı titrədən, inlədən kövrək bir şeiri ilə fikrimi tamamlamaq istəyirəm. Şairin ”Öncə göyərçinləri vurdular” şeirini sakit oxumaq, oxuyub da kövrəlməmək olmur:

***Öncə yaşılı sildilər tablolardan***
***Siyaha yıkadılar pəmbə şəfəqi***
***Hüzün üstümüzdən getməsin, deyə***
***Viranəyə döndərdilər***
***Gözəlim çiçəklərlə bürünən***
***Bağçanı, bağı.***

Şeirlə o qədər doğma, o qədər qəlbə yaxındır ki, əzbərimdə olan və misal olaraq göstərdiyim bu şeirləri Azərbaycan və Türkiyə türkcəsində ifadə etdim. Olsun, zatən bu poeziya nümunələri, şeirlər hər birimizindir, sənin, onun, mənim və əlbəttə ki, böyük söz adamı Serhat Kabaklının...

**Faiq BALABƏYLİ,**
**şair**

# Zəka Vilayətoğlu – Yaradıcılığın Yeni Zirvəsində

**Həm yaxın dostum, həm də daim yaradıcılığını və yaradıcılığındakı yenilikləri böyük maraqla izlədiyim istedadlı bir insan kimi Zəka Vilayətoğlunu yazıçı, şair, müğənni və bəstəkar olaraq yaxşı tanıyır, heyranlıqla təqdir edirdim. Amma etiraf etməliyəm ki, onun istedadlı bir aktyor olduğunu heç ağlıma gətirməzdim. Eşidəndə ki, Zəka Vilayətoğlu ”Şah ölüm” adlı film çəkir, bu xəbəri içimdə bir az təbəssümlə qarşıladım.**



Axı film çəkmək - həm də tarixi-bədii-sənədli janrda - elə də asan məsələ deyil. Bunun hansı zəhmət və hansı büdcə hesabına ərsəyə gəldiyini hər bir tamaşaçı təxmin edə bilər.

Sosial şəbəkələrdə həmin filmdən bir neçə kadr izləsəm də, dostumun bu yeni işinə əvvəlcə bir qədər şübhə ilə yanaşırdım. Nəhayət, film çəkilib başa çatdı, montaj uğurla tamamlandı. Təəssüf ki, kinoteatrlarda izləmək imkanım olmadı.

Filmi YouTube üzərindən seyr etdim və o zaman Zəka Vilayətoğlunun öncə bir vətənpərvər övlad, daha sonra isə bir ssenarist və aktyor kimi necə böyük, şərəfli bir işə imza atdığının canlı şahidi oldum.

Desəm ki, dostumun uğuruna az sevindim - inanın, bu, düzgün olmaz. Zəka Vilayətoğlunun Məcid ağa obrazını böyük ustalıqla, inamla, səmimiyyət və fədakarlıqla canlandırdığını izlədikcə həyəcanlandım. Sanki dostumun ürəyinin fərəhli döyüntülərini ekrandan hiss edirdim. Bir daha böyük qürur hissi ilə düşündüm: ”Mən nə yaxşı ki, belə bir böyük şəxsiyyətlə dostam!”

Mən Zəkanı əzəmətli, uca bir dağ kimi görürəm. Ona çox yaxın olduqda bəlkə də bu nəhəngliyi hiss etmirik. Amma bir az uzaqdan baxdıqca bu əzəmət daha aydın görünür, daha dərindən duyulur.

Bir həqiqəti də yaxşı bilirəm: Zəka Vilayətoğlu təmənnasız insandır. Onun səmimi yaradıcılığı, öz ürəyinin dumduru duyğularından süzülüb gələn əsərləri, ruhumuzu və könlümüzü qidalandırır. Dostuma yeni-yeni yaradıcılıq uğurları arzulayıram! Zəka Vilayətoğlu - xalqımızın canlı əfsanəsidir!

**Oruc Quliyev**

# Xırdalan Seconq İnstitutu 1-ci Koreya Mədəniyyəti Viktorina Yarışması uğurla həyata keçdi

**Bakı Mühəndislik Universiteti və İNHA Universitetinin birgə əməkdaşlığı ilə 2021-ci ildən fəaliyyət göstərən Xırdalan Seconq İnstitutunda 25 oktyabr tarixində Koreya Mədəniyyəti Viktorinası keçirilmişdir. Bu tədbir Seconq İnstitutu Fondunun 2025-ci il xüsusi layihəsi çərçivəsində təşkil olunmuşdur və Koreyaya maraq göstərən, Koreya dili və mədəniyyətini öyrənən 76 nəfər iştirak etmişdir. Yarışma üç mərhələdən ibarət idi:**




1-ci mərhələ Koreya mədəniyyəti haqqında test və açıq tipli 40 sualdan ibarət idi. Azərbaycan və koreya dillərində təqdim olunan sualları ən yüksək balla cavablayan 30 nəfər iştirakçı növbəti mərhələyə iştirak şansı qazanmışdır. 2-ci mərhələ koreya dilində 'Golden Bell-Qızıl Zəng' viktorinası şəklində keçirilmişdir və iştirakçılar sualın cavabını ağ lövhələrə yazaraq cavablamışdır. Bundan əlavə, müsabiqəyə həyəcan və maraq qatmaq üçün ikinci mərhələni uduzan iştirakçılar üzrə iki dəfə bərpa raundu keçirilmişdir. 3-cü mərhələ koreya dili, koreya tarixi, milli mədəniyyət, ictimai mədəniyyət və gündəlik həyat kimi beş mövzu üzrə 25 sualdan ibarət idi. Sualları ilk və düzgün cavablandıran şəxs növbəti sualın mövzusunu seçmək hüququ qazamışdır. Müsabiqənin birincisi Xırdalan Seconq İnstitutunun məzun tələbəsi Aytac Zamanova olmuşdur.



Tədbir zamanı izləyicilər üçün də viktorina oyunları və lotereya təşkil olunmuşdur. Beləliklə, həm iştirakçılar, həm də tamaşaçılar Koreya mədəniyyəti haqqında yeni biliklər qazanmışdır. Tələbələr bu tədbir vasitəsilə sadəcə bilik yarışı deyil, koreya dili bacarıqlarını artırmış, Koreya mədəniyyətinə olan sevgilərini göstərmək üçün şans əldə etmişlər. Xırdalan Seconq İnstitutu gələcəkdə də müxtəlif mədəni proqramlar vasitəsilə koreya dilini



öyrənən tələbələr və Koreya arasında mədəni körpü qurmaq və əlaqələri genişləndirmək niyyətindədir.

**Əntiqə**

# VANDALİZMƏ MƏRUZ QALMIŞ MƏDƏNİ İRSİMİZ



*Elnurə Alıyeva,*
*"AVEY" Dövət Tarix-Mədəniyyət qoruğunun kiçik elmi işçisi*

**Mədəni irsimiz millətin kimliyinin tarixi yaddaşının və gələcək nəsillərə ötürüləcək dəyərlərin əsasını təşkil edir. Mədəni irs yalnız tarixi abidələr toplusu deyil, həm də xalqın yaddaşında iz buraxan gələcək nəsillərə ötürülən kimliyimizdir.**

Azərbaycan xalqının çox qədim və zəngin tarixi keçmişini öyrənmək üçün tarixi abidələrin böyük əhəmiyyəti var. Bu abidələr vasitəsi ilə əcdadlarımızın yaşayışını, təsərrüfat həyatını və mədəniyyətimizi öyrənmək mümkündür. Hər il respublikamızın müxtəlif guşələrində arxeoloji ekspedisiyalar nəticəsində tarixi keçmişimizin unudulmuş, torpaq altında gizlənmiş abidələri aşkar edilir.

Tarixi abidələrin qədimliyinə və müxtəlifliyinə görə respublikamızda Qazax rayonu xüsusi yer tutur və abidə zənginliyi baxımından Qazax ərazisi müqayisə edilməzdir. Qazax rayonu ərazisində qazıntı işləri aparmış arxeoloqlarımızın fikrincə burada tapılan bəzi abidələrin əhəmiyyəti olduqca vacibdir. Bu abidələr fonunda bütün bəşəriyyətin təkamül prosesini aydın görmək olar.

Qazax rayonunda min illərin tarixini yaşadan qədim yaşayış yerləri, tarixi abidələr vardır. Burada olan mağaralar, qədim yaşayış yerləri, möhtəşəm qalalar, türbələr, məbədlər və s. kimi abidələr Qazaxın tarixi zənginliyinin xəbərçisidir.

Qazax rayonunda olan tarixi abidələri qorumaq, onları gələcək nəsillərə çatdırmaq məqsədi ilə 1989-cu il 22 fevral tarixində Azərbaycan Nazirlər Sovetinin 99 № li qərarı ilə "Avey" Dövlət Tarix-Mədəniyyət qoruğu yaradılmış, qoruğa 3613 ha. ərazi ayrılmışdır.

Qoruq zəngin tarixi memarlıq və arxeoloji abidələr diyarı kimi ən qədim daş dövrünün yadigarı olan "Avey" məbədinin adı ilə adlandırılıb. "Avey" Dövlət Tarix-Mədəniyyət qoruğunun nəzdində "Yuxarı Əskipara"-ərazisi 2783 ha, "Damcılı"-ərazisi 800 ha və "Göyəzən"-ərazisi 30 ha. filialları da fəaliyyət göstərir.

Qazaxın ən gözəl, səfalı kəndərindən biri olan Yuxarı Əskipara kəndi dağətəyi ərazidədir. Keçmiş adı Əskiparadır. Ondan yaranan yeni məntəqə Aşağı Əskipara, əvvəlki kənd isə Yuxarı Əskipara adlandırılmışdır. Azərbaycan dilindəki "əski" (köhnə, qədim) və "para" (yer, kənd, hissə) sözlərindən ibarət olub, "köhnə, qədim kənd" mənasındadır .

Qazax rayonundakı tarixi abidələrin əksəriyyəti şəhərin 35 kilometrliyində olan Əskipara kəndində və onun ətrafındadır.

Qoruğun "Yuxarı Əskipara" filialı 2783 hektar ərazisi olmaqla bütöv kəndi əhatə edir. Çox təssüf ki, qoruğun "Yuxarı Əskipara" filialının ərazisinə daxil olan çox sayda tarixi abidələrimiz erməni vandalizminin qurbanına çevrilib.

Qazax rayonunun Yuxarı Əskipara (08.06.1992) və Aşağı Əskipara (14.06.1992) kəndləri Ermənistan Silahlı Qüvvələri tərəfindən işğal edilmişdir. Kəndlərdə yerləşən abidələrin əksəriyyəti hələ işğal vaxtı kəndlər yandırılarkən məhv edilmişdir .

Yuxarı Əskipara və Aşağı Əskipara kəndlərində dövlət qeydiyyatına götürülmüş 14, qeydiyyata alınmamış onlarla abidəmiz var ki, hal-hazırda işğal altındadır və bu abidələrin indiki vəziyyətindən məlumatımız yoxdur.

1949-50-ci illərdə aparılan tədqiqatlar nəticəsində və 1970-ci illərdə davam etdirilən arxeoloji qazıntılar zamanı Yuxarı Əskipara kəndində V-VI-əsrlərə aid qədim Şəhərcik , V-VII-Alban məbədi, XII -əsrə aid yeraltı su kəməri, XII-əsrə aid körpülər, XVI-əsrə aid Şəhərgah qalası, Xalxal şəhərinin bir hissəsi, qədim hamamlar, dəyirman və sair qədim tikililər var idi. Kənddə aparılan tədqiqatlar zamanı məlum olmuşdur ki, Yuxarı Əskiparada olan evlərin çoxu qədim yaşayış məskənləri və tikililər üzərində tikilmişdir. Burada aşkar edilən Qədim Şəhərdən Albanlara məxsus əlifba və bəzəklər olan qəbir daşları tapılmışdır.Çox təəssüflər olsun ki, bu ərazilərdə qədim olmayan tarixlərini yazmaq üçün ermənilər bu qədim daşları daşıyıb apararaq mənimsəmişdilər.

Əksipara kəndində yerləşən, dövlət qeydiyyatına götürülmüş abidələrdən biri olan Məbəd, ölkə əhəmiyyətli memarlıq abidəsidir. V-VIII əsrlərə aid edilir. Qafqaz Albaniyasının mədəni irsinə aid olan məbəd qırmızı tuf daşdan dördkünc planda inşa edilib və möhtəşəm görünüşə malikdir. Bu məbəd meşədə, əlçatmaz dağlıq yerdə yerləşmişdir. Güman edilir ki, bu məbəd Alban dövlətinin başçıları olmuş böyük Mihrani hökmdarlarının qış iqamətgahı olub. Xalxal şəhərinin məhz bu yerdə lokallaşdırılması da bunu təsdiq edə bilər. Tarixçi yazar Aydın Qarabağlı "Qədim və indiki Abşerona səyahət" adlı kitabında Azərbaycandakı qədim Alban məbədləri siyahısında bu məbədin də adını çəkmişdir.

Lakin onuda qeyd etmək lazımdır ki, sovet dövründə aparılan arxeoloji qazıntılar zamanı Yuxarı Əskipara və digər Ermənistanla sərhəd kəndlərinin abidələri dərindən öyrənilməmişdir. Alban abidələri isə diqqətdən kənarda qalmışdı. Əslində isə buna rəvac verən ən böyük səbəb imperiya sərhədlərində ( Sovet ittifaqı ), Azərbaycan torpaqlarına və eyni zamanda Qərbi Azərbaycanda -İndiki Ermənistan ( Sovet dövründə ermənilərə verilən ərazilərdə ) olan bütün Alban məbədləri erməni abidələri kimi təqdim edilirdi. Çox təəssüflər olsun ki, bədnam qonşularımız olan ermənilərin bu istəkləri , arzuları, mənimsəmələri Sovet Rusiyası tərəfindən tam dəstəklənirdi. Bunun nəticəsi idi ki, ermənilər yeni problemlər yaratmaqla yaylaqları , kəndləri ələ keçirmiş və hətta tədricən sərhəd kəndlərinin içərilərinə də soxulmuşdurlar. Hər zaman olduğu kimi ermənilərin ilk hədəfləri abidələr olmuşdur. Alban abidələri erməni xaç daşları ilə bəzədilmiş, təmir adı altında abidələrdə dəyişikliklər aparılmışdır.

Üstündən əsrlər keçsə də öz möhtəşəmliyini və əzəmətini qoruyub saxlayan abidələrdən biri də XVII əsrə aid edilən Qülədir. Yerli əhəmiyyətli, memarlıq abidəsidir. Adına "Əskipara qalası" və yaxud "Dördkünc qala" da deyirlər. Coğaz çayının sahilində ucaldılmış bu üçmərtəbəli qala gözətçixana olub. Düşünülüb qoyulmuş pəncərələr, müşahidə dəlikləri, xəbərdaredici tonqal yerləri bunu bir daha təsdiq edir. Planda qala kvadrat şəklindədir. Onun hər bir tərəfinin uzunluğu 8 m. təşkil edir. Qala çaydaşından çox səliqə ilə hörülüb. Bişmiş qırmızı kərpicdən kəmər-naxışları var. Memarlıq və mühəndislik baxımından tikili bölgəyə məxsus inşaat üslubunda ucalmışdır. Buna oxşar, eyni üslubda tikilmiş gözətçi bürcü Ağstafa rayonunun ərazisində, Azərbaycanın Gürcüstan ilə dövlət sərhədində Keşikçidağ qoruğu ərazisindədir yerləşir. Bu qala Azərbaycanın orta əsr müdafiə tikililərinin nadir və önəmli örnəyidir.

Yuxarı Əskipara möcüzələrindən biri də Yeraltı yol və Yeraltı su kəməridir. Hər iksi yerli əhəmiyyətli, arxeoloji abidədir. Yeraltı yol XIV əsrə aidddir. XVII əsrə aid edilən Qüllənin döşəməsindən başlayıb, amma hansı istiqamətə getdiyi araşdırılmamışdır.

Yeraltı su kəməri isə Yuxarı Əskipara kəndində Keçi damı deyilən dağın zirvəsində yerləşir. Diametri 3 m, dərinliyi də 3 m. olan quyu-anbardan ibarət olub. Çıxışı və girişi məlum olmayan anbarın divarları çiy kərpiclə hörülüb. Quyunun dibində hər zaman içməli soyuq su olub. Quyunun açılmayan sirri bu idi ki, quyudan nə qədər su götürülsə də su azalmır, öz səviyyəsini itirmirdi.

Yuxarı Əskiparada yerli əhəmiyyətli, memarlıq abidəsi olan 4 körpü var.

Qatır körpüsü-XII-XIII əsrlərə aid edilir. Əskipara çayının üzərindən atılaraq Yuxarı Əskipara kəndi yaxınlığında tikilmişdir. Körpünün uzunluğu 7,3 m, mərkəzi hissəsinin eni 2,7 m ümumu hündürlüyü isə tağ yerindən su səthinə qədər 5,8 m təşkil edir. Körpü bir tağlı olaraq qaya daşlarından inşa olunmuşdur. Aşırımın ümumi görkəmi yarımçevrə şəkillidir. Onun keçid hissəsinin üst örtüyü torpaqdan olmuşdur.

Kazım körpüsü- Əskipara çayının qolu üzərindən atılaraq Yuxarı Əskipara kəndi yaxınlığında qurulmuşdur. Onun uzunluğu 3,4 m, mərkəzi hissəsinin eni 5,8 m ümumu hündürlüyü isə 5 m. təşkil edir. Körpü bir aşırımlıdır. Aşırımın ümumi görkəmi yarımçevrə şəkillidir. Körpünün özülünü qayadan çapılmış daşlar təşkil etdiyi halda üst hissəsi kərpicdən hörülmüşdür. Onun keçid hissəsinin üst örtüyü torpaq olmuşdur.

Qulucanlı körpüsü- dərədən axan xırda dağ çayının üzərindədir. Tikinti materialı çal daşlardan ibarətdir və bir tağlıdır.

Yuxarı Əskiparanın ən maraqlı abidələrindən biri də hamamlardır. Birbaşa isti bulaqların, mineral suların üzərində tkilən bu hamamlar öz görünüş və texnalogiyasına görə digər hamamlardan seçilmişdir. Saxsı turbalar vasitəsi ilə gələn su hamamda yerləşən kiçik hovuza tökülür və buradan müalicə vasitəsilə istifadə edilirmiş. Hamam qalıqları kimi qeydiyyata alınmış bu tikililər yerli əhəmiyyətli memarlıq abidəsidir.

Qeydiyyata alınmayan abidələrdən biri də "Qalakənd Qalası" məbəd kompleksidir. Bu məbəd kompleksi Yuxarı Əskipara kəndində, Coğaz çayının sağ sahilində yerləşir. Alimlərin qənaətinə görə kompleksin ucaldılma tarixi VI-IX əsrlərə təsadüf olunur.

Bütün bu adlarını çəkdiyimiz abidələrdən başqa Koroğlu qalası qülləsi, Türbə, Şəhərgah, Coğaz çayı sahilində olan su dəyirmanı və s. abidələri misal çəkməklə Yuxarı Əskipara kəndi haqqında "Tarixi abidələr diyarı" demək olar.

Tarixi-arxeoloji abidələr yeganə mənbədirki bütün dəyişikliklərə baxmayaraq ( həm dağıdılsa, həm dəyişdirilsə -üzərindəki orlamentlər, saxtakarlığa məruz qalsa ) mənsub olduğu xalqın izini hər formasında qoruyub saxlayır.

Nəhayət ki, 2020-ci ildə işğal altındakı torpaqlarımızın azad edilməsi ilə yanaşı bu kəndlərdə olan tarixi abidələr də öz azadlığına qovuşdu. Uzun müddət ərzində vandalizmə məruz qalan abidələrin taleyindən xəbərsiz olmağımız bu abidələrin qorunması və təbliğatında bizləri çox böyük çətinlikərlə üz-üzə qoymuşdur.

Hal-hazırda işğaldan azad edilmiş ərazilərimizdəki tarixi abidələrin erməni işğalçıları tərəfindən zəbt edilməsi, buradakı mədəni irsimizin mənimsənilməsi, dağıdılıb yerlə-yeksan edilməsi, alban abidələrinin ermənilər tərəfindən özününküləşdirilməsi vəziyyəti ilə tanışıq. Abidələrimizi yenidən əvvəlki görünüşünə qaytarmaq, onların bərpası və konservasiyası məsələləri, həmçinin yerli və beynəlxalq arenada təbliği, yetişmədə olan gənc nəsli bu məsələlərlə məlumatlandırmaq vəzifəmizi layiqincə yerinə yetirməyə çalışmalıyıq.

Sevindirici haldır ki, 2024-cü ilin aprelin 19-da Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında şərti sərhəddə Ermənistan-Azərbaycan sərhədinin delimitasiyası üzrə birgə komissiyanın növbəti iclası keçirildi və nəticədə hər iki tərəf iki ölkə arasında sərhəd ərazilərin ilkin delimitasiyası üzrə razılığa gəldi. Azərbaycanın 1990-cı illərin əvvəllərindən işğal altında olan 4 kəndinin geri qaytarılmasına razılıq verildi.

Bununlada Ermənistan öz silahlı qüvvələrini Azərbaycanın Bağanıs-Ayrım, Xeyrımlı, Aşağı Əskipara və Qızılhacılı kəndlərindən çıxarmağa başlayıb.

Çox yaxın günlərdə Qazaxın üç anklav kəndinin- Yuxarı Əskipara, Barxudarlı və Sofulu kəndlərinin də də işğaldan tam azad olunması gözlənilir. Tezliklə əsirlikdən azad olunan torpaqlarımıza qayıdacaq və öz tarixi keşmişimiz olan abidələrimizə qovuşacağıq.

**Millətin tarixi mədəni zənginliyinin əsas göstəricisi olan mədəni irsizimiz, tarixi-arxeoloji abidələrimiz zaman-zaman erməni vandalizminin qurbanına çevrilmişdir. İşğal altında olan tarixi abidələrin vandalizim nəticəsində zədələnməsi, yandırılması, dağıdılması, məhv edilməsi yalnız maddi itki deyil, həm də bizə vurulan mənəvi zərbədir. Biz inanırıq ki, qoruma, bərpa və davamlı monitorinq vasitəsilə erməni vandalizminə məruz qalan abidələrin gələcək nəsillərə ötürülməsi üçün lazımı addımlar atılacaq, bütün dünya bu acımızı görəcəkdir.**

## *İri sahibkarlığa verilən kreditlərin həcmi məlum oldu*



**Bu ilin oktyabrın 1-nə Azərbaycanda iri sahibkarlıq subyektlərinə verilən kreditlərin həcmi 8,256 milyard manat təşkil edib.**

Bu barədə Adalet.az Azərbaycan Mərkəzi Bankına istinadən xəbər verir.

Məlumata görə, bu, cari ilin sentyabrın ayının 1-i ilə müqayisədə 221,7 milyon manat və ya 2,8%, ötən ilin eyni dövrünə nisbətən isə 122,6 milyon manat və ya 1,5% çoxdur.

Belə ki, cari ilin sentyabr ayının 1-nə Azərbaycanda iri sahibkarlıq subyektlərinə verilən kreditlərin həcmi 8,035 milyard manat, 2024-cü ilin oktyabrın 1-nə isə 8,134 milyard manat idi.

Qeyd edək ki, bu ilin oktyabr ayının 1-nə Azərbaycan banklarının biznes kredit portfelinin həcmi 15,545 milyard manat təşkil edib ki, bu da əvvəlki ayla müqayisədə 452,8 milyon manat və ya 3%, ötən ilin eyni dövrünə nisbətən isə 1,1 milyard manat və yaxud 7,9% çoxdur.

## *"TikTok" bu il Azərbaycanda 900 minə yaxın videonu silib*

**"TikTok" bu ilin ikinci rübündə Azərbaycanda 880 mindən çox videonu silib.**

Adalet.az xəbər verir ki, bu barədə platforma məlumat yayıb.

Bildirilib ki, İcma Qaydalarına əməl olunmasına dair hesabata əsasən, videoların 99,4%-i platforma tərəfindən proaktiv şəkildə, yeni şikayət daxil olmadan əvvəl müəyyən edilərək silinib. 98%-i isə paylaşım edildikdən sonra 24 saat ərzində silinib ki, bu da dünya üzrə orta göstəricilərdən yüksəkdir.

Qeyd edilib ki, ötən il ərzində Azərbaycanda ümumilikdə 3 milyonadək video silinib.

Eyni zamanda 2025-ci ilin ikinci rübündə dünya üzrə İcma Qaydalarının pozulması ilə əlaqədar olaraq təxminən 190 milyon videoçarx platformadan silinib. Belə ki, videokontentin 99,1%-i proaktiv şəkildə silinib. Roliklərin 94,4%-i paylaşım edildikdən sonra 24 saat ərzində silinib. 90%-dən çoxu isə hər hansı şikayət daxil olmadan əvvəlcədən müəyyən edilərək silinib.

"TikTok"da həmçinin bu ilin birinci rübü ilə müqayisədə dünya üzrə dayandırılmış LIVE yayımların sayında əhəmiyyətli artım müşahidə olunur. Eyni zamanda apellyasiya nəticəsində bərpa olunan yayımların sayı cüzi artıb, bu isə yeni tədbirlərin daha dəqiq və effektiv şəkildə tətbiq olunduğunu göstərir.

Qeyd edilən müddətdə "TikTok" dünya üzrə monetizasiya qaydalarını pozan 2 321 813 canlı yayım və 1 040 356 yayım sahibi ilə bağlı tədbirlər görüb, o cümlədən xəbərdarlıqlar və demonetizasiya tətbiq edib. Xəbərdarlıqlar müəlliflərə kontentlərinin qaydalara zidd ola biləcəyini anlamağa və düzəliş etməyə imkan yaradır. Əgər qayda pozuntuları davam edərsə, "TikTok" müəllifin birbaşa yayımlarda monetizasiya funksiyasına müvəqqəti girişini məhdudlaşdıra bilər. Platforma bu məlumatları gələcəkdə birbaşa yayımların təhlükəsizliyinə dair hesabatlarda da əks etdirəcək.



Nurlanə Məmmədova
Filologiya üzrə fəlsəfə doktoru

# TARİXİLİK VƏ MÜASİRLİYİN VƏHDƏTİNDƏ İKİ YARADICI ŞƏXSİYYƏT

**Ömür fraqmentlərdən ibarət bir kitabdır. İnsanın müxtəlif yaş mərhələlərini əhatə edən bu kitabda gənclik illəri gələcəyin qurulmasında təsdiq pafosunu gözləyən hadisələrlə zəngindir. Bədirxan Əhmədlinin "Nəriman Əbdülrəhmanlının nəsri: tarixilik və müasirliyin vəhdəti" kitabı mənə təhsilimin magistratura pilləsində pedaqoji ustalığı ilə seçilən Bədirxan müəllimi xatırlatdı. Bədirxan müəlliminin tədqiqatçı kimliyini xarakterizə edən cəhət Azərbaycan ədəbiyyatşünaslığında mərhələlər və istiqamətlər üzrə problematik məsələlərə aydınlıq gətirməsidir. Bu yaxınlarda "XX əsr Azərbaycan ədəbiyyatı tarixi" (3 cilddə), "Zamanın yaddaşı: ədəbi diskurslar", "Bir ömrün missiyası" kitablarının nəşri yaradıcı şəxsiyyətin elmi zəkasının çoxşaxəliyini göstərən mətnlərdir. Tədqiqatlarında klassik irsə səyahəti üstün tutan professorun yaradıcılığının yetkin çağlarında müasir dövrün ədəbi prosesinə diqqəti artırması təcrübənin üzərində biliklərini nümayiş etdirməsinə şərait yaradır. 2023-cü ildə nəşr olunan çağdaş zamanla tarixiliyin dialektik vəhdətində təhlil edilən Nəriman Əbdülrəhmanlının yaradıcılığına həsr etdiyi kitabına diqqət yetirməyimizin bir çox səbəbləri vardır. İlk səbəb yazıçının yaradıcılığının müəllim səriştəsinə bağlı izahlı və sistemli şəkildə verilməsidir. Digər tərəfdən isə həm yazıçı yaradıcılığının əsas məziyyətləri, həm də tədqiqatçının araşdırmasının obyektivliyi üzə çıxır. Bu tədqiqat Bədirxan Əhmədlinin və Nəriman Əbdülrəhmanlının yaradıcılıqları üçün səciyyəvi olan keçmişə qayıdışı müasir prosesə bağlı olaraq xarakterizə edir.**

Bədirxan Əhmədlinin Sabit Rəhmandan başlayan yolda müasir nəsrə yönəlməsi həm yazıçı ilə ədəbiyyatşünasın gənclik illərindən tanışlığı, həm də ədəbiyyatşünasın yazıçının nəsr yaradıcılığına dərindən hakim olması ilə bağlıdır. 80-ci illərdə başlayan dostluq münasibətləri bu yaradıcılığın hansı istiqamətlərdə inkişafını mərhələli şəkildə izləməyə imkan vermişdir. Kitab Nəriman Əbdülrəhmanlının həyatı və yaradıcılığı haqqında sistemli bir tədqiqat əsəri xarakteri daşıyır və onun yaradıcı dünyasını hərtərəfli tanıdır.

Bədrixan Əhmədlinin qələmində həyati gerçəkliyə sadiq, emosional və obyektiv Nəriman Əbdülrəhmanlı obrazı yaranır. Publisistikadan nəsrə yönələn yolda bədii düşüncə onun fəaliyyətində əsas element kimi qiymətləndirilmişdir. Kitab portret-oçerk mahiyyətlidir. "Kimdir Nəriman Əbdülrəhmanlı?" sualının cavabı tədqiqatda tam aydınlığı ilə həllini tapır. Bədirxan Əhmədli yazıçının yaradıcılığına 3 aspektdən yanaşır:

- Tarixi konsepsiya baxımından faktın nəsrə uyğunlaşdırılmasında roman janrının əhəmiyyətinə diqqət çəkmək;
- Sadədən mürəkkəbə gedən yolda hekayəçi kimi xarakterik yaradıcı şəxsiyyəti üzə çıxarmaq;
- Hekayədən romana doğru inkişaf edən yazıçı qələmində yeni nəsr texnologiyasının işlənməsinə nəzər yetirmək.

Bütün bunlar məhsuldar bir yazıçı modelini xarakterizə edir. İlkin başlanğıcdan təkamülə, yetkinlik mərhələsinə qədər izlənən bu tədqiqatda hekayə yaradıcılığına 3 mərhələdə nəzər salınmışdır:

1. Axtarışlar mərhələsi: "Məktub", "Bayrama üç gün qalırdı", "Çəpər", "Çıxış", "Dönüm", "Gecələmə".

2. Ənənəvi təhkiyədən uzaqlaşma mərhələsi: "Yelçəkən", "İşıqsızlıq", "Kişi qırığı", "Kəpənək", "Cümə axşamı", "Şeytan mövsümü".

3. Üslubun sabitləşməsi mərhələsi: "Gözəl kişi", "Ağ bayraq", "Qapı", "Təsadüfi adam", "Yarımçıq gün", "Qardaşımın ölümü", "Səsindən yıxılan", "Təkan".

Bədirxan Əhmədli onun yaradıcılığını səciyyələndirən cəhəti sosial gerçəklikdə düşündürmək və insan psixologiyasını məşğul etməklə əlaqələndirmişdir. Tədqiqatçı dərk prosesində sarsıntı keçirən, bəxti gətirməyən qəhrəmanlar silsiləsinə diqqəti yönəltmişdir. Xüsusilə, "Göy adamı" və "Dönəlgə" povestləri bu mövqedən təhlil edilmişdir.

Yazıçının hekayələrində hadisələrin təsvirinin psixoloji məqamlarla müqayisədə arxa plana keçməsi tədqiqatçının diqqətini cəlb edən cəhətdir. "Gözəl kişi", "Ağ bayraq", "Qapı" hekayələrində qapalı çevrə modeli, "Təsadüfi adam" hekayəsində geridönmə effekti, "Təkan" hekayəsində güman modeli, "Yarımçıq gün" hekayəsində assosiativ yanaşma üzərində təhlilini aparan ədəbiyyatşünas yazıçının üslubunda özünü göstərən keçmişə səyahət, başlanğıc nöqtəyə qayıdış, montaj elementlərindən istifadə, qəhrəmanlarını idarə edən müəllifin görünməsi, oxucunun əsərin daxilinə sirayət etməsinə şərait yaradan yönləndirmə yazı stili, obrazın fərdi deyil, ümumi mahiyyətinə önəm verilməsi və sosyo-mədəni toplumu təmsil etməsi məsələlərinə toxunmuşdur.

Bu kitabda iki obraz aydın seçilir: Nəriman Əbdülrəhmanlı və Bədirxan Əhmədli. Bir tərəfdən ədəbiyyatda yazıçının yeri, digər tərəfdən isə ədəbiyyatşünaslıqda tədqiqatçının mövqeyi bir-biri ilə uzlaşdırılır. Az tədqiqat əsəri tapmaq olar ki, bu yaxınlıq təmin edilir. Ya tədqiqata cəlb edilən subyekt qabarıq üzə çıxır, ya da tədqiqatçının kimliyi mühüm rol oynayır. Bədirxan Əhmədlinin kitabı isə yazıçının məharətini və tədqiqatçının üslubunu göstərən mənbədir. Ədəbiyyatşünasın şərh üsulunu "niyə?" və "necə?" suallarına cavabı əsasında qurması tədqiqatın elmi dəyərini artırır.

Tarixi mövzuya müraciət keçmiş dəyərlərin və millilik faktorunun tarixi hadisə və şəxsiyyət timsalında gələcəyə ötürülməsində mühüm amildir. Tarixi mövzuda yazılan əsərlərin ədəbi prosesdə əsas rolu tarixi şəxsiyyətləri daha çox tanıtması ilə bağlıdır. Həm də tarixi mövzu müasir həyatı dərk etmək, keçmişin çağdaş dövrə təsirini müəyyənləşdirməyə xidmət edir. Gələcəyin proqnozlaşdırılması keçmişdə gizlənir. Ədəbiyyatşünas yazıçının romanlarında tarixə qayıdışı ənənəvi meyillərlə və yeniliklə bağlayır. Tarixi xronotop bacarığını diqqətə çatdırmaq istəyən müəllif "zamanı tarixdə yaşatmaq" və "tarixi zamanı yaşatmaq" anlayışlarını qarşı-qarşıya qoyur. Söz, bədii qələmin gücü tarixi faktları daha yadda qalan və əlçatan edir. Bu zaman obyektivlik və müəllif niyyəti də əsasdır. Çünki yazıçı mövcud quruluşun və ideologiyanın təsirinə də düşə bilər, xalqın tarixi yaddaşına da söykənməyi üstün tuta bilər, öz düşüncə tərzində seçdiyi mövzuya yanaşmasını da ifadə edə bilər. Bu cəhətdən Nəriman Əbdülrəhmanlının romanlarında tarixin işlənmə səciyyəsi haqqında Bədirxan Əhmədlinin tədqiqatı geniş imkanlar açır. "Könül elçisi, yaxud Don Xuan de Persia - Oruc bəy Bayatın hekayəti", "Qurban. Yüzilin "Əli və Nino" əfsanəsi", "Yolçu", "Taclı", "Şəms" romanlarında "keçmiş - bu gün - gələcək" üçbucağının qurulmasında mədəniyyətə diqqəti yönəldir. Bu romanların təhlilləri zamanı, tarixi keçmişi bədii təxəyyüllə zənginləşdirən yazıçının tədqiqində Bədirxan Əhmədlinin nəzəri dünyagörüşü üzə çıxır. Janr baxımından "Yalqız"ın roman-assosiyasiya, "Yolsuz"un roman-psixo, "Könül elçisi, yaxud Don Xuan de Persia - Oruc bəy Bayatın hekayəti"nin roman-macəra, "Yolçu"nun roman-salnamə, "Qurban. Yüzilin "Əli və Nino" əfsanəsi"nin roman-xronika, "Taclı"nın roman-triptix, "Şəms"in roman-qeybnamə adlandırılmasını məzmun xüsusiyyətləri ilə əlaqələndirməkdə haqlıdır. Çünki bu əsərlərdə ruhi dünyaya eniş, insan hisslərinə daxili müdaxilə, qəhrəmanların sərgüzəştləri, tarixi hadisələrin əhatəli mənzərəsi, hadisələrin ardıcıllıqla təsviri əsasdır. "Şəms"də XII-XII əsrlər, "Taclı"da XV-XVI əsrlər, "Könül elçisi, yaxud Don Xuan de Persia - Oruc bəy Bayatın hekayəti"ndə XVI-XVII əsrlər, "Yolçu"da XVII-XVIII əsrlər, "Qurban. Yüzilin "Əli və Nino" əfsanəsi"də XIX-XX əsrlərdə baş verən hadisələrin oxucuya təqdiminin yazıçı intuisiyası ilə əlaqələndirilməsi zamanı millilik məfhumu novatorluqla uzlaşdırılır. Bu əsərlərdə fakt və təxəyyül bir-biri ilə mübarizə aparır. Bədirxan Əhmədlinin "Mətndə yazıçının dili, təhkiyəçinin dili və sənədlərin dili də son dərəcə üzvi şəkildə çulğaşıb, bütöv bir üslub yaradır. Hətta romanda hansı detalın tarix, hansı detalın isə bədii təxəyyülün məhsulu olduğunu söyləmək o qədər də asan deyil" fikri təsdiq edir ki, oxucu əsəri tarixin əvəzedicisi kimi qəbul edir. Həqiqi tarixi və yaradılan tarixi aydınlaşdırmaq çətinləşir. Bu üslub təsvir edilən məlumatların doğruluğunu sorğulamaq məsələsini arxa plana keçirir.

Nəriman Əbdülrəhmanlı romanlarının tarixi şəxsiyyətləri ətrafında baş verən hadisələrə münasibət bildirir, uydurma qəhrəman olmadıqlarını və əsərlərin sənədli material olduğunu sübut edir. Onun əsərlərində sərhəd anlayışı itir, tarix, avtiboqrafiya, fantastika kimi elementlər bir-birini tamamlayır. Bədirxan Əhmədli "Yalqız" və "Yolçu" romanlarında modernist düşüncədən, "Könül elçisi, yaxud Don Xuan de Persia - Oruc bəy Bayatın hekayəti", "Yolsuz", "Qurban. Yüzilin "Əli və Nino" əfsanəsi" romanlarında postmodernist tələblərdən bəhs etməklə yazıçının üslubunun polifonikliyi məsələsini qabartmışdır. "Əlahəzrət bədii mətn" kriteriyasını işlədən Bədirxan Əhmədlinin "yazıçı yaşadığı dünyanın gerçəkliklərini qəlbinin və ağlının süzgəcindən keçirərək, yeni dünya yaradır" ifadəsi dünyanın mətndən görsənən üzünə diqqəti cəlb edir. Belə ki, bədii mətnin dünya ilə münasibətində təhkiyə daxili aləmdən oxucunun cəlb edilməsinə yönəldilir.

**Bədirxan Əhmədli elə bir tədqiqat əsəri ortaya qoymuşdur ki, sistemliliyi və hərtərəfliliyi etibarilə Nəriman Əbdülrəhmanlı haqqında yazılacaq tədqiqatlara həm istiqamət verir, həm də tədqiqatçıların işini çətinləşdirir. Çünki bu kitab yazıçının ədəbi prosesdə yerini tam aydınlaşdırır. Kitab yalnız ədəbiyyatşünaslıq üçün tarixi əhəmiyyəti ilə seçilmir, eyni zamanda ədəbiyyatşünasın özünün mütəxəssis roluna yenidən baxmağa şərait yaradır.**

VAQİF YUSİFLİ
Filologiya elmləri doktoru



# ZƏNGƏZUR HƏSRƏTİ İLƏ

**Asif Muradzadə mənim tanımadığım, heç üzünü görmədiyim bir şəxs idi. Təbii ki, onun qələm əhli olduğu barədə də təsəvvürüm ola bilməzdi. Amma onun "Ayrılığın sonu varmış" romanını oxuyandan sonra ixtisasına görə iqtisadçı olan bu şəxsi həm də bir yazıçı kimi etiraf etdim. Yazıçı olmaq isə heç də o demək deyil ki, bir hadisəni nəql edərək, müəyyən süjet qurub o hadisəni təsvir etdiyini obrazlarda canlandırasan. Bunu az-çox savadı olan hər kəs bacara bilər. Yazıçılıq mədəniyyət hadisəsidir - buraya müəllifın bədii təfəkkürü, həyat hadisələrini sənət hadisəsinə çevirmək istedadı əsəs rol oynayır. Yazıçı istər tarixdən yazsın, istərsə də müasir həyatdan... o, canlı, real obrazlar yaratmalı, əsərdəki hadisələrin mahiyyətinə varmalıdır. İlk növbədə, yazdığı əsərdə hansı problemi əks etdirdiyini nəzərə çarpdırmalıdır. Təbii ki, bu prosesdə bədii dil mühüm rol oynayır.**

**Asif Muradzada "Ayrılığın sonu varmış" romanında məhz yazıçı üçün vacib olan bu şərtlərə əməl edə bilib.**




**Onun romanının janrını badii tarixi roman kimi səciyyələndirmək olar. Tarixi roman təbii ki, tarixi hadisələr əsasında qələmə alınır və burada tarixi şəxsiyyətlərin həyatı, onların mübarizəsi ön plana çəkilir.**

**Romandakı hadisələr XX əsrin əvvəllərində baş verir. Müəllif Azarbaycanın ən qədim məskənlərindən biri - Zəngəzurda baş verən ictimai-siyasi hadisələri qələmə alıb. Bu elə bölgədir ki, əbədi-əzəli düşmənimiz olan ermənilər də burada yaşamış və öz mənfur xislətlərinə sadiq qalaraq "mənimsə və hökm sür" işğalçılıq planlarını həyata keçirmişlər. Müəllifin tarixi qaynaqlardan və o hadisələrin canlı şahidi olan insanlardan eşitdiklərindən yaranır əsərdəki reallıqlar.**

**Hər hansı romanda əsas mənbəyi obrazlar təşkil edir. Elə obrazlar olur ki, onlar xarakter səviyyəsinə yüksəlir, elələri olur ki, əsərdə o qədər də mühüm rol oynamırlar. Amma yazıçının məharəti ondan ibarətdir ki, əsərdə təsvir olunan obrazların hər biri öz bədii yükü ilə diqqəti cəlb etsin, yəni heç bir obraz əsərə təsadüfən daxil edilmir. Asif Muradzadənin romanında həm müsbət, həm də tamamilə mənfi obrazlar silsilə təşkil edir. Hacı Atakişi və Məşədi Fərman romandakı müsbət qüvvələri təmsil edirlər. On- ların hər biri özünəməxsus fərqli xüsusiyyətlərə malikdirlər - əqidələri, məramları bir olsa da Hacı Atakişi romanın sonuna - öz ölümünə qədər müdrik el ağsaqqalı missiyasını yerinə yetirir, Zəngəzurun taleyi ilə bağlı bütün məsələlərə reaksiya verir. Məşədi Fərman isə daha dinamik obrazdır, mərdliyi, qoçaqlığı, hər cür çətin, mürəkkəb vəziyyətlərdən uğur qazanması ilə seçilir, amma həm də gəncliyinə xas olan emosionallığı da var. Onun erməni qızı Anahitə aşiq olması təbii hissdir, amma Anahitin içindəki ermənilik bu sevgini düşmənçiliyə çevirir.**

**Romanda mənfiliyi təcəssüm etdirən obrazlar da bütün xislətləri ilə canlandırılır. İlk baxışda belə bir təəssürat yaranır.**

**Bədii ədəbiyyatda hər bir obraz - xüsusilə mənfi olsun, öz fərqli xüsusiyyəti ilə diqqəti cəlb etməlidir. Baqram, Qurgen, Andranik, Anahit, Manvel, Karo - onların məqsəd və qayələri eyni olsa da, müəllif onların hər birinin içindəki erməni xislətini ortaya çıxarır. Romanda təsvir olunan çar-rus məmurlarını da ermənilərdən fərqləndirmək olmur. Əsərdə onların ermənilərin tərəfini tutması aydın qeyd edilir.**

**Romanın təsvir edildiyi məkan - bu məkanın ayrı-ayrı kəndləri əhatə etməsi də müəllifin coğrafi anlayışlara düzgün riayət etdiyini göstərir.**

**Romanda maraqlı cəhətlərdən biri də tarixi etnoqrafık incəliklərin, toponimlərin, Zəngəzur ləhcəsinin, klassik danışıq dilinin önə çıxarılmasıdır.**

**Ümumiyyətlə, məkan məfhumunu nəzərə almamaq olmaz - Zəngəzur həm də bu romanın məcazi mənada baş qəhrəmanıdır.**

**Romanın sonlarına doğru gedirik və nəsillərin bir-birini əvəz etməsi ilə qarşılaşırıq. Səməyə, Sevindik, Ümid, Çöhrə, Azada ata-babalarından gələn ən gözəl ənənələri davam etdirirlər.**

**O ki qaldı romandakı tarixi şəxsiyyətlərə - Nəsib bəy Yusifbəyli, Məhəmməd əmin Rəsulzadə, Bəhlul Behcət, Behbud Şahtaxtinski, Molla Məmmədbağır Qazızadə, Əfrasiyab Hacı Əzim oğlu, Qardaşxan (Qaçaq Qardaşxan) romanda az görünsələr də hər halda tarixi reallığı ifadə edirlər.**

**Asif Muradzadənin "Ayrılığın sonu varmış" romanı böyük Vətən həsrəti ilə qələmə alınıb.**

**Ümid edirik ki, ayrılığın sonuna Qarabağımızda vardığımız kimi digər itirilmiş torpaqlarımızda da bir zaman həsrətimizə son qoyulacaq.**



Ələmdar MƏMMƏDOV

# Mən bu zamana sığmazam

## Zirvəyə doğru: İlyas - İlahi qüvvə, köməyə gələn

(əvvəli ötən saylarımızda)

**Əvvəlki yazılarımda qeyd etdiyim kimi 29 dekabr 1989-cu ildə Cəlilabadda kütləvi ixtişaş baş verdi.**

30 dekabr 1989-cu il tarixdə İlyas müəllim mühüm işlər üzrə müstəntiq Oqtay Qasımovla Cəlilabad Rayon Prokurorluğuna gəldi. Masallı rayon prokuroru Əzizağa Həsənov və Cəlilabad rayon prokurorunun köməkçisi Mircavan Kazımovla birlikdə hadisə yerinə - yandırılmış və dağıdılmış RPK-nın binasına getdi. Həmin vaxtı raykomun binası qarşısında, 20 min adamın iştirakı ilə mitinq keçirilirdi. Raykomun binasından çıxıb, prokurorluğa qayıdan İlyas müəllimi və onu müşahidə edən şəxsləri mitinqçilər görürdülər. Mitinqi idarə edən şəxs aksiyaçılara müraciətlə dedi:

**- Görürsünüz, qanunların keşiyində dayanan, ədalət carçısı, Respublika prokuroru İlyas İsmayılov da mafiyanı müdafiə edir, gələn kimi raykomun binasına getdi. O da xalqdan qaçır, xalqın içərisinə gəlmir.**

Bu zaman İlyas müəllim tribunaya tərəf vüqarlı addımlarla irəlilədi. O, yaxınlaşdıqca insanlar dəhliz açır və ona yol verirdilər. İlyas müəllim tribunaya qalxıb, əlini mikrofona uzatdı. Mitinqi idarə edən şəxs mikrofonu ona verdi. İlyas müəllim ondan soruşdu:

**- Sənin adın nədir?**

**- Səxavət.**

**- İlyas müəllim üzünü camaata tərəf çevirərək dedi:**

**- Səxavətin danışdıqlarının hamısı yalandır.**

Mitinqdə uğultu əmələ gəldi. Sonra İlyas müəllim çoxsaylı suallara cavab verdi. Bütün cavablar qanun çərçivəsində və normasında idi. Bundan sonra yenə mitinqçilər dəhliz açdılar və İlyas müəllim prokurorluğa gəldi (video görüntü qalır).

**Haşiyə:** Məlumdur ki, xalq hərəkatı ilk öncə BDU-da baslamısdır. Tələbə hərəkatının genişlənməsindən ehtiyatlanan Respublika rəhbərliyi danışığa adətən Respublika prokuroru İlyas İsma- yılovu və intellektual səviyyəsi digərlərindən fərqlənən MK katibi Həsən Həsənovu göndərirdi. Universitedə tələbə və müəllim heyəti ilə görüşlər sakit məcrada keçir, adətən kompromis variantla yekunlaşırdı.

İnanılması zor olsa da, İlyas müəllimin və tabe prokurorların insanlarla danışıb razılaşması, öz fərsizliyini və acizliyini görüb etiraf etməyən nomenklaturanı qıcıqlandırırdı.

Bir misal çəkəcəyəm: 1988-ci ildə respublikada siyasi vəziyyət bir qədər də gərginləşmişdi. İnsanlar Topxanada baş verənlərə ciddi etiraz bildirir, kütləvi aksiyalar keçirirdilər. Respublika rəhbərliyi isə vəziyyətə nəzarət edə bilmirdi. Məlumat aldım ki, Göytəpədə yaşayan 18 erməni ailəsini köçürmək üçün mitinq təşkil olunub. Rayonun vəzifəli şəxsləri mitinqdə söz demək istəsələr də, aksiyaçılar onları qovmuşdular. Mən dərhal ora yollandım. Mitinqi alovlu şair Abbasağa idarə edirdi. O, məni görən kimi dedi:

**- Onlar xalqdan qorxub qaçdılar. Sən necə, xalqın qarşısında çıxış etmək istəyirsənmi?**

**- Əgər xalqın şairi söz verərsə, əlbəttə danışaram, - deyə, cavab verdim. Abbasağa məni lazım olduğundan da artıq təqdim etdi və mən mitinqdə 35 dəqiqə çıxış etdim, insanları başa salmağa çalışdım, təxribatdan çəkinməyə səslədim. Dedim ki, bu gün erməni evlərinə hücum etmək düşmənə dəstək verməkdir. Çoxsaylı suallara cavab verdikdən sonra aksiyaçılar dağılışıb getdilər. Səhərisi gün 1-ci katibin otağında MK-dan gələn yoldaşla aramızda xoşagəlməz söhbət oldu. Adını çəkmək istəmədiyim həmin şəxs məndən soruşdu:**

**- Yoldaş Məmmədov, nə üçün katibi və milis rəisini fitə basıb qovan aksiyaçılar Sizi alqışlarla qarşıladılar?**

Mən çox pərt olmuşdum. Təşəkkür və minnətdarlıq gözlədiyim halda, çətin sual qarşısında qalmışdım. Bir qədər susduqdan sonra ironiya ilə dedim:

**- Yoldaşların bəziləri heç bir il deyil ki, Cəlilabadda işləyirlər. Mən isə 4 ildir işləyirəm. Yəqin ki, camaat onları tanımayıb. Ona görə də fitə basıblar.**

Xalqın İlyas İsmayılov şəxsiyyətinə inamını, etimadını təcəssüm etdirən daha bir xatirəni sizinlə bölüşmək istəyirəm. Şair Musa Ələkbərli İlyas müəllim barədə yazdığı xatirədə deyir: ”90-cı illərin əvvəlləri idi. Respublikamızın siyası ab-havası çox qarışıq, demək olar ki, xaos içində idi. Xalqımızın istiqlalçı şairi Xəlil Rza Ulutürk şəhərin müxtəlif yerlərində - ali təhsil ocaqlarının, dövlət idarələrinin, mətbuat orqanlarının qarşısında mitinqlər təşkil edir, piketlərlə çıxış edirdi. Məqsəd Azərbaycanın ərazi bütövlüyünün müdafiəsinə çağırış, bədnam qonşularımızın respublikamızdakı nümayəndələrinin uyğun bir şəkildə yola salınması idi. Belə piketlərdən birində mən də iştirak edirdim. Xəlil Rzanın arxasınca gələn insan seli Respublika Prokurorluğunu üzük kimi dövrəyə aldı. Rəhbərliyə qarşı müxtəlif şüarlar səsləndirilirdi. Adamlar hələ də bu mühüm dövlət orqanında ermənilərin işləməyini qəbul edə bilmirdilər. Xəlil Rza Ulutürk çıxış edərək xeyli sayda erməni soyadı daşıyan adamların adını çəkdi, onların mühüm dövlət orqanında, ali qanunlarımızın keşiyində olmalarını rüsvayçılıq adlandırdı və qəzəblə baş prokurorun, yəni İlyas İsmayılovun ünvanına səsləndi. Bu məqamda İlyas müəllim ağır, təmkinli, vüqarlı addımlarla piket iştirakçılarının önünə gəldi. O, gülümsəyirdi. Elə bil ki, bu hay-küyün fərqində deyildi. Onun təbəssümü bu piketin ürəyincə olmağına sanki bir işarə idi. Asta, düşündürücü bir ifadə ilə piket başqanı Xəlil Rzaya üz tutdu və: ”Xəlil bəy, sizin o sadaladığınız familyaların bir çoxu artıq bizdə işləmir. Narahat olmaya bilərsiniz. Sizin qışqıra-qışqıra dediklərinizi biz sakit, təmkinli şəkildə icra edirik. Yəni bizim - Azərbaycan Prokurorluğunun işi belədir - reklamsız şəkildə öz missiyamıza davam edirik. Bizim şairlərə, ədəbiyyat adamlarına böyük hörmətimiz var. Şair, vətən sevgisində, milli dəyərlərimizin qorunması sahəsində biz də çalışırıq ki, sizdən geri qalmayaq. Nə vaxt istəsəniz, mən sizi qəbul edərəm, ikilikdə söhbətimizi davam etdirərik, adamları işindən-gücündən eləməyin, qoy dağılışıb getsinlər”, - dedi.

Özünəməxsus təbəssümlə başladığı söhbətə elə eyni ovqatla da xitam verdi”.

* * *

Dağlıq Qarabağdakı ümumi vəziyyəti və baş vermiş hadisələrin səbəblərini başa düşmək üçün ixtişaşlarla




bağlı yoxlamalara və istintaqa rəhbərlik etmiş SSRİ Baş prokurorunun müavini A.F.Katusevin SSRİ-nin Baş prokuroru A.M.Rekunkova ünvanladığı məktuba baxmaq lazımdır: ”...Son illərdə Ermənistanda yaranmış Dağlıq Qarabağın Ermənistana birləşdirilməsinin qızğın tərəfdarlarının dayanıqlı qrupu yaranmışdır. Onlar DQMV-yə öz nümayəndələrini göndərərək, DQMV-də yaşayan ermənilərin ”sıxışdırıldıqları” haqqında böhtan xarakterli uydurmalar, müxtəlif ”tarixi təhqiqatları”, müraciətləri kütləvi şəkildə yaymaqla, vilayətin erməni əhalisini birləşmə uğrunda hərəkata qoşulmağa təhrik edirdilər. Yerevandan vilayətə gəlmiş ekstremist əhval-ruhiyyəli şəxslər əhalini bu hərəkata cəlb etmək üzrə iş apararaq, təsərrüfat rəhbərlərini, sovet işçilərini, yerli ziyalıları, ələ alırdılar”.

Moskvanın ermənipərəst mövqeyini və Respublika Prokuroru İlyas İsmayılovun üzləşdiyi çətinliyi Onun öz dilindən eşidək: ”Dağlıq Qarabağ separatçılarının o vaxtki rəhbəri Manuçarovun haqqında Azərbaycan Respublikası Prokurorluğunda dövlət əmlakını xüsusilə külli miqdarda oğurladığına və rüşvətxorluqla məşğul olduğuna görə cinayət işi qaldırılıb, Respublika prokurorunun xüsusi tapşırıqlar üzrə köməkçisi V.T.Boqomolovun rəhbərliyi ilə istintaq aparılırdı. İstintaq çox uğurlu gedirdi. Dağlıq Qarabağda yaşayan erməni əsilli Azərbaycan vətəndaşları özləri Manuçarovu ifşa edən ifadələr verirdilər. Əşyayi-dəlillər də əldə edilmişdi. Cinayətkarlar tərəfindən binanın divar hörgüsündə gizlədilmiş qiymətli qızıl sikkələr və bəzək əşyaları da əldə edilmişdi. İfşa olunduğundan hədsiz qəzəblənən Manuçarov Xankəndində vilayət prokurorluğunda istintaqı davam etdirən Boqomolova hücuma keçdi. Məqsədi cinayət işini ələ keçirib onu məhv etmək idi. Mən deyərdim ki, Boqomolov bu işi böyük qəhrəmanlıqla ondan xilas edə bildi. Manuçarov Azərbaycandan Yerevana qaçdı. Sonralar ermənilərin şikayətinə əsasən (guya, biz işi qərəzli aparırdıq) bu işi SSRİ Prokurorluğu bizdən alıb öz icraatına götürdü və istintaqı xüsusilə mühüm işlər üzrə baş müstəntiq K.K.Maydanyuka tapşırdı. Maydanyuk da, həmçinin SSRİ Baş prokurorunun istintaq üzrə müavini A.F.Katusev də işə çox vicdanla yanaşdılar, 10 nəfərdən çox adam həbs edildi, o cümlədən Manuçarov Yerevanda tutulub Şuşa türməsinə gətirildi. Həmin ərəfədə (tarixi dəqiq yadımda deyil) SSRİ Baş prokuroru A.Y.Suxarev mənə zəng edərək bildirdi ki, səhər Bakıya uçur, onu qarşılayım. Onun istintaq üzrə müavini A.F.Katusev də Bakıda idi. Səhər Suxarevi qarşılayıb mehmanxanada yerləşdirdim. O, müavini A.F.Katusevi, Manuçarovun işini istintaq edən K.K.Maydanyuku və məni yanına dəvət edərək, Manuçarovun haqqındakı həbs qətimkan tədbirinin dəyişdirilib onun azad edilməsi barədə fikrimizi soruşdu. A.F.Katusev və Maydanyuk işin tam sübutlu olduğunu ona bildirdilər və xüsusilə təhlükəli cinayətkar olan Manuçarovun azad edilməsini mümkünsüz saydılar. Onda Suxarev Manuçarovun Moskvaya etap olunması məsələsini müzakirə etdi. Müstəntiq bunun işin istintaqı baxımından ziyanlı olduğunu bildirdi. O dedi ki, həbsdə 10 nəfərdən çox müqəssir var, bu müqəssislər də Manuçarovla üzləşməlidir. Müqəssir və şahidləri Moskvaya etap eləmək isə ağılsızlıqdır. Suxarev bu dəlillərlə razılaşdı. Elə bu vaxt Moskvadan ona zəng oldu. O, zəng edənə işin sübutlu olduğunu, Manuçarovun da azad edilməsinin mümkün olmadığını bildirdi. Zəng edən şəxs çox narazı qaldı və ”ermənilərə qarşı repressiya aparırsınız” dedi. A.Y.Suxarev bizə bildirdi ki, bu şəxs məhz Sov. İKP MK katibi, Siyasi Büronun üzvü A.N.Yakovlevdir.

Sonra mənə aydın oldu ki, Suxarev məhz onun tapşırığı ilə Bakıya gəlibmiş. Ardınca daha dəhşətli hadisələr baş verdi: səhər hərbi vertolyotla Manuçarovu qanunsuz olaraq Şuşa türməsindən Moskvaya apardılar. Qanuna görə, müqəssirin bir türmədən başqasına köçürülməsi ancaq işin istintaqını aparan müstəntiqin onun barəsində etap olunmaya dair prokuror tərəfindən sanksiyalanmış qərarı əsasında ola bilərdi. Belə bir qərar olmadan Moskvadakı azadlıqdan məhrum olunma yeri də müqəssiri qəbul edə bilməzdi. Tez bir müddətdə Manuçarovu Ermənistan Ali Sovetinə deputat seçdilər. Ermənipərəst olmaları ilə tanınan, Azərbaycana düşmən kəsilmiş A.Saxarov və Q.Starovoytova türmədə ona deputat mandatını təqdim etdilər və onlun azad olunmasına nail oldular.

**(ardı var)**

## Azərbaycan Rusiyadan Ermənistana tranzitə icazə verdi



**Azərbaycan tərəfi Rusiya məhsullarının Azərbaycan ərazisindən Ermənistana tranziti üçün Azərbaycan dəmir yollarından istifadənin mümkünlüyünü təsdiqləyib.**

Adalet.az xəbər verir ki, bunu Rusiya Baş nazirinin müavini Aleksey Overçuk bildirib. Onun sözlərinə görə, Rusiya Dəmir Yolları (RJD) və onun regional həmkarları hazırda Rusiya mallarının Azərbaycan üzərindən Ermənistana tranzitinin təşkili üzərində işləyirlər. ”Azərbaycan tərəfi Rusiya məhsullarının Azərbaycan üzərindən Ermənistana tranziti üçün Azərbaycan dəmir yollarından istifadənin mümkünlüyünü təsdiqləyib. Bu baxımdan, biz çox maraqlı irəliləyişlər əldə etmişik. Rusiya Dəmir Yolları hazırda regional həmkarları ilə birlikdə bu daşımaların təşkili üzərində işləyir. Biz həmçinin bu yeni logistika marşrutunun hazırlanması üçün Kənd Təsərrüfatı Nazirliyinə müvafiq göstərişlər vermişik”, - Overçuk qeyd edib.

## Politoloq: “Onların da PKK ilə bağları istisna deyil”

**”PKK terror təşkilatı öz silahlı dəstələrini Türkiyə ərazisindən çıxardığını bəyan etdi. PKK terror təşkilatının liderləri bundan sonra, heç bir perspektivin olmadığını, geosiyasi reallıqların Türkiyənin leyhinə dəyişdiyinin fərqində oldular”.**

Adalet.az xəbər verir ki, bunu politoloq Məhəmməd Əsədullazadə deyib.

O bildirib ki, həmçinin terror təşkilatına dəstək verən xarici mərkəzlərin regionda apardığı siyasət PKK vasitəsilə nəticəsiz oldu. PKK ayaqda qalmasında Türkiyədə bəzi siyasətçilərdə maraqlı olub:

”Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan PKK dəstək verən daxili mərkəzləri neytrallaşdırdı. Suriyanın şimal -Şərqində Kürd silahlıları mövcudluğunu qoruyub saxlayır. Onların da PKK ilə bağları istisna deyil. Bu qruplarında sıradan çıxarılması gözlənilir. Türkiyədə PKK probleminin həlli AKP növbəti seçkilərdə uğur qazandıra bilər”.

**Vasif ƏLİHÜSEYN**

# Müasir dövrdə kitabxanalar biliklər kompleksidir

(İxtisarla)



*"Ədalət" qəzeti Bakı Dövlət Universitetinin İnformasiya və sənəd menecmenti fakültəsinin Kitabxanaşünaslıq kafedrasının müdiri, pedaqogika üzrə fəlsəfə doktoru Elçin Əhmədovla müsahibəni təqdim edir:*

**- Elçin müəllim, tətil günlərində də işlədiyinizi, vaxtınızı elmə sərf etdiyinizi bilirik, amma istədik, təcrübənizi oxucularla bölüşmək üçün bir neçə saatlıq vaxtınızı alaq. Suala belə başlayaq: siz də işləyəndə dincələn ziyalılardansınız?**

- Əslində, görüləcək işlərin əksəriyyətini iş yerində, iş saatında görürəm, Labüd olanda kənarda, istirahət vaxtı məşğul oluram. Təbii ki, istirahət vaxtı işləməyin dincəlmək kimi xarakterizə edilməsi işin mahiyyətindən asılıdır. İşimiz elmi-tədqiqat işi, dərs vəsaiti, proqram yazmaqdı. İstirahət vaxtı bunlara ehtiyac olursa, ərsəyə çatdırdığım elmi-tədqiqat işi, dərs vəsaitinin, proqramın yerinə yetirilməsi, sözsüz ki, məni məmnun edir, bu da qismən dincəlmək sayıla bilər.

**- Elmi ədəbiyyatlardan Kitabxanaçılıq şöbəsinin 1947-1948-ci illərdə Filologiya fakültəsində yaradıldığını, bu günədək böyük inkişaf yolu keçdiyini öyrənmişik. Onu da bilirik ki, şöbənin ilk ixtisas müəllimi Xalq yazıçısı Süleyman Rəhimov olub. Bunları xatırladığıma görə "neçənci ilin məzunu olmusunuz və yazıçıdan dərs almaq maraqlıdırmı" suallarını vermək istədim.**

- Qeyd etdiyiniz kimi, Kitabxanaçılıq ixtisası şöbə formasında bir müddət Filologiya fakültəsinin, daha sonra isə Şərqşünaslıq fakültəsinin nəzdində fəaliyyət göstərib. M.F.Axundov adına Respublika Dövlət Kitabxanasının direktoru Hüseyn Tağıyev, direktor müavini Məryəmxanım Səmədova, kitab palatasının rəhbəri Əliheydər Qəhrəmanov bu şöbədə kitabxanaçılıq ixtisası üzrə dərs keçiblər. Süleyman Rəhimov həmin dövrdə mədəni-maarif müəssislərinə rəhbərlik etdiyindən kitabxanaçılıq şöbəsinin yaradılmasında xidmətləri olub.

Eyni zamanda, həmin fakültədə dərs keçib, lakin mənim təhsil aldığım dövrə təsadüf etməyib, onun müəllimlik fəaliyyəti XX əsrin 50-ci illərinə aiddir. Yazıçının tədris prosesində iştirakını əlamətdar hal sayıram. Bu, tələbələr üçün maraqlı olur. Əsasən qeyd etmək istəyirəm ki, 1955-ci ildə Kitabxanaçılıq şöbəsinin buraxılışında Abuzər Xələfovun məzun olaraq sonrakı missiyası daha böyük olub. Azərbaycanda kitabxanaçılıq təhsilinin, kitabxanaşünaslıq elmi məktəbinin formalaşmasında A.Xələfov misilsiz xidmət göstərib.

O, bir müddət kitabxanaçılıq şöbəsinin müəllimi olduqdan sonra, 1962-ci ildə Kitabxanaçılıq fakültəsi müstəqil fakültəyə çevrilmişdir və Kitabxanaşünaslıq kafedrası yaradılmışdır. Bu tendensiya Azərbaycanda kitabxanaçılıq təhsilinin formalaşmasına əsaslı təsir etmişdir. Fakültə yarandığı gündən tədris planlarının hazırlanması, qabaqcıl təcrübəyə malik olan pedaqoji prosesin tətbiq edilməsi, kitabxanaşünaslıq kafedrasında həm ixtisas müəllimlərinin, həm də kitabxanaşünaslıq, kitabşünaslıq, biblioqrafiyaşünaslıq ixtisası üzrə elmlər namizədi, elmlər doktoru titulu almış müəllimlərin hazırlanması prosesi baş vermişdir. A.Xələfov özü bu ixtisas üzrə ilk elmlər namizədi, ilk elmlər doktoru səviyyəsinə yüksəlmişdir. Eyni zamanda, Abuzər Xələfov fakültənin formalaşmasının ilk illərində prof. Z.Əliyev, dos. H.Həsənov, dos. Ə.Xələfov, dos. T.Quliyev, dos. R.Kazımov və adlarını çəkmədiyim onlarla ziyalılarla birlikdə kitabxanaşünaslıq elmi məktəbini formalaşdırmağa nail olmuşdur.

**- Müstəqil fakültə kimi 1962-ci ildən fəaliyyət göstərən Kitabxanaçılıq şöbəsi sonralar Kitabxanaçılıq-informasiya fakültəsi adlandırılıb. Hazırda isə İnformasiya və sənəd menecmenti olaraq dəyişdirilib. Addəyişmə nəyi dəyişdi? Bu, hansı zərurətdən doğdu?**

- Müstəqil kitabxanaçılıq fakültəsinin yaranması keçmiş SSRİ məkanında bir sıra ali məktəblərdə tədris prosesi olaraq həyata keçirilirdi. Bizim fakültənin tədris planlarının hazırlanması daha çox Moskva Mədəniyyət İnstitutunun və Vilnüs Dövlət Universitetinin kitabxanaçılıq təhsil proqramı əsasında hazırlanırdı. A.Xələfov özü dəfələrlə ali tədris planlarını gətirib bizim proqramlara inteqrasiya edilməsinə çalışıb və yüksək nəticələrə nail olmuşdur. Bu minvalla müstəqil kitabxanaçılıq fakültəsi ali kitabxanaçılıq təhsilinin təkmilləşdirilməsinə təsir edə bilirdi. Onun rəhbərlik etdiyi kitabxanaşünaslıq kafedrası artıq kadr potensialı baxımından o qədər zənginləşirdi ki, Kitabxanaşünaslıq kafedrasından Biblioqrafiyaşünaslıq kaferdasının yaranması, Kitabxanaşünaslıq kafedrasının bazası əsasında Kitabxana fondlarının təşkili və idarə edilməsi kafedrasının yaradılması artıq ali kitabxanaçılıq təhsilinin elmi və pedaqoji fəaliyyətinin formalaşmasına əsaslı surətdə təsir göstərmişdir. Müstəqillik illərinə qədər ali kitabxanaçılıq təhsili yüzlərlə, minlərlə ali təhsilli kitabxanaçı kadrların hazırlanmasına şərait yaratmışdır. Müstəqillik illərində təhsilin Bolonya prosesinə (kredit sisteminə) keçirilməsi, magistatura, doktorantura, dissertantura pilləsinin formalaşması kitabxanaçılıq informasiya təhsilinin də müasir meyarlara yiyələnməsinə təsir göstərmişdir. Fakültədə müstəqillik illərindən sonra ali kitabxanaçılıq təhsilində informatif meyilli fənlər tədris olunub. İnformatika fənninin tədris olunması tələb etdi ki, fakültənin adında dəyişiklik edilib Kitabxanaçılıq-informasiya fakültəsi adlandırılsın.

Bir müddət sonra fakültənin adı dəyişdirilib İnformasiya və sənəd menecmenti ilə əvəz edildi. Dediyiniz kimi, burda söhbət ad dəyişmədən getmir. İnformasiya təmayüllü yeni ixtisasın qəbul planına salınması, Muzey, arxiv işi və abidələrin qorunması ixtisası üzrə fakültəyə 25 nəfər qəbul planının verilməsi adın yenilənməsini zəruri etdi. Həm kitabxana- informasiya fəaliyyəti, həm də Muzey, arxiv işi və abidələrin qorunması ixtisası sənəd-informasiya dövriyyəsini, sənəd-informasiyasının idarə edilməsini, sənəd-informasiya proseslərinin menecmentini özündə ehtiva etdiyinə görə fakültə hazırkı adı daşıyır. Fakültənin qəbul planına yeni ixtisasın verilməsi, kitabxana-informasiya fəaliyyətinin ümumilikdə elmi-tədqiqat prosesləri, elmi-pedaqoji prosesin təkmilləşdirilməsi məhz İnformasiya və sənəd menecmenti adı altında öz yerini tapdı. Hesab edirəm ki, bu da məmnunluqla qarşılandı. Hər il 25 yer Muzey, arxiv işi və abidələrin qorunması ixtisası üzrə qəbul planı verilir. Eyni zamanda, 90 nəfər kitabxanaçılıq-informasiya fəaliyyəti üzrə verilən plan yeri yüz faiz təmin olunur. İnformasiya və sənəd menecmenti fakültəsində aparılan elmi-pedaqoji fəaliyyət, elmi-tədqiqat fəaliyyəti, sosial fəaliyyət bu ixtisasların yeniləşməsinə ixtisaslaşmanın innovasiyalarla təmin edilməsinə yeni şərait yaradır. Uğurlarımız çoxdur fakültə birincilər sırasındadır. Aparılan elmi-pedaqoji fəaliyyət, demək olar ki, bir çox strukturlar üçün nümunəyə çevrilib.

Hal-hazırda bizim Bakı Dövlət Universitetinin İnformasiya və sənəd menecmenti fakültəsində 4 kafedra strukturu fəaliyyət göstərir. Əliyədək əməkdaşımız var, onlar fakültənin yeni istiqamətlə inkişafına nail olurlar. Fakültə rəhbərliyi istər elmi-pedaqoji sahədə, istərsə də elmi-tədqiqat sahəsində ümumilikdə götürüldükdə İnformasiya və sənəd menecmentinin tədris prosesini uğurla idarə edir. Bütün bunlar fakültədə aparılan mükəmməl elmi-pedaqoji fəaliyyətə əsaslanır. Universitet rəhbərliyi fəaliyyətimizi daim dəstəkləyir, bu da fakültənin iş prinsipinə, inkişafına səmərəlilik gətirir.

**- Əmək fəaliyyətinizə Basarkeçər rayonunun kitabxanasında müdir kimi başlamısınız, indi isə Bakı Dövlət Universitetinin Kitabxanaşünaslıq kafedrasında çalışırsınız. Kitabxanaçılıq ixtisasını tədris etməklə praktiki iş görməyin fərqindən danışa bilərsinizmi?**

- Bəli, Basarkeçər rayonunun Dərə kənd kitabxanasında, yəni öz kəndimizdə kitabxanada işləmişəm.

Bunun ilk səbəbi təbii ki, orta məktəbi bitirəndən sonra universitetə qəbul olunmaq istəyim idi. Onda universitet təkcə Azərbaycan Dövlət Universiteti idi. İrəvan, Gəncə şəhərlərində Pedaqoji İnstitutlar vardı, təhsil almaq üçünsə mən ancaq Azərbaycan Dövlət Universitetini istəyirdim. İstəyim bu idi ki, humanitar fakültədə oxuyum. Hansı fakültənin olmasının fərqi yox idi, çünki o dövrlər humanitar fakültələr sırasında Hüquq, Tarix, Şərqşünaslıq fakültələrinə qəbul olunmaq çətin idi. Mənə təklif edildi ki, sənədlərimi Kitabxanaçılıq fakültəsinə verim. Yaşadığım ərazidə xarici dil tədris olunmurdu, attestatımıza qiymət yazılmırdı, ona görə universitetə qəbul imtahanında xarici dildən mexaniki 3 qiymət yazılırdı, müsabiqədən keçmirdim. Bu qarışıqlığı aradan qaldırmaq üçün mənə bildirildi ki, kitabxanaçılıq stajın olsa müsabiqədən keçə bilərsən. Buna görə mən kəndimizdə kitabxana müdiri təyin edildim. Bir müddət fakültəyə girmək üçün staj səbəbilə kitabxanaçı vəzifəsini yerinə yetirdim. Peşənin xoşagəlimliyi ilə bağlı deyim ki, kəndin mərkəzindəki kitabxanaya getməyimdən, kənd uşaqlarının mütaliəsi ilə məşğul olmağımdan məmnundum. Kənd əhalisinə, uşaq və məktəblilərə kitabı təbliğ edirdim. Bu proses mənim üçün xoşagələn idi. Kəndin sakinlərindən kitabxanada işlədiyim müddətdə özümə qarşı ehtiram, hörmət gördüm. İnsanların xoş münasibətindən məndə bu peşəyə maraq yarandı. Staj yığandan sonra fakültəyə qəbul olundum və buranı müvəffəqiyyətlə bitirdim. Bundan sonra gənc mütəxəssis olaraq təyinatla Firidun bəy Köçərli adına Respublika Uşaq Kitabxanasında işlədim. Bir müddət sonra Moskva şəhərində uşaq mütaliəsi, uşaq kitabxanalarının metodik təminat sistemi ilə bağlı təkmilləşmə kursuna getdim Qayıtdıqdan sonra məni Bakı Dövlət Universitetinə dəvət etdilər. Kitabxanaçılıq fakültəsinin aspiranturasına daxil oldum və "Azərbaycanda uşaqlara kitabxana xidməti" mövzusunda dissertasiya müdafiə etdim. Əvvəl müəllim, sonra baş müəllim, dekan müavini oldum və hazırkı vəzifəyədək yüksəldim.

Bu müddət ərzində 6 kitabım çap olunub 200-ə qədər məqalənin müəllifiyəm. Səkkiz məqaləm xarici ölkələrdə ingilis dilində nəşr olunub. Kitabxanaşünaslığın elmi-təcrübi fəaliyyət sahəsi, informasiya və elmi-nəzəri məsələləri var. Biz, eyni zamanda, elmi tədris edirik. Bunlar bir-birini tamamlayan prosesdir. Kitabxana-informasiya fəaliyyətinin təcrübi fəaliyyət sahəsi dinamik inkişaf, elmi-tədqiqat işləri ilə bağlıdır, yəni innovasiyalar kitabxanaşünaslıq tədqiqatlarında özünü tapır, qismən də iş təcrübəsinə şamil olunur.

Təcrübi fəaliyyət sahəsi üstündür, yaxud elmi nəzəri fəaliyyət üstündür deyərək fərq qoymaq mümkün deyil. Bunların hər ikisi bir-birini tamamlayandı. Nəzəriyyə ilə təcrübə bir-biri ilə sıx bağlıdır. Hər bir ixtisasın elmi-nəzəri sahəsi olduğu kimi kitabxana informasiya fəaliyyəti də elmi-nəzəri məsələlər əsasında fəaliyyət göstərir.

**- Bugünkü abituriyentləri bu ixtisasa cəlb edən hansı üstünlüklər var?**

- İxtisasın üstünlüyü əmək bazarında olan şəraitlə bağlıdır. Azərbaycanda tipologiyasından asılı olaraq bir sıra kitabxanalar - Prezident Kitabxanası, Parlament Kitabxanası, Milli Kitabxana, respublika səviyyəli kitabxanalar, rayon mərkəzləşdirilmiş kitabxana sistemləri, məktəb və uşaq kitabxanaları, arxivlər, muzeylər fəaliyyət göstərir. Təkcə məktəb kitabxanalarını götürəndə, beş min məktəb, hər birinin nəzdində bir kitabxananın olması yaxşı göstəricidir. Yetmiş rayonda da Mərkəzləşdirilmiş Kitabxana Sistemi var. Naxçıvan bölgəsindəkiləri və digər kateqoriyalı kitabxanaları da sadalasaq, görərik ki, bu kitabxanalar əmək bazarında özünü göstərə bilib. Kitabxana-informasiya fəaliyyəti, arxivşünaslıq, muzeyşünaslıq bu cür sosial təsisatların kəmiyyətcə çoxluğu abituriyentlərin özlərində stimul yaradır, yəni onlar fakültəyə qəbul olunsalar, hansı sosial təsisatlarda işləyəcəklərini artıq bilirlər. Kitabxana-informasiya müəssisələri, arxivlər, muzeylər həmişə dinamik inkişafda olan sosial təsisatlardır. Burda fərdi-psixoloji faktor da var. Necə ki, kitabxanaçılıq peşəsinə məndə stimul yarandı, gəlib təhsil aldım, eləcə də abituriyentlərin özlərində də istək olur. Çox vaxt tələbələrdən hansı maraqla bu ixtisası seçdiklərini soruşuram. Könüllümü, yaxud hər hansı səbəbə görəmi seçdikləri maraqlı görünür. Birinci kurslarda 65-75 faiz tələbə ixtisası könüllü seçdiyini bildirir.

**- "Azərbaycanda uşaqlara kitabxana xidmətinin təşkili (1901-1995)" adlı dissertasiyanız olub. Bu sahənin araşdırıcısı kimi fikrinizi bilmək vacibdir. Kitabxanalar bugünkü uşaqlara necə xidmət edir?**

- 1988-ci ildə fakültəni yaxşı qiymətlərlə bitirdikdən sonra Firidun bəy Köçərli adına Respublika Uşaq Kitabxanasına metodist vəzifəsinə təyin edildim. Bu kitabxanada 5 il işləməyim mənim peşə biliyimin formalaşmasına, elmi biliklərimin dərinləşməsinə müsbət təsir göstərdi.

İşimizin mahiyyəti respublika uşaq kitabxanalarında elmi-metodik işin gücləndirilməsi, uşaq mütaliəsinin səmərəlilik meyarına təsiri vasitələrilə məşğul olmaq idi. Əvvəldə qeyd etdiyim kimi, o vaxt təkmilləşdirmə kursları Moskva şəhərində təşkil olunurdu. Orda uşaq kitabxanalarının metodik rəhbərlik sistemi adlı kursda işrirak etdim və sertifikat aldım Beş il ali təhsil aldıqdan sonra uşaq mütaliəsi və uşaq kitabxanalarının işi ilə məşğul oldum. (Uşaq kitabxanalarının yoxlanması, metodiki və təftiş işləri və s.) 1993-cü ildə BDU-ya dəvət olunanda A.Xələfov bildirdi ki, uşaq kitabxanalarında işləyib kifayət qədər təcrübə yığmısan, sənə dissertasiya mövzusu təqdim edirik. Mən də aspiranturanı bitirən ili dissertasiya işini müdafiə etdim. Hazırda pedaqogika üzrə fəlsəfə doktoru, dosentəm. Onu da qeyd etmək istəyirəm ki, doktorluq işim "Müstəqillik illərində uşaq və gənclərə kitabxana-informasiya xidməti"dir və bu işi də başa çatdırmışam. Monoqrafiyası da artıq çap olunub. Yəqin ki, qarşıda bu işi də bitirəcəyim məqam yetişəcək.

**Söhbətləşdi:**
**Pərvanə Bayramqızı**



# BAYAT



№ 60 (920)



Sevinc QƏRİB

Cəhənnəmdi hər səhər yoxluğunla oyanmaq,
əllərini arayıb boşa çıxmaq zülümdü.
Bu kədərlə nə etsəm, olmur "diri" dayanmaq,
bu ayrılıq deyil ki, bu bildiyin ölümdü...

Yolları yadırğayan izə dönüb gözlərim,
çəkilib uzaqlara su səpir yanağıma.
Elə taqətdən düşüb qollarınsız dizlərim,
cavab verə bilmirəm özümün qınağıma.

Qorxuram son nəfəsdə adını sayıqlayam,
diksinib xatirələr dualara qarışa.
Yalanları adlayıb, gerçəyi ayaqlayam,
əcəlin barmaqları xəyalınla yarışa.

Yaddaşına sığal çək, gözləyənin var burda,
ruhum əsir üstünə, duymursanmı, sevdiyim?
Qubarında boğulan bu ürək qalıb darda,
sən ey ilahi adam, sən ey evim dediyim!..

***

Hələ yağışlardan səs-soraq yoxdu,
Hələ toz uduruq quru havadan.
Hələ dalğalar da öz rəngindədi,
Qayalar sağ çıxır sulu davadan.

Hələ meh darayır güllərin telin,
Hələ küləklərin boyu gödəkdi.
Günəş geniş açıb pay verən əlin,
Hələ şəfəqlər də dolu yedəkdi.

Hələ ürəyimin yanğısı sönük,
Hələ qollarımda sızlamır ağrı.
Hələ dərd verməyir bir üzüdönük,
Hələ öz eşqinə yuvadı bağrım.

Hələ düz yeriyir ayaqlarım da,
Hələ əsalara bağlıdı yollar.
Durur kürəyimdə dayaqlarım da,
Hələ qucaqlayır məni o qollar.

Özümü görürəm hələ güzgüdə,
Hələ əllərimin sahibi mənəm.
Hələ ögeyləşmir ruhum özgədə,
Hələ vətəniməm, hələ ölkəməm.

***

Ölsəm bağışla, sevdiyim,
Düşdüm dərdin yuvasına.
Yenə ağrıya "kefdəyəm",
Uçuram həb havasına.

Güclüdü dərdin qolları,
Çıxammıram ağuşundan.
Yordum diklənən yolları,
Endim ömrün yoxuşundan.

Ağrıyır saçımın dəni,
Boş ovcumda qış qoxusu.
Ötürüb vaxtı-vədəni,
Gəlir ömrümün yuxusu.

Yolları dincə qoymuşam,
Çəkmələrim ayaqsızdı.
Dərdin üzünü soymuşam,
Yaralarım boyaqsızdı.

Dabanlarım həsrət çəkir,
Bir ovuc torpaq üzünə.
Baxışlarım ümid əkir
Uzaqların qəm düzünə.

Can üstəyəm ölmürəm ki,
İnadım var "qara yelə".
"Razılığa" gəlmirəm ki,
Can borcum var əsir elə.

***

Bəzən tanımıram heç özümü də,
Ruhuma yad gəlir, hissim, həvəsim.
Hərdən qınayıram bu dözümü də,
Sıxdıqca köksümü ölüm nəfəsi.

Əynim iztirabın təzə donunda,
Kipriyim yuyunur köhnə yağışda.
Bəlkə də işıq var yolun sonunda,
Sönür ümidlərim yanlış naxışda.

Kimsə əl uzadır duama sarı,
Göy üzü doludu qırıq diləklə.
Bəxtim cadar üzlü zavallı qarı,
Özüm hələ körpə qızam bələkdə.

Biçənək kimidi arzumun üzü,
Bir-iki dən düşüb ümid yerinə.
Təsəlli seçmişəm könlümə sözü,
Ömür də sığınıb Tanrı şeirinə.

***

Yenə yollar görünür sən olmayan şəhərə,
Əllərinin həsrətin şaxtada dondururam.
Gözümdəki buludu yem edirəm qəhərə,
Bu sərçə ürəyimi ovcuma qondururam.

Dualar göndərirəm sevginin Allahına,
Ayrılığın ömrünü bir az gödək eləsin.
Qaranlığa əsirdi hər günüm, vallah, inan,
Az qalır ki, öz əlim özümü kötəkləsin.

Aydınlığa çıxaram zülməti pusa bilsəm,
Gəncliyinə susayıb qocaltdığım o qız da.
Yaşayardım bəlkə də içimdə susa bilsəm,
Demədiyim nəsnələr boylanır ağ kağızdan.

Gedirəm könlüyalın, ruhum hicran tələşlı,
Qorxuları yenməyə tab gəzirəm özümdə.
Hardan əsdi bu külək, ömrüm qəmə bulaşdı,
Gün darayan bəxtimidərd gətirdi gözümdən.

Ağ bayraq qaldırmağa ruhumdan ar efirəm,
Adıma bürünmüşəm, əyilmərəm kədərə.
Kif basmış arzuları əlçim-əlçim didirəm,
Yeni ümid əyirib don hörürəm qədərə.

### Tanrı, öp dünyanı!

Dünya boğulur...
siyasət adlı qatilin
gözəgörünməz barmaqları
ölüm fırçasıyla rəngləyir
dünyanın sinəsini,
nəfəsi kəsilir yer üzünün...
İlahi, özün gəlmə,
bircə mələyini göndər
nəfəs üfürsün yerin
ciyərlərinə.

O nağıl vardı ha, o nağıl -
mağarada yatmış gözəl
şahzadənin öpüşündən
ayılmışdı.
Bir təzə nağıl başla,
mənfi qəhrəmanın
qələbəsinə sevindirmə iblisi.
Bu nağılın sonuna
üç alma da göndərmə,
Tanrı, öp dünyanı!

### Gedirəm könlüyalın...

Yenə yollar görünür sən olmayan şəhərə,
Əllərinin həsrətin şaxtada dondururam.
Gözümdəki buludu yem edirəm qəhərə,
Bu sərçə ürəyimi ovcuma qondururam.

Dualar göndərirəm sevginin Allahına,
Ayrılığın ömrünü bir az gödək eləsin.
Qaranlığa əsirdi hər günüm, vallah, inan,
Az qalır ki, öz əlim özümü kötəkləsin.

Aydınlığa çıxaram zülməti pusa bilsəm,
Gəncliyinə susayıb qocaltdığım o qız da.
Yaşayardım bəlkə də içimdə susa bilsəm,
Demədiyim nəsnələr boylanır ağ kağızdan.

Gedirəm könlüyalın, ruhum hicran tələşlı,
Qorxuları yenməyə tab gəzirəm özümdə.
Hardan əsdi bu külək, ömrüm qəmə bulaşdı,
Gün darayan bəxtimi dərd gətirdi gözümdən.

Ağ bayraq qaldırmağa ruhumdan ar edirəm,
Adıma bürünmüşəm əyilmərəm kədərə.
Kif basmış arzuları əlçim-əlçim didirəm,
Yeni ümid əyirib don hörürəm qədərə.

### Bir qara əl oynayır sevincimin içində

Ayrılıqdan vüsala salınıb bu körpülər,
Eh... hələ də uzaqlar yetimlik çəkir orda.
Qorxuram bu yolların etibarı qırıla,
Həsrət yerin bərkidir, təzə ev tikir burda...

Körpülərin tağları qırıq bəndə söykənib,
Bir qara əl oynayır sevincimin içində.
Gün təzə boylanırdı duman özün yetirdi,
Yenə yollar üşüyür yiyəsizlik biçimdə.

Bir talesiz yurd orda, üstü kədər örtüklü,
Bəxt güzgüsü çatlamış gəlin ömrüdü ömrü.
Çırağının nefti yox, suyu başdan bulanıb,
Ocağı közsüz qalıb, oğurlanıb kömürü.

Şeytan quyruq bulayır tüstüsüz bacasında,
Qapısında iblisin nökərləri yallanır.
İlahi göydən baxıb nə düşünür görəsən, -
O yurdun adamları yenə nəyə aldanır?!!

Yenə savaş oxuyur meşələrdən gələn səs,
Səbri daha dar gəlir bu torpağın əyninə.
Ağaclar qulağını söykəyib qayalara,
Güllələrin səsini həkk eləyir beyninə...

### Yıxılmazdı ürəyimdən adamlar

Bircə adam saxlayaydın gözümdə,
Kiçiltməzdin ucaltdığım "dağları".
Bircə ümid, bircə inam, tək güvən...
Qaraltmazdın dürr bildiyim "ağları".

Gətirməzdin gözlərimə payızı,
Başlamazdı yarpaq-yarpaq xəzanlar,
Yalanına bulaşmazdı taleyim,
Yıxılmazdı ürəyimdən adamlar.

O qadın da yalançıymış, İlahi,
Aldandım şeytanın mələk üzünə.
İblisiymiş, qaranlığın Allahı
İşıq kimi görünürmüş gözümə.

O adam da babasıymış günahın,
Savab bilib yar seçmişəm özümə.
Düz sözəydi apardığım pənahım
Güvəndim... aldandım kişi sözünə.

Bircə adam saxlayaydın gözümdə,
Bircə ümid, bircə inam, tək güvən...

### Yollar qucaqlayıb köhnə izimi

Yoldumu izimi çəkib aparan,
Mənəmmi bu yolun inadın qıran?
Kimiydi yanımdan ötdü çaparaq,
Kimiydi uzaqdan əl edib duran?

Yol məni, mən yolu gedib bitirdik,
İndi ayrılırıq bir tin başında.
O məndə, mən onda itib gedirdik,
Fərqində deyildik yayın, qışın da.

Fəsil tanımadıq, il tanımadıq,
Qarı ayaqlayıb, buzu adladıq.
Kölgəni yurd seçib daldalanmadıq,
Küləyi belindən iki qatladıq.

Keçdik keçilməzi, tərsi ram etdik;
Aşdıq olmaz adlı aşırım səddi.
Qismətə bölünməz kəsri tam etdik;
Hasil ömrümüzdə qoşa ədəddi.

Mənəmmiş yanımdan tələsik keçən,
Mən yola düşəndə saçım qaraydı.
Dünən zirvədəki qartalı seçən,
Göz indi bilmədi hara haraydı.

Belə unudurmuş insan özünü,
Belə ötüşürmüş illər xəbərsiz.
Yollar qucaqlayıb köhnə izimi,
Təzə iz qoymağa ayaq təpərsiz.

### Tanrının evində bir ruh dul qalıb

Bu taleyin son qadını mən idim,
Ürəyini gözlərinə sığdıran.
Mən idim e buludların bətnindən
Göz yaşıtək yağışları yağdıran...

Könül köçüm göy üzünə yol alıb,
Ulduz-ulduz ilmələnir izlərim.
Tanrının evində bir ruh dul qalıb,
Ora çəkir, ora çəkir dizlərim...

Yeri varmı bir adamlıq komaya,
Ətəyində yuva qurum tanrının.
Gör nə qədər göz dikilib səmaya,
Gözü hardan məni görsün tanrının?!.

### Mənim ürəyim

Mənim ürəyim sənin ürəyin kimi
çoxotaqlı varlı mənzilinə bənzəməz.
Biradamlıq çarpayıda nəfəsini bölüşən
iki aşiqin eşq hərarəti var mənim ürəyimdə.
Yaşanmayan ev kimi ölü, nəfəs toxunmayan
pəncərə kimi cansız deyil mənim ürəyim.

Mənim ürəyimin divarları sevgidən hörülüb
içində olanlar sevgiylə qorunur.
Kasıb komalarının köhnəlmiş damından
yağış daman kimi
göz yaşı damar, ağrı damar mənim
ürəyimdən hərdən.

Mənim ürəyim üç-beş dost sığacaq qədər
geniş,
əzablarını içində boğacaq qədər dardı.
Ucsuz-bucaqsız çöllərə layla çalan qatarlar
kimi
Mənim də ürəyimin öz laylası var,
sevgidən başlanır, sevgidə bitir bütün notlar.

Birnəfərlik kupe kimidi mənim ürəyim,
bileti əlində qalar, keçməyə həddi olmaz
hansısa sərnişinin...
Sən o balaca otağa necə sığmısan bilmirəm,
rahatca gəzib dolaşırsan künc-bucağında.
"Zəbt etdiyin" bütünümün evi, yaşamağa
davam yeri olmusan.

Mənim ürəyimin mətbəxi, dincəlmək,
yemək hücrəsi
divarlarına hörülən sən adlı sevda çırağıyla
işıqlanır,
Acanda xatirələrdən süfrə qurur,
hər xatirənin yanına bir şeir düzür çörək əvəzi.

Hər gecə yuxuları aldadıb ürəyimə köçürəm,
səliqəyə salıram dağınıq eşq süfrəsini,
gündüz tökdüklərimi yığıram öz yerinə.
Sonra öpüb gözündən enirəm yatağıma,
Gecə də layla çalır dizlərində uyuyan
o bəxtəvər qadına...

# Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi

№ 41 (2464) 31 oktyabr 2025-ci il

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi




# GƏNCLİK HƏYAT EŞQİDİR

**Deyirlər ki, insan ömrünün ən gözəl, ən yaddaqalan, ən şirin anları gənclik illəri ilə bağlıdır. Bunu kim deyibsə çox düz deyib, Allah ölənlərinə rəhmət eləsin. Amma Allah-Təalanın sənə verdiyi o gənclik illərini elə yaşamalısan ki, qocalanda heyfsilənməyəsən. Və el dilində demiş olsaq, "papağı günə vermişəm" deyib heyfsilənməyəsən.**

Hər nəslin özünəməxsus gənclik illəri və gənclik çağı olur. Bütün bunları yaşayan insanlar daha yaxşı bilirlər. Əlbəttə, insan elmi, təhsili, savadı və təcrübəni bu illərdə öyrənir. Daha doğrusu, bu gənclik illəri insanları yetişdirir, formalaşdırır və artıq inkişaf etmiş bir mərhələyə çatdırır. Azərbaycan gəncliyi də dövründən asılı olmayaraq həmişə öz sözünü deyib, elm, təhsil, mədəniyyət, idman sahəsində çox böyük uğurlara imza atıb.



Pedaqoji elmlər namizədi Şikar Hüseynov deyir ki, mən Sumqayıt Dövlət Universitetində tələbələrimə pedaqogikadan dərs deyirəm. Ümumiyyətlə, indiki gənclərin dünyagörüşü, müasir texnologiyanı çox mükəmməl bilməsi və həyat tərzi bizim dövrün uşaqları ilə tam fərqlidir. Bir dəfə dərs keçirdim, bir tələbə dərsə gecikmişdi, həm də saqqal saxlayırdı. Gecikməyinin səbəbini soruşdum, dedi ki, pulum olmadı ki, avtobusa minim gəlim. Sözün düzü, tələbəmin belə danışması mənim ürəyimi ağrıtdı. Və auditoriyada bütün tələbələr onun dediklərini eşitdi. Sonradan öyrəndim ki, bu gənc kasıb bir ailənin övladıdır, kirayənişin qalır və çox çətinliklə də dolanır. Axşamlar işləyir, səhər də universitetə gəlir. Sən demə, axşam o qədər yorğun olub ki, həm çox yatıb, həm də dərsə gecikib. Pulun olmaması da təbii ki, bir səbəbdir. Onu da öyrəndim ki, mənim dərs dediyim qrupda oğlan uşaqlarının əksəriyyəti rayondan gəliblər və gecələr işləyirlər. Təbii ki, onların zəhmətsevər ruhda böyüməsi çox vacibdir. Bu uşaqlar gələcəkdə hansı vəzifədə əyləşsə belə yenə yollarını azmayacaq, çətin günlər yaşadığına görə yaxşı günlərin qədrini biləcək və hamıya hörmətlə yanaşacaq.

Heç kim deyə bilməz ki, gənclik illərində çətinlik çəkməyib. İstər varlı ailənin övladı ol, istərsə də kasıbın. Yəni bu elə bir prosesdir ki, həmin mərhələni kimliyindən asılı olmayaraq hamı keçməlidir.

Bu mərhələdə, yəni gənclik illərində insanlar bərkəboşa düşür, çətinliyə alışır və zəhmətkeşliyin nə olduğunu dərindən dərk edirlər. Ona görə də belə gənclər milli ruhda böyüyür və hər şeyi daha dərindən anlayır və başa düşür.

Bizim də tələbəlik illərimizdə Rəfael adlı bir uşaqlıq dostumuz vardı. Həm bir yerdə böyümüşdük, həm də eyni vaxtda Bakıda təhsil alırdıq. O gecələr "Gənclik"dəki çörək mağazalarının birində işləyirdi. Həm özü dolanırdı, həm də Bəhmənlidə ehtiyac içində yaşayan valideynlərinə pul göndərirdi. O qədər zəhmətkeş gənc idi ki, onun mübarizliyinə, çətinliyə sinə gəlməsinə adam məəttəl qalırdı.

Bir dəfə Bakıya qar yağmışdı, çörək mağazalarına çörək gəlməmişdi. Gecə vaxtıydı, gördü ki, acıq, çörəyimiz yoxdu o dəqiqə paltosunu, ayaqqabısını geyinib "Gənclik"ə yola düşdü. Dedi ki, darıxmayın, bir saata gələcəm. Bir saatdan sonra gəlib çıxdı, altı-yeddi isti "baton" çörəyi masanın üstünə qoydu, ikisini də qonşuluqda yaşayan tələbə qızlara verdi. Biz də həmin çörəyi pendirlə isti-isti gözümüzə təpdik.

Bax, o Rəfael gənclik dövründə o qədər çətinliklər görmüşdü ki, hamısını da dəf elədi. İndi məşhur iş adamıdı. Deyir ki, mənim bu mövqeyimə çatmağımda gənclik illərində zəhmətə, əziyyətə alışmağım olub. Əgər o vaxtlar min bir əziyyət görməsəydim indi maddi imkanım belə yaxşı olmaz və kimlərəsə arxa dura bilməzdim. Bax, budur gənclik.

İndiki gənclər vətənpərvərlik mövzularında çəkilmiş Azərbaycan filmlərinə böyük sevgiylə baxmalıdırlar. Çünki o filmlər bizim gəncləri vətənpərvərlik ruhunda tərbiyə edir. "Fəryad", "Dolu" filmlərinə baxmış gənclər heç şübhəsiz, ordan çox şey öyrəndilər. Onlar Ceyhun Mirzəyevin son ana qədər necə mübarizə apardığını, qəhrəmanlıq və humanizm göstərdiyini gördülər. Onlar gördülər ki, əsir düşən Azərbaycan əsgəri saxlandığı evin mənzilini yandırsa da uşağın səsini eşidən kimi onu söndürür. Bax, bu Azərbaycan gəncliyinin, Azərbaycan əsgərinin ən böyük humanistliyi, bəşəri dəyərlərə qiymət verməyi və insanlığıdır. Əgər Zori Balayan öz gənclərinə yazdığı romanda vəhşiliyi təbliğ edirdisə, Azərbaycan filmi Azərbaycan gəncliyinə həyat eşqini, insanpərvərliyi, hətta düşmənin balasına belə əl qaldırmamağı öyrədirdi.

Bu o Azərbaycan gəncliyidir ki, "Dolu" filmində də əsgərlərimizin necə döyüşdüyünü, şəhid olduğunu, amma ruhdan düşmədiyini gördülər. Onlar gördülər ki, Azərbaycan əsgəri torpağımız uğrunda ölmürlər, şəhid olurlar. Və bu şəhidlik əbədi bir ölməzliyə çevrilir.

44 günlük İkinci Qarabağ savaşında sözün həqiqi mənasında Azərbaycan gəncliyi dünyada çox unikal hadisə olan bir qəhrəmanlıq nümayiş etdirdi. Çünki onlar babaları Koroğludan, Qaçaq Nəbidən, Mehdi Hüseynzadədən, Mübariz İbrahimovdan və digər Azərbaycan gənclərindən həm vətəni sevməyi, həm də qəhrəmanlığı öyrənmişdilər.

Onların keçdiyi həyat məktəbi o gəncləri cəsur, döyüşkən, mərd, mübariz yetişdirmişdi. Və bu gənclər 44 günlük İkinci Qarabağ savaşında Azərbaycan tarixində 200 ildən sonra qızıl bir tarix yazdılar. O gənclər ki onlarla biz hər zaman, hər an fəxr etmişik və fəxr edirik.

**Heç də gəncliyi həyat eşqi adlandıranlar bu fikri təsadüfən səsləndirməyiblər. Çünki hər şey gənclikdən başlayır. Əgər gənclik illərində hər hansı bir uşaq düzgün tərbiyə alıbsa, vətənpərvərlik ruhunda böyüdülübsə, milli şüuru formalaşıbsa həmin gənclər həmişə dövlətinə, vətəninə, ailəsinə, xalqına sadiq olacaq və öz yaxşı əməlləri ilə tarix yazacaqlar. Ona görə də bugünki gəncliyimizlə biz sözün həqiqi mənasında fəxr edə, qürur duya bilərik!**

**Emil FAİQOĞLU**

AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ



Əntiqə Kərimzadə

## Taleyi əfsanəyə çevrilən Əfsanələr

*Əsrlər boyu taleyin "qız" buxovundan çıxmaq istəsək də, ancaq "Qız yükü duz yükü", "Qızın döyməyən dizin döyər" kimi atalar sözü eşitməkdən qulaqlarımız qanadı. Doğrudanmı qız övladı evin yüküdür? Doğrudanmı qızların ata evində müəyyən bir "müddət"i var? Müsair dövrdə yaşayırıq deyib, dünyaya car çəksək də, bir çox ailələr bu səsi eşitmir və ya eşitmək istəmir. Müsairlik geyimlə, dini dəyişməklə, müxtəlif əqidələrə qulluq etməklə deyil. Müasirlik günyagörüşünü artırmaq, düşüncələrdə, elmdə, mədəniyyətdə inqilab etməkdir.*

*Məlum məsələdir ki, Astaranın ucqar kəndindən işləməyə gələn 17 yaşlı Əfsanə üçün bunlar yad mövzular idi. O, təhsil alıb, dünyagörüşünü artırmaq əvəzinə kəndə qayıdıb 17 yaşında ana olmağı seçmişdi. Bu onun qərarı idi, yoxsa valideynlərinin? Bax bu, hələ də sual altındadır. Yetkinlik yaşına çatmamış bir qızla münasibət quran adamın vicdanı haqqında rəy vermək isə düşünürəm ki, artıqdır. Hər kəs "ikiəlli" razılaşacaq ki, bu hadisə qızın istəyi ilə olub. 17 yaşlı qız uşaq deyil ki, deyənlər sıraya düzüləcklər. Uşaqdır, əlbəttə uşaqdır. 17 yaşlı qız 11-ci sinif şagirdidir. Yeniyetməlik dövrünün ən çılğın və coşğun dönəmlərini yaşayır. Bu dönəmlərdə onun ən böyük dəstəkçisi öz ailəsi olmalı idi. 17 yaşlı qızı ərə vermək çıxış yolu deyildi.*

*Lap körpəlikdən qız övladına rəngli karandaşlar, kitablar almaq əvəzinə ona cehiz yığanda, həmin qız da məktəb əvəzinə ər evini seçəcək.*

*Qızlarımıza təhsil veməzdən əvvəl onlara ilk növbədə özlərinə dəyər verməyi öyrətməliyik. Hislərinə, düşüncələrinə, beyinlərinə, zəhmətlərinə dəyər verməyi öyrətməliyik. Bunu bacarmaq üçün ilk olaraq özümüzü islah etməliyik. Yəni, özümüz özümüzə dəyər verməliyik. Özümüz özümüzə dəyər verərək öyrətməliyik. Ömrünün baharında həyatla vidalaşan Əfsanəyə bunları öyrədən oldumu? Əlbəttə ki, yox. Nə qədər ki, qızlarımıza öz dəyərini bilməyi öyrətmirik, oxumağın vacibliyini izah etmirik, onları ruhən azad böyütmürük hələ taleyi əfsanə çevrilən Əfsanələrin sayı çox olacaq…*

*17 yaşlı hamilə Əfsanəyə ucqar bir kənddə toy etdilər ki, məsələni kənd camaatından başqa heç kəs bilməsin. Amma Əfsanə gəlinliyini kəfəninə çevirib ölkəyə car çəkdi.*

*Buna taleyin ironiyasımı deyək, yoxsa Allahın ədalətimi…? Hər nə ad veririksə verək, bir gənc qızın geyindiyi gəlinlik onun kəfəninə çevrildi. Bir gənc ana köçdü bu dünyadan- ana olmadan ana oldu. Bir mələk dünyaya gəlmədən mələk oldu…*

# Türkiyədən 4 kənd bu siyahıya daxil edildi

**Türkiyənin daha dörd kəndi BMT-nin Turizm Təşkilatı (UN Tourism) tərəfindən 2025-ci ilin "Ən Yaxşı Turizm Kəndləri" siyahısına daxil edilib. Bu uğur, ölkənin məsuliyyətli və icma əsaslı turizm strategiyasını bir daha önə çıxarır.**

Adalet.az-ın məlumatına görə, Muğlanın Akyaka kəndi, İzmirin Barbaros kəndi, Mardinin Anıtlı kəndi və Antalyanın Kale Üçağız kəndi, təbiətlə ahəng içində olmaları, zəngin mədəni irsləri və davamlı turizmə sadiqlikləri ilə fərqləniblər. Anadolu dağlarının, dənizlərinin və əfsanələrinin qoynunda gizlənən bu kəndlər, Çinin Hucjou şəhərində keçirilən mükafatlandırma mərasimində "Ən Yaxşı Turizm Kəndi" sertifikatı ilə təltif olunub. Ötən illərdə Sakaryanın Taraklı, Nevşehirin Mustafapaşa, İzmirin Birgi və Şirince, eləcə də Antalyanın Ormana kəndləri siyahıya düşdükdən sonra, bu il də Türkiyə kənd turizmi sahəsində dünyanın diqqət mərkəzində yer alıb. Yeni dörd kəndin əlavə olunması ilə, Türkiyənin "UN Turizmin Ən Yaxşı Turizm Kəndləri" siyahısında adı çəkilən kəndlərinin sayı doqquza çatıb.

Muğla vilayətinin Marmarisin şimalında yerləşən Akyaka, sıx yaşıllıqla örtülü dağlar və təmiz turkuaz sular arasında sakit bir qəsəbədir. Qəsəbəni əhatə edən şam və evkalipt ağaclarının arasında Azmak çayı axır, bu da yerin təbii gözəlliyini daha da vurğulayır. Akyaka həm açıq hava fəaliyyətləri üçün ideal məkandır. Burada külək sörfinqi, velosiped sürmə, kite-surfing və trekking kimi idmanlarla məşğul olmaq mümkündür. Amma Akyaka



təkcə macəra sevənlərin deyil, həm də mədəniyyət və memarlıq həvəskarlarının maraq göstərə biləcəyi bir yerdir. Burada ənənəvi Ula üslubunda evlər, Osmanlı və Egey təsirlərini əks etdirir, bölgənin zəngin tarixini və Carian sivilizasiyasının mədəni irsini əks etdirir.

Qonaqlar həmçinin dəniz məhsulları və çeşidli kulinariya təcrübəsi yaşayır, şəhərin səs-küyündən uzaqda yavaş və sakit həyat tərzini kəşf edə bilirlər. Akyaka həmçinin beynəlxalq Cittaslow şəbəkəsinin üzvü kimi tanınır və davamlı, yavaş həyat fəlsəfəsinə sadiqliyini göstərir.

İzmirin Urla bölgəsindən bir neçə dəqiqəlik məsafədə yerləşən Barbaros kəndi, Egey sahilinin yüksələn qastronomiya mərkəzinin yaxınlığında sakit və cazibədar bir məkandır. Kənd daş evləri, ənənəvi memarlığı, yerli kulinariya zövqləri, səmimi sakinləri, əl işləri və yerli məhsulları ilə tanınır.

Barbarosun dar küçələrində gəzən qonaqlar "Çat Kapı" işarəsi olan evlərin qapısını döyərək, yerli zeytun yağı, tərəvəz və ədviyyatlarla hazırlanmış dadlı yeməkləri münasib qiymətə dada bilərlər. Kənddən cəmi üç kilometr uzaqlıqda Urla Şərab Dəstəsi başlayır - burada yeni nəsil şərab istehsalçıları və MICHELIN bələdçisinə daxil restoranlar fəaliyyət göstərir.

Bundan əlavə, qonaqlar baharda keçirilən Oyuk Festivalına qatılaraq, kəndin küçələrini bəzəyən əl istehsalı dekorasiyaları görə bilərlər.

Mardinin Midyat bölgəsində yerləşən Anıtlı kəndi, Suriyalılar, müsəlmanlar, Yezidilər və xristian icmalarının birgə yaşadığı mədəniyyət ocağıdır. Kənddəki ən erkən xristian monastırları bu gün də fəaliyyət göstərir və ziyarətçilər üçün əsas məkanlardandır. Qonaqlar Meryəm Ana Kilsəsindəki mərasimlər, bayram adətləri və hər 15 gündə keçirilən xüsusi tədbirləri izləyə, həmçinin Midyat və Tur Abdin bölgəsindəki UNESCO namizəd kilsə və monastırları kəşf edə bilərlər.

Kənddə Midyat Beynəlxalq Mədəniyyət və İncəsənət Festivalı, yerli kulinariya təcrübələri - qara noxud yeməyi, badam şirniyyatı və ənənəvi kənd fəaliyyətləri qonaqların maraq göstərdiyi əsas təcrübələr sırasındadır.

Antalyanın Demre bölgəsində yerləşən Kale Üçağız kəndi, Türkiyə Rivierası sahilindəki sakit və cəlbedici məkanlardan biridir. "Qala Kəndi" adı ilə də tanınan bu kənd həm mavi suları, həm də zəngin mədəni irsi ilə diqqət çəkir.

Kale Üçağız Likiya Yolu adlı məşhur uzun məsafəli yürüyüş marşrutunun giriş nöqtəsidir. Kənddən Kekova Adasına və batmış Simena şəhərinə asanlıqla keçmək mümkündür; qonaqlar ya gəmilə körfəzləri kəşf edə, ya da kayakla qədim qalıqları görə bilərlər.

Kəndin tarixi əsrlərlə ölçülür və küçələr, daş evlər, zeytun ağacları ilə örtülmüş təpələr, bungenvileyya bitkisi ilə bəzədilmiş evlər və balıqçı gəmiləri ilə dolu kiçik liman ilə zəngin keçmişini gözlər önünə sərir. Kale Üçağız ziyarətçilərinə həm sakitlik, həm də tarixi və təbii gözəllik vəd edir.

# Gənc şair: "Qabil Ədalət və onun kimi düşünənlər bilməlidir ki..."

**Bu gün ədəbi cameə, ədəbi mühit olduqca qarışıq, hətta deyərdim ki, dağınıq bir vəziyyətdədir. Əksəriyyət müəyyən ədəbi məsələlərə, eləcə də ədəbi prosesə münasibətdə fundamental təfəkkür, köklü analtika və ədalət prinsipi vəhdətindən çıxış edə bilmir və ya çıxış etmək istəmir. Təbii ki, bunun da bir çox səbəbləri var. Kimisinin idraki gücü çatmır o mövcud həqiqətlərə çatmağa, kimisində isə idraki güc, təhliletmə potensialı var amma və lakin iradə, eyni zamanda ədalət prinsipi yoxdur ki, həmin gerçəklikləri ictimai müstəvidə ifadə edə bilsin. Məhz bu baxımdan da hazırkı ədəbi mühitdə müəyyən acı həqiqətlər var ki, bir çoxlarının şəxsində "maraqların" və ya daşıdığı kütlə psixologiyasının necə deyərlər, "qurbanı" olur. Həm də bunu da unutmamaq lazımdır ki, gərək, qələm adamı ruhsal azadlığında "qandal"a yer verməsin". Bu sözləri**

Adalet.az-a açıqlamasında gənc şair, publisist Emil Rasimoğlu söyləyib. O, həmkarı gənc şair Qabil Ədalətin onun haqqında səsləndirdiyi fikirləri qəbul etməyib:

"Qabil səsləndirdiyi fikirlərdə kifayət qədər ədalətdən kənar, yanlış düşüncəyə və qənaətə söykənib. Mən Anarı eləcə də Yazıçılar Birliyində Anarın səriştəsiz idarəçiliyini, Anar diktaturasını dəstəkləyən Rəşad Məcidi və digər AYB təmsilçilərini haqlı olaraq niyə tənqid edirəm, göz önündədir. Tənqidi fikirlərimin əsasındakı səbəbləri bilmək üçün mənim çıxışlarımda, yazılarımdakı gerçəkliklərə baxmaq və ya AYB rəhbərliyində Anarın fəaliyyətini doğru - dürüst şəkildə təhlil etmək kifayətdir.

Daha sonra Qabil fikirlərinin digər bir hissəsində isə qeyd edir ki, "bir zamanlar Emilə AYB-nin üzvlük vəsiqəsini Rəşad Məcid təqdim etmişdi". Bu fikir də kökündən yanlış fikirdir. Əvvəla, onu qeyd edim ki, hələ illər öncə AYB-yə üzv olan şəxsə üzvlük vəsiqəsini hər hansısa tədbir müstəvisində Rəşad Məcidin təqdim etməsi Birliyin gənclərlə iş üzrə katibi olaraq onun birbaşa vəzifə borcu idi. Burada qeyri - adi heç nə yoxdur. Amma mənim üzvlük məsələmdə isə heç bu hal da olmadı. Bu məqamda istərdim yaxın keçmişə qısaca nəzər salaq:



Demək, 2015- ci ilin elə bu ayları olardı, Azərbaycan Yazıçılar Birliyinidəki prosesləri, xüsusən də Anarın iş prinsipini mətbuatda kəskin tənqid etmişdim. Hələ onda Birliyin üzvü də deyildim. Mənim məlum tənqidi çıxışımdan sonra Rəşad Məcid Anarın mövqeyinə kürək söykəyib, diktator reaksiyası ilə mənə qarşı əks mövqedə dayandı... Elə həmin günlərin birində AYB-yə üzv olmaq üçün tələb olunan sənədləri Birliyin Qəbul Komissiyasına təqdim etdim. Və bir müddət sonra qəbul olunan üzvlərin sırasında adımı bir yazıdan oxudum. Vəsiqəni isə AYB-nin həmin Qəbul Komissiyasından əldə etdim. Sadəcə bu qədər. Yeri gəlmişkən bildirim ki, AYB-yə üzvlük təkcə Rəşad Məcidin rəyindən asılı olsaydı heç şübhəsiz ki, mənim üzv olmağıma birmənalı şəkildə imkan verməzdi. Hər kəsə bəllidir ki, üzv qəbulu məsələsi iclas zamanı bir şəxsin rəyindən asılı olmur.

E.Rasimoğlu gənclərə verilən Prezident təqaüdünü onların boynuna yük kimi qoyulmasını əsassız hesab edib:

"Qabil Ədalətin vurğuladığı Prezident təqaüdü məsələsinə gəldikdə isə mütləq şəkildə deyim ki, bir istedad sahibini Prezident təqaüdünə layiq görmək, eləcə də hər hansısa mükafatla təltif etmək bu sahədə öhdəliyi olan bütün səlahiyyətli şəxslərin, həmçinin də Yazıçılar Birliyi rəhbərliyinin müzakirəsiz borcudur. Qabil Ədalət və onun kimi düşünənlər bilməlidir ki, bir istedadlı şəxsə verilən hər hansısa mükafat, o mükafatın fonundakı dəyər həmin istedad sahibinin üzərinə qoyulan borc haqqı deyil. Ümumiyyətlə müti psixologiyasından uzaqlaşmaq, əl çəkmək lazımdır".

**Qeyd edək ki, gənc şair Qabil Ədalət müsahibəsində "Bəzi gənclər var ki, onları qınayıram. Məsələn, Emil Rasimoğlunun hərəkətləri qətiyyən bəyənilən deyil. Münasibətmiz var, ancaq mövqeyinə qarşıyam. Emil ədəbiyyatda elə bir mərhələdə deyil ki, Anarı, Rəşad Məcidi tənqid etsin. Bilmirəm bunu niyə edir. Onun bu addımı gündəmdə qalmaq üçündür, yoxsa hikkədir? Səbəbi hər nə olursa olsun, onun bu addımına qətiyyən haqq vermirəm. Axı bir zamanlar Emilə AYB-nin üzvlük vəsiqəsini Rəşad Məcid təqdim etmişdi və Emil də gənc yazar kimi "prezident təqaüdü"nə layiq görülmüşdü. Onun təqaüdə layiq görülməsini təsdiqləyən insanlardan biri də Rəşad Məcid idi. Adam bunları unutmaz axı" söyləyib.**

**Əntiqə Kərimzadə**


Təsisçi və baş məsləhətçi: Aqil ABBAS
Baş redaktor: İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h
Müxbir hesab: 0137010001994
S.W.I.F.T. Bik: AIIBAZ 2xhesab N:
38070019411100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
Telefon: 538-05-50, 538-51-31. 534-55-98 Faks: 539-80-26
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 1500
Sifariş: 252
Çapa imzalanmışdır: 30.10.2025